# AZƏRBAYCAN DİLİ

## METODİK VƏSAİT



**HAVA ABDULLAYEVA, İRADƏ ƏFƏNDİYEVA,**
**MƏLAHƏT ƏLƏSGƏROVA**

# Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili (dövlət dili) fənni üzrə METODİK VƏSAİT

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**kovserneshriyyat @gmail.com** və**derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

**«KÖVSƏR» NƏŞRİYYATI**

# MÜNDƏRİCAT


Giriş........................................................................................................ 4
Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi təlim nəticələri ..... 6
Məzmun xətləri üzrə təlim nəticələri ..................................................... 6
Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Azərbaycan dili" dərslik dəsti ..................................................... 8
Dərslərin illik tematik planlaşdırılması ................................................ 18
Vətənim ............................................................................... 23
Milli Ordu quruculuğunda ......................................................... 24
Səməd bəy Mehmandarov Birinci Dünya müharibəsində .............. 26
Əlvida, Lənkəran torpağı ........................................................... 28
Yadigar qalan innab ağacı .......................................................... 29
Partizan Daşdəmirov (I hissə) ........................................................... 31
Partizan Daşdəmirov (II hissə) ........................................................... 33
Mübarizi olan millət ......................................................................... 34
Arxadan güllə atmaq kişilik sayılmır .................................................. 36
Şərq şeirinin gəncəli ilahəsi ............................................................. 37
"Kəlilə və Dimnə"nin yaranması ........................................................ 39
Qızıl it ............................................................................................... 41
Dahimütəfəkkir..................................................................................42
Bərdənin tərifi .................................................................................... 44
Çinar və taxta parçası ........................................................................ 45
Üsyankar şair .................................................................................... 47
Nəsimi .............................................................................................. 49
Qurban bayramı ...................................................................................50
Ağıllı sövdəgər .................................................................................. 52
Kim haqlıdır? ..................................................................................... 53
Şah İsmayıl (I hissə) .......................................................................... 55
Şah İsmayıl (II hissə) ......................................................................... 56
Qızıldan qiymətli bitki ....................................................................... 58
Ən varlı məmləkət (I hissə) ................................................................ 59
Ən varlı məmləkət (II hissə) ............................................................... 61
Məhəmməd Füzuli .............................................................................. 63
Dənizdə fırtına (I hissə) ..................................................................... 64
Dənizdə fırtına (II hissə) .................................................................... 66
Dərsə gecikən uşaqlar (I hissə) ........................................................... 67
Dərsə gecikən uşaqlar (II hissə) .......................................................... 69
Tariximizi yazan qadın ........................................................................ 70

Ağabəyim ağa (I hissə) ..................... 72
Ağabəyim ağa (II hissə) ..................... 72
İstedadlı şairə, xeyriyyəçi qadın (I hissə) ..................... 74
Xurşidbanu Natəvan (II hissə) ..................... 74
Atəşgah Aleksandr Dümanın gözü ilə ..................... 75
Azərbaycan torpağı ..................... 77
Ərik ağacı ..................... 79
Novruz beynəlxalq bayramdır ..................... 81
Oğul qazancı ..................... 83
Gülbəsləyən qız ..................... 84
Mükafat ..................... 86
Mən sənə qul olacağam, ana! ..................... 88
Ölkəm ..................... 90
Dəmirçioğlunun Çənlibelə gəlməsi (I hissə) ..................... 92
Dəmirçioğlunun Çənlibelə gəlməsi (II hissə) ..................... 94
Dəmirçioğlunun Çənlibelə gəlməsi (III hissə) ..................... 95
Təbriz sənətkarları ..................... 97
Qara Qarayevin ölməz irsi ..................... 99
Səxavət ..................... 100
Rəngkarın son sərgisi ..................... 102
Balaca balıqçı ..................... 103
Hələ bu harasıdır?! ..................... 105
Sonrakı peşmançılıq fayda verməz ..................... 107
Birliyin gücü (I hissə) ..................... 108
Birliyin gücü (II hissə) ..................... 108
Azərbaycan oğluyam ..................... 111
Əsrin Heydər tarixi ..................... 112
Azərbaycan Xalq Cümhuriyyəti ..................... 114
Baharın son ayı ..................... 115
Özünüzü yoxlayın I ..................... 117
Özünüzü yoxlayın II ..................... 121
Özünüzü yoxlayın III ..................... 126
Özünüzü yoxlayın IV ..................... 130
Dərsdə istifadə etmək üçün əlavə məlumatlar ..................... 135
Fənlərarası inteqrasiya ..................... 151
Qiymətləndirmə cədvəllərindən nümunələr ..................... 152
Sözlük ..................... 155

# GİRİŞ

Müstəqil Azərbaycan dövlətinin əsas strateji hədəflərindən biri insan kapitalının inkişafı olduğundan "Müasir təhsil sisteminin formalaşdırılması" ("Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" (7.2) prioritet bir məsələ kimi qarşıya qoyulur. Məlumdur ki, müasir təhsil sisteminin formalaşdırılması isə bir sıra mühüm şərtlərlə yanaşı, ilk növbədə, təhsilin məzmununun yeniləşdirilməsi ilə mümkündür. Bu reallıq əsas tutulduğundandır ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda birinci strateji istiqamətin səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəldiyi qeyd edilmiş, bunun isə təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edəcəyi göstərilmişdir.

Təhsil strategiyasında "şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcəyi" xüsusi vurğulanır. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması isə şəxsin müasir bilik və bacarıqlara yiyələnməsi üçün vacib şərtdir. Çünki bu, "insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək" imkanı verir.

Azərbaycanda təhsil islahatının başlanmasından keçən dövr göstərdi ki, şagirdyönümlülük və inkişafyönümlülük istiqamətində qurulan və şagird şəxsiyyətinin formalaşdırılmasında nəticəyönümlülüyü hədəf alan hazırkı təhsil islahatı qarşıya qoyduğu əsas məqsədlərə addım-addım yaxınlaşmaqdadır.

Dövlətin təhsil siyasətinin hədəf aldığı nəticələrin reallaşdırılması, qeyd edildiyi kimi, təhsilin məzmun və formasının, qiymətləndirmə mexanizmlərinin yeni əsaslar üzərində qurulmasını şərtləndirir ki, bu isə öz növbəsində kurikulum islahatının təhsilin bütün pillələrində, o cümlədən ümumi orta təhsil səviyyəsində sistemli şəkildə davam etdirilməsini həyata keçirməklə yanaşı, onun inkişafını da zərurətə çevirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır.

Təsadüfi deyildir ki, 23 may 2012-ci il tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Azərbaycan dilindən istifadə zamanı bir çox nöqsanlara yol verildiyi, ədəbi dilin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsinə diqqət çəkilir və problemin həlli ilə əlaqədar müvafiq

qurumların, o cümlədən Təhsil Nazirliyinin qarşısında mühüm vəzifələr qoyulur.

Sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda da elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrünün Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb etdiyi vurğulanır. Proqramda həmçinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi"nin dövrün tələbi olaraq qaldığına diqqət çəkilir; "dil və nitq mədəniyyətinin yüksəldilməsi" (3.1.9.) əsas vəzifələrdən biri kimi qarşıya qoyulur.

Azərbaycan Respublikası Prezidentinin "Sərəncamı"ında və "Dövlət Proqramı"nda vurğulanan bu məsələlər, göründüyü kimi, bir çox hallarda birbaşa orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin təlimi ilə bağlanır. Bu baxımdan, "Sərəncam" və "Dövlət proqramı" təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili tədrisinin qarşısında da bir sıra mühüm vəzifələr qoyur.

Bu vəzifələrin yerinə yetirilməsi və qloballaşma şəraitində Azərbaycan dilindən zamanın tələblərinə uyğun istifadənin təmin olunması, "dil və nitq mədəniyyətinin yüksəldilməsi" üçün Azərbaycan dilindən hazırlanan tədris vəsaitlərinin müasir dövrün tələblərinə cavab verməsinə xüsusi diqqət yetirilməli, tədris prosesində öyrənənlərin ehtiyaclarının ödənilməsinə hər cür şərait yaradılmalıdır.

"Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) kurikulumu" da öz növbəsində bu fənn üzrə ümumi təlim nəticələrində, məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə məsələlərində məhz yuxarıda qeyd olunan imkanların reallaşdırılmasını nəzərdə tutur və ona istiqamətləndirilir.

Fikrimizcə, VIII sinif üçün hazırladığımız "Azərbaycan dili" dərslik dəsti (dərslik və müəllim üçün metodik vəsait) bu ehtiyacı ödəmək üçün üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək və tədris prosesində müəllim və şagirdlərin ən yaxın köməkçisi olacaqdır.

Təlim rus dilində aparılan məktəblərin VIII siniflərində tədris işini planlaşdıracaq müəllimlərin ehtiyacını nəzərə alaraq burada ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üçün nəzərdə tutulan məzmun standartlarını veririk.

***Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi təlim nəticələri***

***Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:***

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir;
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir.

## 2. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Dinləyib-anlama**

Şagird:

- dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirir;
- dinlədiyi fikirlərlə bağlı mühakimələr yürüdür.

**Danışma**

Şagird:

- nitqində düzgün tələffüz qaydalarına əməl edir;
- nitqində müxtəlif yardımçı vasitələrdən (uyğun səs tonu, jest, mimika, nitq etiketləri) istifadə edir;
- fikirlərini nitqin müxtəlif formalarında (monoloji, dialoji) ardıcıl ifadə edir.

**Oxu**

Şagird:

- mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah edir;
- elmi-kütləvi və bədii mətnləri düzgün və ifadəli oxuyur;
- elmi-kütləvi və bədii mətnləri məzmun və strukturuna görə təhlil edir.

**Yazı**

Şagird:

- mənbələrdən istifadə etməklə müxtəlif formalı (inşa, esse, hekayə) rabitəli mətnlər yazır;
- özünün və başqasının yazısını təkmilləşdirir;
- yazısında orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir;
- əməli yazılar (elan, məktub, teleqram, izahat, ərizə, tərcümeyi-hal, arayış, protokol, hesabat, akt) yazır.

**VIII sinfin sonunda şagird:**

- ➢ dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir;
- ➢ söz birləşməsi və sadə cümləri qrammatik normalara uyğun tələffüz edir, nitqində məntiqi vurğudan düzgün istifadə edir;
- ➢ müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir, mətnin hissələri arasında əlaqələri gözləməklə danışır;
- ➢ mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir;
- ➢ oxuduğu mətndəki əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir;
- ➢ seçdiyi nümunələrlə yazısını zənginləşdirir;
- ➢ həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir;
- ➢ müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Dinləyib-anlama**

Şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.

**2. Danışma**

Şagird:

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Söz birləşməsi və sadə cümləri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitqində məntiqi vurğudan düzgün istifadə edir.

2.1.3. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.

2.1.4. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.

**3. Oxu**

Şagird:

3.1. Mətni mənimsədiyini nümayiş etdirir.

3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.

3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.

3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

**4. Yazı**

Şagird:

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

4.1.1. Topladığı fakt və məlumatlara münasibətini bildirir.

4.1.2. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.

4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır, fikirlərə münasibət bildirir.

## Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Azərbaycan dili" dərslik dəsti

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Azərbaycan dili" dərsliyi dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətlərini özündə birləşdirən 13 alt standart əsasında ümumi təlim nəticələrinin reallaşdırılması üçün şagirdləri zəruri təlim materialları ilə təmin edir.

8-ci siniflər üçün hazırlanmış "Azərbaycan dili" dərsliyi 60 dərsin reallaşmasını təmin edən 60 paraqrafdan ibarətdir. Hər bir dərs üçün şagirdlərin yaş səviyyələrinə uyğun bədii və elmi-kütləvi mətnlər, şeirlər, əlavə tədris materialları verilmiş, həmin mətnlər üzrə seçilmiş alt standartların reallaşdırılmasına istiqamətləndirilmiş rəngarəng çalışmalar tərtib olunmuşdur. 4 dərs summativ qiymətləndirmə üçün (məsələn: 61-ci, 62-ci, 63-cü və 64-cü dərslər) ayrılmışdır. Summativ qiymətləndirmə üçün nəzərdə tutulmuş materiallar isə məqsədli şəkildə dərsliyə daxil edilməmiş, müəllim üçün vəsaitdə verilmişdir.

2 – 3 dərs saatı üçün nəzərdə tutulmuş paraqraflar üzərində iş müəllimin şəxsi mülahizəsi əsasında təşkil edilə bilər. Burada diqqət yetirmək lazımdır ki, həmin paraqrafların əksəriyyətində bu və ya digər qrammatik materialla şagirdlərin tanış edilməsi də nəzərdə tutulmuşdur. Həcmcə daha böyük olan mətnlərin isə iki, bəzən də üç hissəyə bölünərək oxusunun təşkili məqsədəuyğun hesab oluna bilər. Yaxud mətnin oxusu və məzmunu üzərində işi bir dərsdə həyata keçirməklə, sonrakı dərsdə mətnin qavranılması, onun məzmununun nəql edilməsi və digər çalışmalar üzərində işlərlə müvafiq şifahi və yazılı nitq bacarıqların formalaşdırılması üzrə işlər aparıla bilər.

Dərslik şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınmaqla ciddi elmi prinsiplər əsasında tərtib olunmuşdur. Belə ki, dərsliyin metodik sistemində təsadüfi, bacarıq və vərdişlərin reallaşdırılmasına sistemli şəkildə xidmət etməyən iş forması və ya didaktik material verilməmişdir. Didaktik materialların

seçilməsində isə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda vurğulanan tələblərdən birinə (iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik) əməl olunmasına səy göstərilmişdir. Bununla yanaşı, bədii parçaların seçilməsində şəxsiyyətin hərtərəfli formalaşdırılmasına müsbət təsiri ola biləcək şeir, tapmaca, hekayə, mətn və s. üstünlük verilmişdir.

Dərslikdəki təlim materialları üzərində şagirdlərin məqsədyönlü işini təşkil etmək üçün ilk növbədə dərsliyin metodik sistemi ilə tanışlıq tələb olunur ki, burada onlardan bəziləri üzərində dayanmağı və müəllimlərin diqqətinə çatdırmağı məqsədəuyğun hesab edirik. Dərsliklə tanışlıq forzas səhifəsindən başlamalıdır. Burada bütün dərslik boyu istifadə olunan şərti işarələr yerləşdirilmişdir. Mühüm əhəmiyyət kəsb etdiyindən müəllim, birinci növbədə, şagirdləri həmin işarələrlə tanış etməli, onların mahiyyətinin qavranılmasına diqqət yetirməlidir.

Dərslikdə bu işarələrdən ən çox sistemli şəkildə istifadə olunanı mətndəki sözlərin üzərində qoyulan ulduz (*) işarəsidir. Bu işarədən dərslik boyu tələffüzü üzərində iş aparılması nəzərdə tutulan sözləri fərqləndirmək üçün istifadə olunmuşdur. Belə ki, artıq şagirdlər əvvəlki siniflərdə sözlərin və söz formalarının tələffüzü ilə əlaqədar müəyyən orfoepik qaydalarla tanış olmuş, onlarla həmin qaydaların möhkəmləndirilməsi istiqamətində praktik işlər aparılmışdır. Öyrənilmiş qaydalarla əlaqədar bacarıqların vərdişə çevrilməsi üçün bu istiqamətdə fasiləsiz işlər aparılmalı, bu işlər bir dərs olsa belə, diqqətdən kənarda qalmamalıdır. Odur ki, tələffüz çalışmaları dərslikdə konkret mətn və ya şeirlə, yaxud da hər hansı bir çalışma mətni ilə məhdudlaşdırılmamış, dərsliyin metodik sistemində qırmızı xətt kimi keçərək oxu üçün nəzərdə tutulan bütün tədris materiallarında öz əksini tapmışdır. Yalnız xüsusi məqsəd, yəni bu və ya digər qaydanın möhkəmləndirilməsi üçün dərslikdə üzərində ulduz işarəsi qoyulmuş sözlər əsasında çalışma mətni tərtib edilmişdir. Qalan bütün hallarda üzərində ulduz işarəsi qoyulmuş sözlərin düzgün tələffüzü üzrə zəruri vərdişlərin formalaşdırılması istiqamətində dərsliyin imkanlarından səmərəli istifadə məsələsi müəllimin öhdəsinə buraxılmışdır. Ona görə də dərs ilinin əvvəlində müəllim bu işarənin mahiyyətinin şagirdlər tərəfindən düzgün qavranılmasına, ona şüurlu münasibətin formalaşmasına nail olmalıdır. Təcrübələr göstərir ki, dərsliyin elmi-metodik sistemi bir çox hallarda müəllimin özü tərəfindən dərk edilmədiyindən, dərslərin qarşısında qoyulan metodik prinsiplərə də əməl olunmur və nəticədə qarşıya qoyulmuş məqsədlər reallaşdırılmamış qalır.

Qeyd etməyi lazım bilirik ki, mətn və şeirlərdə ulduz işarəsi ilə fərqləndirilmiş sözlərdən müxtəlif istiqamətli tələffüz çalışmaları kimi istifadə oluna bilər (dərslikdə belə çalışma nümunələri verilmişdir). Belə ki, eyni bir

mətndə ulduz işarəsi ilə fərqləndirilmiş sözlər müxtəlif tələffüz qaydalarını özündə ehtiva edə bilər. Bu da müəllimə fərqli tələffüz qaydalarının praktik tətbiqi istiqamətində qruplarla iş təşkil etməyə imkan yaradır. Tələffüz xüsusiyyətləri baxımından eyni olan sözləri qruplaşdırmaqla şagirdlər onlar arasında oxşarlığı müşahidə edir, onlara aid əlavə misallar söyləməklə fikirlərini əsaslandırır və beləliklə, onlarda düzgün tələffüz bacarığı möhkəmlənərək vərdişə çevrilir. Ola bilər ki, müəllim həmin dərsdə bu sözlərdən yalnız bir qrupu üzərində şagirdləri işlətməyi məqsədəuyğun hesab etsin və ona görə də diqqəti məhz həmin sözlərə yönəltsin. Bütün hallarda unutmaq olmaz ki, düzgün tələffüz bacarığının formalaşdırılması uzun sürən bir prosesdir və onu konkret çalışmalarla həyata keçirmək mümkün deyil. Hər bir mətndə yazılışı və tələffüzü arasında müəyyən fərqlər olan sözlərin xüsusi işarə ilə fərqləndirilməsi, digər tərəfdən, oxu prosesində siqnal rolu oynayır. Belə ki, şərti işarə şagirdlərin göz yaddaşına təsir edir, onların nəzərini cəlb etməklə həm də diqqətlərini fəallaşdırır, həmin sözlərin orfoepik normalar əsasında düzgün tələffüzünə şüurlu münasibətin formalaşmasına xidmət göstərir. Nəticədə oxu prosesində yanlış tələffüz ehtimalı məhdudlaşır ki, bu da müəyyən qədər şagirdlərin tələffüzündə orfoepik normaların pozulması hallarının dərin kök salmasının qarşısını alır. Nitq mədəniyyətini isə düzgün tələffüz bacarığı olmadan təsəvvür etmək çətindir.

Məlumdur ki, sinifdəki şagirdlərin hamısının təlim göstəriciləri və dilə praktik bələdlik səviyyəsi eyni deyildir. Bu səbəbdən çalışmalarda qoyulan tapşırıqların yerinə yetirilməsi də hamı tərəfindən eyni sürətlə baş vermir. Bu boşluğu aradan qaldırmaq və təlim göstəricisi daha yüksək olan şagirdlərin tələbatını ödəmək məqsədilə bəzən dərslikdəki bir çalışma mətni üzərində iki, bəzən hətta üç istiqamətdə işlərin aparılması nəzərdə tutulur. Belə ki, ayrıca götürülmüş bir şagird, yaxud hər hansı bir qrup təqdim edilmiş çalışmaya qoyulmuş əsas tapşırığı yerinə yetirdikdən sonra qalan vaxt ərzində qoyulmuş ikinci tapşırıq üzərində işləyir ki, bu da vaxt itkisinin qarşısını almış olur, şagirdlərin fəallaşdırılmasına şərait yaradır.

Bəzən isə çalışma mətni dil materialı ilə zəngin olduğundan həmin mətn üzərində 2-ci, bəzən hətta 3-cü tapşırığın yerinə yetirilməsi zərurəti qarşıya çıxır. Bu zaman tapşırıq eyni dil faktı üzərində icra olunduğundan 2-ci, 3-cü tapşırıq köməkçi işarə ilə fərqləndirilir, yeni nömrədən istifadəyə ehtiyac duyulmur.

Tapşırıqların yerinə yetirilməsi, qeyd olunduğu kimi, heç də sinifdəki bütün şagirdlər üçün zəruri hesab edilməyə bilər. Təhsil səviyyəsi yüksək olan şagirdlər isə bu tipli tapşırıqları maraqla yerinə yetirir, onlarda yarış əhvali-ruhiyyəsi yaranmış olur.

Deməli, fərqləndirmə işarəsi ilə vaxtında tanışlıq şagirdlərin öz işlərini

düzgün planlaşdırmalarına, tədris ili ərzində istər sinifdə, istərsə də müstəqil işlər zamanı onlarda sürətlə işləmək vərdişlərinin formalaşmasına müsbət təsir göstərir. İşarənin mahiyyəti aydın olmadıqda isə şagirdlər onun fərqinə varmır, öz işlərini əsas tapşırığı yerinə yetirməklə bitmiş hesab edir, digər tapşırıqları yerinə yetirməyə səy göstərmirlər.

Dərslikdə istifadə olunmuş boşluq işarəsi (▭) mətndə və ya çalışmalarda buraxılmış sözlərin yerində işlənir. Əvvəlcədən bu işarə ilə tanışlıq mətnlərin oxusu və çalışmalar üzərində iş zamanı necə hərəkət etmələrinə şagirdləri hazırlamış olur. Belə ki, oxu prosesində şagirdlər boşluqların yerinə cümlənin məzmunundan doğan sözlər artırmaqla həm özlərini sınamış olur, həm də lüğət ehtiyatında olan sözləri fəallaşdırırlar.

Dərslikdə istifadə olunmuş digər işarələrlə şagirdlər əvvəlki siniflərdən tanış olduqlarından müəllim onları yada salmaqla kifayətlənə bilər.

8-ci sinif üçün müəyyənləşdirilmiş standartların nəzərdən keçirilməsi göstərir ki, müvafiq məzmun xətləri üzrə müəyyənləşdirilmiş alt standartlar sinifdən sinfə şagirdlərin dilə yiyələnmə bacarıqlarının inkişafını təmin etməyə yönəlmişdir.Belə ki, dinləyib-anlama xətti üzrə əgər 7-ci sinifdə şagirdlər “dinlədiyi mətnin hissələrini müəyyənləşdirmək”, “dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırmaq” la dinlədiyi mətni anladığını nümayiş etdirirdisə, 8-ci sinifdə müvafiq olaraq “dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcılığını müəyyənləşdirmək” və “dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirmək” şəklində reallaşdırılır.

«Oxu məzmun xətti 7-ci sinifdə «mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah etmək», «səs tonu, temp və fasiləni gözləməklə mətni oxumaq», müəyyənləşdirməyi nəzərdə tuturdusa, müvafiq məzmun xətti 8-ci sinifdə «mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirmək», «əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə etmək», «mətndəki fikirlərə münasibət bildirmək» bacarığı ilə əvəz olunur.

Göründüyü kimi, müxtəlif məzmun xətləri üzrə 8-ci sinifdə nəzərdə tutulan təlim nəticələrinin reallaşdırılması rabitəli mətnlər üzərində işi zərurətə çevirir. Təcrübələr göstərir ki, məzmun standartlarında nəzərdə tutulmuş bir sıra zəruri bacarıqların şagirdlərdə formalaşdırılması rabitəli mətnlər üzərində işlərlə daha səmərəli reallaşdırılır.

8-ci siniflər üçün hazırladığımız dərslikdəki tədris materialları müxtəlif məzmun xətləri üzrə şagirdlərdə zəruri bacarıq və vərdişlərin formalaşdırılması və inkişafına şərait yaratmaqla yanaşı, tədris prosesini səmərəli təşkil etmək üçün müəllimə imkan verəcək, əlverişli təlim mühitinin yaradılmasını təmin edəcəkdir.

Dərslik tərtib edilərkən, qeyd edildiyi kimi, nitq fəaliyyəti üzrə bütün

bacarıqların rabitəli mətnlər əsasında formalaşdırılmasına diqqət yetirilmişdir. Uşaqların praktik dil bacarıqları üçün nəzərdə tutulmuş mətnlər əsas vəzifə ilə yanaşı, onlarda məntiqi, yaradıcı və tənqidi təfəkkürün formalaşdırılmasını da nəzərdə tutur ki, bunlarsız dilin şüurlu mənimsənilməsini həyata keçirmək mümkün deyildir. Bu mətn və şeirlər, eyni zamanda, tərbiyəvi əhəmiyyət daşıyır, şagirdlərdə dövlətçiliyə hörmət və sədaqət aşılanmasına, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına, azərbaycançılıq ideologiyasının mənimsənilməsinə, bir sözlə, şagirdlərin hərtərəfli inkişafına xidmət edir. Mətn və tapşırıqlar həmçinin şagirdlərdə bir sıra əxlaqi keyfiyyətlərin formalaşdırılmasına şərait yaradır, xalqın tarixi keçmişinə maraq oyadır, müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi islahatlarla onları tanış edir, ölkənin sürətli inkişafı barədə aydın təsəvvür yaradır.

Dərslikdəki hekayələr, süjetli şeirlərin oxusu, həmin mətnlər əsasında tərtib edilmiş çalışmalarda nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi şagirdlərin dinlədiyi mətnin hissələrini müəyyənləşdirmək, dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırmaq, nitqdə məntiqi vurğudan düzgün istifadə etmək, müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim etmək, mətnin hissələri arasında əlaqələri gözləməklə danışmaq, müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirmək, müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə etmək, mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək, sözlərin sintaktik vəzifələrini müəyyənləşdirmək kimi bir sıra bacarıqların formalaşdırılmasına, inkişafına və təkmilləşdirilməsinə imkan verəcəkdir.

Rabitəli mətnlər əlverişli nitq situasiyaları ilə zəngin olduğundan sözün, ifadənin mənasının kontekstdə qavranılması üçün də münbit öyrənmə şəraiti yaradır. Odur ki, dərslikdəki çalışmaların böyük əksəriyyəti məhz mətnlərdə işlənmiş sözlərin leksik və qrammatik mənasının mənimsənilməsini, söz birləşmələri və cümlə qurmaq bacarıqlarının təkmilləşdirilməsini vəhdətdə həyata keçirməyi nəzərdə tutur. Bu isə dilin qrammatik quruluşunun praktik yolla mənimsənilməsini təmin edir.

Təcrübələr göstərir ki, şagirdlər üçün sözün qrammatik və ya leksik mənasının, sintaktik vəzifəsinin mətndə qavranılması o qədər də çətinlik törətmir və təlimə marağı artırır. Odur ki, dərslik hazırlanarkən mətnlərdəki hər bir imkandan maksimum istifadə edilmiş, hər bir mətn üzrə ən azı 9-10 çalışma tərtib edilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, bəzən çalışmaların sayının çoxluğu müəllimlərdə ciddi narahatlıq yaradır, onlar həmin çalışmaların hamısının icra edilməsinin mümkünsüzlüyü fikrini irəli sürürlər. Bununla əlaqədar bir daha qeyd etməyi lazım bilirik ki, hər bir sinifdəki şagirdlər dilə praktik bələdlik səviyyələrinə görə müxtəlif olurlar. Hər bir sinifdə həm bu dilin daşıyıcıları, həm də digər xalqların nümayəndələri təhsil ala bilərlər.

Çalışmaların çoxluğu müəllimə seçim imkanı verir, diferensial yanaşma tətbiq etməyə şərait yaradır. Digər tərəfdən, eyni istiqamətli çalışmaların müxtəlif qruplar tərəfindən yerinə yetirilməsi şagirdlərin müstəqil tədqiqat aparmalarını, ədəbi dilimizin normalarının müxtəlif imkan və yollarla mənimsənilməsini nəzərdə tutur, sinifdə yarış əhvalı-ruhiyyəsi yaradır, şagirdləri fəallaşdırır. Praktik dil bilgisi olan, eləcə də təlimdə mənimsəmə səviyyəsi yüksək olan şagirdlərin ehtiyaclarının ödənməsi, onların təlimə marağının artırılması baxımından da çalışmaların sayının çoxluğu narahatlıq doğurmaqdansa, təqdir olunmalıdır. Tutaq ki, hər hansı bir paraqrafda sözlərin məna imkanları üzərində iş aparmaq üçün 4-5 çalışma verilmişdir. Bu çalışmalar çətinlik dərəcəsinə görə qruplaşdırılmalı və şagirdlərin səviyyəsi nəzərə alınaraq onlara təklif edilməlidir. Bu, səviyyəyə görə qruplar təşkil etməyə də imkan verir. Ola bilər ki, müəllim bu çalışmalardan məsləhət bildiyi hər hansını fərdi qaydada şagirdlərə təklif etsin. Odur ki, hər hansı bir sinifdə dərslikdəki bu və ya digər çalışmanın yerinə yetirilməməsi hələ bu çalışmaların lazımsızlığı anlamına gəlməməlidir.

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək bacarığının formalaşması məqsədilə dərslikdə istər mətnlər, istərsə də atalar sözləri və tapmacalar əsasında şagirdlər üçün maraqlı çalışmalar hazırlanmışdır. Bu çalışmalarda şagirdlərin əvvəlki siniflərdən öyrəndikləri atalar sözləri və tapmacaların hissələri qəsdən qarışdırılır və şagirdlərdən məzmunca uyğun hissələri əlaqələndirməklə verilmiş atalar sözləri və tapmacaların ilkin şəklini bərpa etmək tələb olunur. Bu tipli çalışmalar vasitəsilə şagirdlərdə müvafiq bacarıqlar inkişaf etdirilməklə yanaşı, eyni zamanda təlimdə varislik təmin olunur. Belə ki, atalar sözləri və tapmacalar üzərində müəyyən tapşırıqları yerinə yetirməklə şagirdlərdə həm məntiqi təfəkkürün inkişafına şərait yaradılır, həm də onların nitqi hazır dil materialları ilə zənginləşdirilir, öyrəndikləri atalar sözləri və məsəllərin unudulmasının qarşısı alınır. 8-ci sinifdə hissələri bir-biri ilə qarışdırılmış ayrı-ayrı atalar sözlərinin tapılması hissələr arasında əlaqələri müəyyənləşdirmək bacarığının inkişafına şərait yaratmaqla bərabər, atalar sözlərinin şagirdlərin nitqinə daxil olmasını asanlaşdırır.

Şagirdlərdə haqqında danışılan bacarıqların formalaşdırılması məqsədilə mətnlərin tərkibinə başqa bir mətndən hissə daxil edilməsi və ya mətnin özünün hər hansı bir hissəsinin yerinin dəyişdirilməsi metodundan istifadə olunmuşdur. Şeirlərdə isə oxunan şeirin müəyyən bir parçası çalışma mətni kimi istifadə olunmuş və həmin parçanın şeirdəki yerinin müəyyənləşdirilməsi tələb olunmuşdur.

Dərslikdə qeyd olunan yeni tipli xeyli rəngarəng çalışmalar verilmişdir ki, bu çalışmalar üzərində düzgün təşkil olunmuş işlər nəzərdə tutulmuş təlim nəticələrinin reallaşdırılmasını təmin etməyə şərait yaradacaqdır.

Dərslikdə atalar sözlərindən müxtəlif bacarıqların formalaşdırılması istiqamətində istifadə olunmuşdur. "Atalar sözü – ağlın gözü" rubrikası şagirdləri yeni-yeni atalar sözləri ilə tanış etmək məqsədi daşıyır. Ancaq bu rubrikada verilən atalar sözlərindən həm də mətnin ideyasının açılması, yaxud bu və ya digər qrammatik materialın izahı məqsədilə də istifadə olunur ki, nəticədə bir material müxtəlif bacarıqların formalaşdırılmasına xidmət göstərmiş olur.

Atalar sözləri üzərində hər hansı bir tapşırığı yerinə yetirərkən şagirdlər yeni-yeni atalar sözləri ilə tanış olur, dilimizin bu zəngin sərvətinə yiyələnir, yeri gələndə onlardan nitqlərində istifadə edir, bəzi hallarda isə bildikləri atalar sözlərində yol verilmiş səhvləri aşkara çıxarır, onları aradan qaldırmaqla atalar sözlərinin ilkin formalarını bərpa edir, bir hissəsi buraxılmış atalar sözlərini tapıb səsləndirirlər. Bunları hər hansı tapmaca və ya aforizm barəsində də demək olar.

Dərsliyin metodik sistemində diqqəti cəlb edən cəhətlərdən biri də "Hikmət xəzinəsi"ndən rubrikasıdır. Bu rubrikada verilən aforizmlər daha çox əxlaqi səciyyə daşıyır, şagirdlərin həyata hazırlanmasına, onların mənəvi tərbiyəsinə xidmət edir, tərbiyəvi iş aparmağa vəsilə olur. Bu aforizmlər üzərində aparılan müzakirə və debatlar şagirdlərin şifahi nitq bacarıqlarına yiyələnmələrinə, sərbəst fikir mübadiləsi etmələrinə əhəmiyyətli kömək göstərir. Aforizmlərdən həmçinin qrammatik materialların mənimsənilməsində də bir vasitə kimi istifadə olunmuşdur.

"Bunları bilirsinizmi?" rubrikası ədəbi dilin qrammatik, orfoqrafik, orfoepik normaları ilə şagirdləri tanış etmək və müvafiq dil hadisələrinə onların diqqətini cəlb etmək vəzifəsini yerinə yetirir. Şagirdlər rubrikada təqdim olunan məlumatlarla tanış olur, onların dil hadisələrinə praktik tətbiqi üzərində işləyir, nəticədə nəzərdə tutulmuş təlim nəticələrinin formalaşdırılmasına nail olunur. Bütün bunlarla yanaşı, 6 və 7-ci siniflərdə əsas nitq hissələri ilə bağlı şagirdlərin əldə etdikləri məlumatlar şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınaraq bir qədər də təkmilləşdirilir. Belə ki, dilə praktik bələdlik imkanlarının məhdudluğu 6 və 7-ci siniflərdə bəzi qrammatik kateqoriyalar barədə şagirdlərə məlumat verilməsini çətinləşdirdiyindən həmin materiallarla tanışlıq, söz və ifadələrin sintaktik vəzifələrinin müəyyənləşdirilməsi üzərində iş isə 8-ci sinifdə həyata keçirilmişdir.

Çalışma növlərindən biri kimi, sualların mətnin məzmununu əks etdirmədiyinin əsaslandırılmasına həsr olunmuş tapşırıqların yerinə yetirilməsi şagirdlərin marağına səbəb olur, onlarda fikirlərini fakt və hadisələrlə əsaslandırmaq bacarığını inkişaf etdirilir. 8-ci sinifdə mətnin qavranılması üçün nəzərdə tutulmuş suallardan və mətn üzrə tərtib edilmiş plandan, eyni zamanda, mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsi, mətn-

dəki ardıcıllığın bərpa edilməsi məqsədilə də istifadə edilmişdir. Belə ki, məsələn, mətn üzrə tərtib edilmiş suallardan bəziləri mətnin məzmununu əks etdirmir, yaxud suallar mətnin ardıcıllığına uyğun gəlmir ki, belə hallarda şagirdlərə təklif olunur ki, suallara cavab verməklə yanaşı, onları həm də mətndəki ardıcıllıq üzrə yenidən sıralasınlar. Bu istiqamətli işlər mətndən götürülmüş cümlələrin mətnin məzmunu əsasında tamamlanmasını nəzərdə tutan çalışmalarla da reallaşdırılır. Şagirdlər əvvəlcə cümlələri mətnin məzmunu əsasında tamamlamalı, sonra onları mətndəki ardıcıllıq üzrə sıralamalı olurlar ki, nəticədə həm də mətnin planı qurulmuş olur.

Dərslikdə istifadə edilmiş çalışmaların bir qrupu xüsusilə şagirdlərin nitqlərində ahəng qanununa uyğun şəkilçi variantlarını düzgün seçmək bacarığının formalaşdırılmasına istiqamətləndirilmişdir. Bu məqsədlə Azərbaycan dilində təklif edilən çalışmalarla yanaşı, daha çox təhsil aldığı dildən tərcümə vasitəsilə müvafiq bacarıqların formalaşdırılması məqsədəuyğun hesab edilmiş və demək olar ki, hər paraqrafda tərcümə çalışması verilmişdir. Bu çalışmaların şərti dərslikdə nəzərdə tutulmuş, çalışma mətnləri isə dərsliyin həcmi nəzərə alınaraq müəllim üçün metodik vəsaitdə xüsusi başlıq altında yerləşdirilmişdir. Dərslikdə özünəməxsus sistem təşkil edən bu tərcümə çalışmaları da bir neçə məqsədə xidmət edir, müxtəlif alt standartların reallaşdırılmasına şərait yaradır. Belə ki, şagirdlər təklif edilən mətn parçalarını tərcümə etməklə üzərində iş aparılan mətnlərlə əlaqədar müəyyən əlavə məlumatlar əldə edir, həmin məlumatlardan mətnin müəyyən hissələrində bir nümunə kimi istifadə etmək, onları mətnlə əlaqələndirmək üzrə müvafiq bacarıqlara yiyələnirlər. Bu prosesdə, həmçinin tərcümə edilən fikrin Azərbaycan dilinin qrammatik normalarına uyğun formalaşdırılması, cümlədə sözlərin düzgün əlaqələndirilməsi, ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə, orfoqrafik normalara əməl olunması tələb olunur ki, bütün bunlar qarşıya qoyulan müəyyən təlim nəticələrinin reallaşmasına imkan yaradır.

Dərslikdə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi istiqamətinə xüsusi yer ayrılmışdır. Mətndə işlənmiş müəyyən sözlərin, ifadələrin və söz birləşmələrinin mənasının izahı üzərində iş mətnin qavranılması ilə paralel aparılır, eyni zamanda, mətnin sözlüyünün daha ətraflı izahı üçün xüsusi çalışmalardan, testlərdən də istifadə olunur. Nəzərə almaq lazımdır ki, artıq şagirdlərin lüğət ehtiyatında müəyyən miqdar söz və ifadələr vardır. Onlar oxuduqlarını başa düşür, anladıqlarını dəqiqləşdirmək üçün suallar verir, fikirlərini istər şifahi, istərsə də yazılı formada ifadə edə bilirlər. Bütün bunları nəzərə alaraq düşünürük ki, üzərində iş aparılan mətnlərin və şeirlərin məzmununun başa düşülməsi üçün artıq onların cümlə-cümlə tərcümə edilməsinə ehtiyac yoxdur. Elə bu səbəbdən də mətndə elə söz və

ifadələr fərqləndirilmişdir ki, şagirdlər əvvəlki siniflərdə həmin söz və ya söz birləşmələri ilə tanış edilmişlər. Söz və ifadələrin mətndə xüsusi şriftlər və rənglərlə fərqləndirilməsi sözlərin ifadə etdikləri leksik və qrammatik mənalara bir daha diqqət yönəldir. Bu iş müxtəlif yollarla həyata keçirilə bilər. Belə ki, şagird həmin dil vahidlərinin ifadə etdiyi mənanı başa düşdüyünü göstərmək üçün onu təhsil aldığı dilə tərcümə edə, sinonimlərini və ya antonimlərini səsləndirə, yaxud da, sadəcə olaraq, mənalarını təsvir yolu ilə izah edə, həmin söz və ifadələri cümlə içərisində işlədə bilər. Bu yolla həm üzərində iş aparılması nəzərdə tutulan mətnlərin mənası mənimsədilir, həm də şagirdlərin lüğətində olan bir sıra sözlərin mənaları dəqiqləşdirilir və fəallaşdırılır.

Bunlardan başqa, məxsusi olaraq şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə imkan yaradacaq çoxsaylı rəngarəng çalışmalar da hazırlanmış və dərsliyə daxil edilmişdir. Bu istiqamətli çalışmaların yerinə yetirilməsi, bir tərəfdən, şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, digər tərəfdən isə onların mühakimə bacarıqlarını inkişaf etdirir. Çalışma mətnlərinə daxil edilən belə sözlər əsas tədris mətnlərindən seçilir və mətnin üzərində xüsusi işarələrlə fərqləndirilir. Sözlərin omonim mənaları, sinonimləri, məcazi məna imkanları, çoxmənalılığı, quruluşu, digər sözlərlə əlaqə və münasibətləri şərh yolu ilə mənimsənilir. Dərslikdəki bir sıra çalışmalarda söz birləşmələrindən düzgün şəkildə istifadə edilməsi, sözlərin və söz birləşmələrinin bütövlükdə sintaktik vəzifəsinin müəyyənləşdirliməsi üçün nəzərdə tutulan çalışmalarla da şagirdlərdə lüğət ehtiyatına şüurlu münasibər formalaşdırılır.

Azərbaycan dili dərsliyində ayrı-ayrı dərslər üçün verilmiş tədris materialları bir-birini təkrar etmir, ancaq həmin materiallar qoyulmuş mövzu baxımından bir-birini tamamlayır və şagirdlərin mövzu ilə əlaqədar problemləri müxtəlif tərəflərdən görmələrinə, dərk etmələrinə istiqamətləndirilir. Dinləyib-anlama, danışma, oxu və yazı üzrə zəruri bacarıqların formalaşdırılması işi forma və məzmunca son dərəcə rəngarəng, üslubca fərqli mətnlər üzrə aparılır. Bu materıalların içərisində bədii, elmi-kütləvi mətnlərlə yanaşı, uşaqların yaş və bilik səviyyələrinə uyğun nəzm nümunələri, xatirələr, aforizmlər, tapmacalar, atalar sözləri və dialoqların olması təsadüfi səciyyə daşımayıb dərslərdə əlverişli öyrənmə mühitini təmin etmək üçün düşünülmüşdür.

Dərslik dəsti hazırlanarkən varislik nəzərə alınmış, əvvəlki siniflərdəki məzmun xətləri üzrə şagirdlərin təlim nəticələri və bunlarla bağlı bacarıqların səviyyəsi təlim materiallarının xarakterində öz ifadəsini tapmışdır.

Müəllim üçün metodik vəsaitdə şagirdlər üçün hazırlanmış təlim materiallarının xarakterik xüsusiyyətləri müəllimlərin diqqətinə çatdırılır, verilmiş tədris materialları üzrə işlərin təşkili yolları barədə müəyyən tövsiyələr verilir.

Kurikulum islahatının həyata keçirilməsi sahəsində məktəblərin və

müəllimlərin artıq xeyli  təcrübəyə malik olduqlarını nəzərə alaraq, metodik vəsaitdə kurikulumla bağlı anlayışların şərhinə yer verilməsi məqsədəuyğun hesab edilməmişdir.

Metodik vəsaitdə hər bir mövzu üzrə motivasiyanın qurulması nümunəsi verilmiş, müvafiq resurslara diqqət yönəldilmiş, seçilmiş alt standartların reallaşdırılmasına hansı didaktik materiallarla nail olmağın yolları müəyyənləşdirilmiş və tədris materialları bu baxımdan qruplaşdırılmaqla təqdim olunmuşdur.

Metodik vəsaitin sonunda verilmiş "Özünüzü yoxlayın" rubrikası summativ qiymətləndirmə aparmaq üçün nəzərdə tutulmuşdur. Hər bir təkrar və qiymətləndirmə üçün ən azı 30 tapşırıq nümunəsi verilmişdir ki, müəllimlər bunlardan sinfin səviyyəsinə uyğun şəkildə istifadə edə bilərlər. Qiymətləndirmə üçün tərtib olunmuş materiallar dərslikdə məqsədli şəkildə verilməmişdir. Bəzən şagirdlər həmin materiallarla əvvəlcədən tanış olur və yoxlama formal xarakter daşıyır. Bunun qarşısını almaq və şagirdlərin təlim nəticələrinin obyektiv qiymətləndirilməsini həyata keçirmək məqsədilə yoxlama materiallarının dərslikdə deyil, müəllim üçün vəsaitdə verilməsi qərara alınmışdır. Burada qeyd etməyi lazım bilirik ki, yoxlama məqsədilə tərtib edilmiş bu tapşırıqlardan istifadə etməklə yanaşı, müəllimlər dərs dedikləri hər bir sinfin səviyyəsinə uyğun yoxlama materialları tərtib etməkdə sərbəstdirlər. Müəllimlər metodik vəsaitdə təklif olunmuş yoxlama və təkrar materiallarını dərs dedikləri sinfin səviyyəsinə uyğunlaşdırmaqla da istifadə edə bilərlər ki, bu da hər bir müəllimin məsələlərə nə dərəcədə yaradıcı yanaşmasından asılıdır.

Vəsaitin sonunda həmçinin müəllimlərə kömək məqsədilə dərslikdə verilmiş maraqlı şəxsiyyətlərin həyat və fəaliyyətləri barədə materiallar verilmişdir ki, bu da dərslərin daha maraqlı keçməsini təmin etmək üçündür. Ayrı-ayrı fənlər üzrə fənlərarası inteqrasiya yaradılması üçün  müraciət edilmiş məzmun standartlarının da verilməsi məqsədəuyğun hesab edilmişdir.

## Dərslərin illik tematik planlaşdırılması

| Sıra | Mövzu | Saat | Dərslik (səh.) | Metodik vəsait Səh. | Standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|---|---|
| 1 | Vətənim | 1 | 7 | 24 | 1.1.1; 2.1.4; 3.1.3; 4.1.2. | Az.t. – 1.2.2. Coğ. – 3.2.1. Əd. – 1.2.4. |
| 2 | Milli Ordu quruculuğunda | 1 | 8 | 25 | 1.1.2; 2.1.4; 2.1.1; 4.1.2.; 4.1.3. | Az.t. – 1.2.2.; 4.1.1. Coğ. 3.2.1. Əd. 3.1.2. |
| 3 | Səməd bəy Meh-mandarov Birinci Dünya müharibəsində | 1 | 11 | 27 | 1.1.2 ; 2.1.1 ; 3.1.1 ; 4.1.3 | Az.t. – 1.2.1. Əd. – 2.2.1. |
| 4 | Əlvida, Lənkəran torpağı | 1 | 15 | 29 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.4 ; 3.1.3 ; 4.1.1 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 5 | Yadigar qalan innab ağacı | 1 | 17 | 30 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 3.1.1 | Az.t. – 4.1.1. Əd. – 1.2.4. |
| 6 | Partizan Daşdəmirov (1-ci hissə) | 1 | 21 | 32 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.4 ;3.1.2 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 3.1.2. |
| 7 | Partizan Daşdəmirov (2-ci hissə) | 1 | 23 | 34 | 1.1.2 ; 2.1.1; 2.1.2 ; 2.1.3 ; 3.1.1 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 3.1.2. |
| 8 | Mübarizi olan millət | 1 | 26 | 35 | 1.1.2 ; 2.1.1. 2.1.2 ; 2.1.3 3.1.3 | Az.t. – 1.3.1. Əd. – 2.1.1.; 3.1.2.; 1.2.2. |
| 9 | Arxadan güllə atmaq kişilik sayılmır | 1 | 29 | 37 | 1.1.2 ; 2.1.3 ; 3.1.3 | Az.t. – 1.3.1.; 4.1.1. Əd. – 1.2.4.; 3.1.2. |
| 10 | Şərq şeirinin gəncəli ilahəsi | 1 | 31 | 38 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.4 ; 3.1.1 ; 3.1.3 | Az.t. – 4.1.1.; 1.2.2. Əd. – 2.2.1.; 3.1.2. |
| 11 | “Kəlilə və Dimnə”nin yaranması | 1 | 34 | 40 | 1.1.1 ; 2.1.1 ; 2.1.3 ; 2.1.4 ; 3.1.3 | Az.t. – 1.2.1.; 1.2.2. Coğ. – 1.1.1. Əd. – 3.1.2. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 12 | Qızıl it | 1 | 36 | 42 | 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 2.1.4 ; 3.1.2 | Az.t. – 1.3.1. Coğ. – 3.2.3. Əd. – 2.2.1. |
| 13 | Dahi mütəfəkkir | 1 | 39 | 43 | 1.1.2 ; 2.1.2 ; 2.1.3 ; 3.1.1 ; 4.1.3 | Az.t. – 1.2.2.; 4.1.1. Coğ – 3.2.1. Əd. – 1.2.4.; 3.1.2. |
| 14 | Bərdənin tərifi | 1 | 41 | 45 | 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 3.1.2 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.1.1.; 1.1.1. |
| 15 | Çinar və taxta parçası | 1 | 43 | 46 | 1.1.2 ; 2.1.2 ; 2.1.3 ; 2.1.4 ; 3.1.3 ; 4.1.2 | Coğ. – 3.2.3. Əd. – 2.2.1.; 3.1.2. |
| 16 | Üsyankar şair | 1 | 46 | 48 | 2.1.1 ; 2.1.3 ; 2.1.4 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 4.1.1.; 1.3.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 17 | Nəsimi | 1 | 49 | 50 | 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 2.1.4 ; 3.1.3 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 1.1.1.; 1.2.2. |
| 18 | Qurban bayramı | 1 | 51 | 51 | 1.1.1 ; 2.1.1 ; 2.1.2 ; 3.1.1 ; 3.1.3 ; 4.12 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.1.1. |
| 19 | Ağıllı sövdəgər | 1 | 54 | 53 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.3 ; 3.1.1 ; 3.1.3 | Az.t. – 1.2.1. Əd. – 1.2.4.; 2.2.1. |
| 20 | Kim haqlıdır? | 1 | 56 | 54 | 1.1.2 ; 2.1.1 ; 2.1.4 ; 3.1.1 | Az.t. – 1.3.1. Coğ. – 2.1.3. Əd. – 2.2.1. |
| 21 | Şah İsmayıl (I hissə) | 1 | 59 | 56 | 1.1.1 ; 2.1.1 ; 2.1.2 ; 2.1.4 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.1.; 4.1.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 22 | Şah İsmayıl (II hissə) | 1 | 61 | 57 | 1.1.2 ; 2.1.1 ; 2.1.3 ; 3.1.2 ; 3.1.3 | Az.t. – 1.2.1.; 4.1.1. Əd. – 1.2.4.; 3.1.2. |
| 23 | Qızıldan qiymətli bitki | 1 | 63 | 59 | 1.1.2 ; 2.1.1 ; 3.1.2 ; 3.1.3 | Az.t. – 1.3.1. Coğ. – 3.2.3. Əd. – 2.2.1. Biol. – 2.2.1. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 24 | Ən varlı məmləkət (I hissə) | 1 | 66 | 60 | 1.1.1 ; 2.1.1 ; 2.1.2 ; 2.1.4 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.3.1.; 4.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 25 | Ən varlı məmləkət (II hissə) | 1 | 68 | 62 | 2.1.1 ; 2.1.3 ; 2.1.4 ; 3.1.2 ; 3.1.3 | Az.t. – 1.3.1.; 4.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 26 | Məhəmməd Füzuli | 1 | 71 | 64 | 1.1.2 ; 2.1.1 ; 2.1.4 ; 3.1.1 ; 3.1.3 | Az.t. – 4.1.1. Əd. – 1.2.4. |
| 27 | Dənizdə fırtına (I hissə) | 1 | 73 | 65 | 2.1.1 ; 2.1.3 ; 2.1.4 ; 3.1.3 ; 4.1.1 ; 4.1.2 | Coğ. – 2.1.3. Əd. – 1.2.4.; 2.2.1. |
| 28 | Dənizdə fırtına (II hissə) | 1 | 75 | 67 | 1.1.2 ; 2.1.3 ; 2.1.1 ; 3.1.3 ; 4.1.2 | Coğ. – 2.1.3. Əd. – 1.2.4.; 2.2.1. |
| 29 | Dərsə gecikən uşaqlar (I hissə) | 1 | 77 | 68 | 1.1.1.; 1.1.2 ; 2.1.2 ; 2.1.3 ; 2.1.4 ; 3.1.2 ; 3.1.3 | Az.t. – 1.2.2.; 1.3.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 30 | Dərsə gecikən uşaqlar (II hissə) | 1 | 80 | 70 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.4 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.2.; 1.3.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 31 | Tarixmizi yazan qadın | 1 | 83 | 71 | 1.1.2 ; 2.1.1 ; 3.1.2 ; 3.1.3 ; 4.1.1 ; 4.1.2; 4.1.4. | Az.t. – 1.2.1.; 3.1.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 32 | Ağabəyim Ağa (I hissə) | 1 | 86 | 73 | 1.1.1 ; 2.1.1 ; 2.1.3 ; 3.1.2 ; 3.1.3 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 2.2.1. |
| 33 | Ağabəyim Ağa (II hissə) | 1 | 88 | 73 | 1.1.1 ; 2.1.1 ; 2.1.3 ; 3.1.2 ; 3.1.3; 4.1.2. | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 1.2.2; 2.2.1. |
| 34 | İstedadlı şairə, xeyriyyəçi qadın | 1 | 90 | 75 | 1.1.1 ; 2.1.1 ; 2.1.2 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 2.2.1. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 35 | Xurşidbanu Natəvan | 1 | 93 | 75 | 2.1.3 ; 2.1.4 ; 3.1.1 ; 4.1.3 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 1.2.2.; 2.2.1. |
| 36 | Atəşgah Aleksandr Dümanın gözü ilə | 1 | 96 | 76 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 4.1.1 ; 4.1.2 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 37 | Azərbaycan torpağı | 1 | 99 | 78 | 2.1.2 ; 2.1.4 ; 3.1.1 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 3.1.1.; 1.2.2. Coğ. – 3.2.1. Əd. – 1.1.1.; 2.1.1. |
| 38 | Ərik ağacı | 1 | 100 | 80 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 2.1.3 ; 3.1.1 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.3.1. Əd. 1.2.4. |
| 39 | Novruz beynəlxalq bayramdır | 1 | 103 | 82 | 1.1.2 ; 2.1.2 ; 2.1.3 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.3.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1. |
| 40 | Oğul qazancı | 1 | 106 | 84 | 1.1.1 ; 1.1.2 ; 2.1.3 ; 3.1.1 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.2. Əd. – 2.2.1. |
| 41 | Gülbəsləyən qız | 1 | 109 | 85 | 1.1.1 ; 1.1.2 ; 3.1.1 ; 4.1.2 ; 4.1.3 | Az.t. – 1.3.1. Coğ. – 3.2.3. Əd. – 2.2.1. |
| 42 | Mükafat | 1 | 111 | 87 | 1.1.2 ; 2.1.4 ; 3.1.1 ; 3.1.2 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.2.2. Əd. – 2.2.1. |
| 43 | Mən sənə qul olacağam, ana! | 1 | 113 | 89 | 1.1.2 ; 2.1.2 ; 2.1.3 ; 2.1.4 ; 3.1.1 ; 4.1.2 | Az.t. – 1.3.1. Əd. – 2.1.1.; 1.1.1. |
| 44 | Ölkəm | 1 | 117 | 91 | 1.1.2 ; 2.1.1 ; 2.1.2 ; 2.1.3 ; 2.1.4 ; 3.1.1 ; 4.1.2 | Az.t. – 1.3.1. Əd. – 1.1.1.; 1.2.4. |
| 45 | Dəmirçioğlunun Çənlibelə gəlməsi (I hissə) | 1 | 118 | 93 | 1.1.1 ; 2.1.3 ; 3.1.1 ; 3.1.2 ; 4.1.2 | Az.t. – 3.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 46 | Dəmirçioğlunun Çənlibelə gəlməsi (II hissə) | 1 | 120 | 95 | 1.1.1 ; 2.1.2 ; 2.1.3 ; 3.1.1 ; 4.1.1 | Az.t. – 3.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 47 | Dəmirçioğlunun Çənlibelə gəlməsi (III hissə) | 1 | 123 | 96 | 1.1.1 ; 2.1.1 ; 2.1.2 ; 3.1.1 ; 4.1.3 | Az.t. – 3.1.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 48 | Təbriz sənətkarları | 1 | 126 | 98 | 1.1.1 ; 1.1.2 ; 2.1.2 ; 3.1.3 ; 4.1.2 ; 4.1.3 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 3.1.2. |
| 49 | Qara Qarayevin ölməz irsi | 1 | 129 | 100 | 1.1.2 ; 2.1.3 ; 3.1.3 ; 4.1.3 | Az.t. – 4.1.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 50 | Səxavət | 1 | 131 | 101 | 1.1.1 ; 1.1.2 ; 3.1.2 ; 3.1.3 ; 4.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 2.2.1. |
| 51 | Rəngkarın son sərgisi | 1 | 134 | 103 | 2.1.1 ; 2.1.3 ; 3.1.2 ; 4.1.1 ; 4.1.2. | Az.t. – 1.3.1.; 4.1.1.<br>Əd. – 2.2.1. |
| 52 | Balaca balıqçı | 1 | 136 | 104 | 1.1.1 ; 2.1.2 ; 3.1.2 ; 4.1.1 ; 4.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 2.1.1.; 3.1.2. |
| 53 | Hələ bu harasıdır?! | 1 | 139 | 106 | 1.1.2 ; 2.1.1 ; 2.1.3 ; 2.1.4 ; 3.1.1 ; 3.1.3 ; 4.1.1 ; 4.1.2 | Az.t. – 1.2.2.<br>Əd. – 2.2.1.; 1.1.1. |
| 54 | Sonrakı peşmançılıq fayda verməz | 1 | 141 | 108 | 2.1.2 ; 2.1.3 ; 3.1.3 ; 4.1.3 ; 4.1.4 | Az. – 1.3.1.<br>Əd. – 2.2.1. |
| 55 | Birliyin gücü (I hissə) | 1 | 144 | 109 | 1.1.1 ; 2.1.2 ; 2.1.3 ; 4.1.2 ; 4.1.3 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 3.1.2. |
| 56 | Birliyin gücü (II hissə) | 1 | 147 | 109 | 2.1.3 ; 3.1.3 ; 4.1.2 ; 2.1.4 ; 4.1.1 | Az.t. – 1.3.1.<br>Coğ – 3.2.1.<br>Əd. – 3.1.2. |
| 57 | Azərbaycan oğluyam | 1 | 149 | 112 | 2.1.2 ; 2.1.3 ; 3.1.2 ; 3.1.3 ; 4.1.1 ; 4.1.2 | Az.t. – 1.2.1.<br>Əd. – 1.2.4. |
| 58 | Əsrin Heydər tarixi | 1 | 151 | 113 | 1.1.1 ; 2.1.2 ; 2.1.3 ; 3.1.2.; 3.1.3 ; 4.1.1 | Az.t. – 1.2.2.; 4.1.1.<br>Əd. – 2.1.1.; 1.1.1. |
| 59 | Azərbcaycan Xalq Cumhuriyyəti | 1 | 153 | 115 | 1.1.1 ; 1.1.2 ; 2.1.1 ; 3.1.1 ; 4.1.2 | Az.t. – 3.1.1.; 1.2.2.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 60 | Baharın son ayı | 1 | 155 | 116 | 1.1.1 ; 2.1.2 ; 3.1.1 ; 3.1.3 ; 4.1.1 | Coğ. – 2.1.3.<br>Əd. – 2.1.1.; 2.2.1. |

## Vətənim (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir | 1.1.1 | Az.t. – 1.2.2. Coğ. – 3.2.1. Əd. – 1.2.4. |
| 2 | Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır | 2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla, cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə, kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə S.Vurğunun "Azərbaycan" şeirinə çəkilmiş musiqili filmi nümayiş etdirir.

Müəllim şagirdlərə müraciət edir:

– Şeirin müəllifi kimdir? Kiçik yaşlarınızdan siz vətən mövzusunda çoxlu şeirlər, mahnılar eşitmisiniz. Yadınızda qalanları varmı?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Məşhur müğənnilərin ifasında "Vətən" mövzusunda mahnıları dinləyərkən hansı hissləri keçirirsiniz? Mahnılardakı sözlər insanda hansı hissləri oyadır?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərə "Vətənim" şeirini oxutdurur. Şeirin bəndləri müxtəlif şagirdlərə oxutdurulur. Müəllim şagirdlərin oxusu zamanı onların məntiqi vurğudan düzgün istifadə etmələrinə nəzarət edir. Sonra sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük"dəki sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Şagirdlər qruplara bölünür. Hər qrup 3-cü çalışmanın şərtinə əsasən, şeirin misralarında şairin Vətəninə sonsuz məhəbbətini təhlil edərək misranın məzmununu genişləndirərək, Azərbaycan haqqında danışırlar (2.1.4. alt standartı). Müəllim danışıq zamanı şagirdlərin nitqindəki qüsurları düzəldir. Şeirdəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdimək məqsədilə 4-cü çalışmanı yerinə yetirir (1.1.1. alt standartı). Aşağı siniflərdəki biliklərini möhkəmləndirmək məqsədilə şagirdlər 5,6,7-ci çalışmaları yerinə yetirirlər. Bu çalışmalar üzərində işi kiçik qruplarla təşkil etmək daha yaxşı səmərə verir. Qruplar verilmiş çalışmalarda feilləri tapıb onların zaman və şəxs şəkilçilərinin,

sifətlərin müəyyənləşdirilməsi üzərində, köməkçi nitq hissələrinin şeirdəki rolunu praktik yolla mənimsəyirlər. Çalışmalarda qoyulan tapşırıqlar, eyni zamanda, həmin nitq hissələri ilə bağlı orfoqrafik və durğu işarələrindən istifadə üzrə işlər aparılmasına da imkan verir. Müəllim 8,9-cu çalışmanın yerinə yetirilməsini cütlərə tapşıraraq 4.1.2. alt standartının reallaşdırılmasına şərait yaradır. Şeirdən götürülmüş sözlərin mənsubiyyətə və hallara görə dəyişməsi üzərində işləməklə şagirdlər tapşırıqda nəzərdə tutulan bacarıqların daha da təkmilləşdirilməsinə nail olurlar.

Əvvəlki biliklərinə istinad edərək müəllim şagirdlərə Vətən mövzusunda atalar sözü yazmağı tapşırır. Sonra atalar sözü dinlənilir və qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Vətənim" şeirinin əsas ideyasını müzakirə edir və vətən mövzusunda yazılmış digər şeirlərlə müqayisəli şəkildə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Tədqiqat sualına cavab axtaran şagirdlər öyrənirlər ki, Vətən haqqında yazılan minlərlə şeir və nəğmə Vətən deyilən torpağın nə qədər müqəddəs və sevimli olmasının bədii təzahürüdür. İnsanların məskən salıb min illər boyu qoynunda yuva qurduqları torpağa Vətən deməsi də bir sirli aləmdir. Nəyə görə bütün Yer kürəsinə yox, yalnız onun bir hissəsinə Vətən deyirik? Ona görə ki, bu Vətən dediyimiz torpaqda bizim babalarımız uyuyur. Bu yadigarı qorumaq, onu gələcək nəsillərə təhvil vermək isə bizim müqəddəs borcumuzdur.

**Yaradıcı tətbiqetmə:** 11-ci çalışmanın şərtinə uyğun inşa yazaraq 4.1.2. alt standartını reallaşdırmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirdən istədiyiniz hissəni əzbərləyin.

## Milli Ordu quruculuğunda (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir | 1.1.1 | Az.t. – 1.2.2.; 4.1.1. Coğ. 3.2.1. Əd. 3.1.2. |
| 2 | Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.<br>Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.4<br>2.1.1 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.2<br>4.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə.

**Motivasiya:** Müəllim ekranda 26 iyun "Milli Azərbaycan Ordusunun Yaranması Günü"nə həsr olunmuş hərbi paraddan görüntüləri nümayiş etdirir.

Müəllim soruşur:

– Kadrlarda Milli Ordunun çıxışını gördünüz. Bu ordunun yaranması haqqında nə bilirsiniz?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** "Vətəni qorumaq imandandır" ifadəsi kimə məxsusdur? Müəllim ifadənin Məhəmməd Peyğəmbərə (s.ə.s.) aid olduğunu elan edir və bu ifadənin nə üçün söyləndiyini soruşur.

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri kiçik qruplara bölür. Tədqiqat "Milli Ordu quruculuğunda" mətninin oxusu ilə başlanır. Mətn hissə-hissə qruplardakı şagirdlərə oxutdurulur, məzmunun və "Sözlüy"ün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"nda olan söz və ifadələrin köməyi ilə mətn tərcümə edilir. Şagirdlərin öyrəndikləri yeni sözləri qrup üzvləri cümlələrdə işlədirlər.

Müəllim 1-ci çalışmanın suallarını qrup üzvləri arasında bölüşdürərək cavabları dinləyir. Sonra şagirdlər 2.1.4. alt-standratına əsasən mətnin hissələri arasındakı əlaqələri gözləməklə mətni danışırlar. Müəllim 4,5,6,7,8-ci çalışmaları 3 qrup arasında bölərək tapşırığı icra etməyi tapşırır və vaxt təyin edir. Şagirdlər nümunələrdən mətnin hissələrinə uyğun istifadə edərək 4.1.2. alt standartına əsasən çalışmaları yerinə yetirirlər. Belə çalışmalar şagirdlərin məntiqi düşünmə qabiliyyətinin formalaşmasına xidmət edir. Belə ki, hər bir suala cavab vermək üçün şagirdlər fikirlərini məhz qoyulan sual ətrafında cəmləşdirirlər.

9,10,11,12,13-cü çalışmaları qrup üzvləri yerinə yetirərkən 2.1.1. alt-standartına uyğun olaraq söz birləşməsi və sadə cümləni qrammatik normalara uyğun yerinə yetirməyə nail olurlar. 14-cü çalışmanı yerinə yetirərkən şagirdlər lüğət ehtiyatlarını zənginləşdirmiş olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər Əliağa Şıxlinski haqqında öyrəndiklərini müzakirə edir, tədqiqat sualı ətrafında fikir mübadiləsi aparırlar.

**Nəticə:** Vətən deyilən torpağın Vətən olması üçün onu qorumaq başlıca şərtdir. Çünki istər-istəməz tarixən bütün müharibələrin kökündə torpaq tələbi, ərazi iddiası dayanmışdır.

Şah İsmayıl Xətayinin yaratdığı vahid Azərbaycan dövlətinin xəritəsinə diqqətlə baxanda "Azərbaycan" adlanan ərazinin necə böyük bir coğrafi sərhədlərə malik olduğu aydın görünür. Bu gün isə torpaqlarımızın 20%-i işğal

altındadır.

Bugünkü gənclər sabahın əsgərləridirlər. Sabahkı Vətən keşikçisi özündə məsuliyyət hissi tərbiyə etməli, borcunu ləyaqətlə yerinə yetirməyə hazır olmalıdır. Çünki gənclər Əliağa Şıxlinski kimi qorxmaz, cəsur döyüşçülərin nəvələridirlər.

**Yaradıcı tətbiqetmə:** Əliağa Şıxlinski haqqında daha nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır

**Ev tapşırığı:** Mətn üzrə plan tərtib etmək və məzmununu öyrənmək.

## Səməd bəy Mehmandarov Birinci Dünya müharibəsində (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.1.<br>Əd. – 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.1 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplar, cütlərlə iş

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, BİBÖ, təqdimat

**Resurslar:** Dərslik, dəftər, proyektor, kompüter

**Motivasiya:** Müəllim proyektoru işə salır. Internetin köməyilə S.Mehmandarovun 1914-cü il müharibəsindəki fəaliyyətinin görüntüləri olan sənədli filmi canlandırılır.

Müəllim sinfə sualla müraciət edir: "Bundan əvvəlki dərslərimizdə Siz məşhur general S.Mehmandarov haqqında öyrənmişdiniz. Onun haqqında nə düşünürsünüz?"

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Müəllim lövhədə belə aforizm yazır. "Hər hansı bir ordunun dəyəri onun zabit və komanda heyətinin dəyəri ilə ölçülür". (Mustafa Kamal Atatürk) Bu aforizmi izah etməyə çalışın.

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim "Səməd bəy Mehmandarov Birinci Dünya müharibəsində" mətnini şagirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı" ndakı çətin söz və ifadələrin mənası izah edilir, bəzi sözlər cümlələrdə işlədilir. Sonra mətnin məzmununun mənimsədilməsi üzərində iş başlanır. Bu məqsədlə müəllim şagirdləri 3 qrupa bölür. 1.1.2 alt standartının reallaşdırılması üçün 1-ci çalışmadakı sualları qruplara paylayır. Cavab aldıqdan sonra 1.1.1 alt standartına əsasən 2-ci çalışmanı yerinə yetirərək faktlar məntiqi ardıcıllıqla göstərilir. Sonra şagirdlər 3,4-cü çalışmaları yerinə yetirərək 1.1.2 alt standartını reallaşdırırlar, 2.1.4 alt standartının reallaşdırılması üçün 5-ci çalışmanı yerinə yetirirlər: bu çalışmada bütün qrup üzvləri iştirak edirlər. Qruplar üçün müəyyən vaxt təyin edilir. Vaxt bitdikdə qrupların işləri yoxlanılır, fəaliyyətləri qiymətləndirilir.

6,11-ci çalışmanın icrası kiçik qruplara tapşırılır. Bu zaman 4.1.2 alt standartı reallaşdırılır. Sonra cütlərə 7,8,9,10,13-cü çalışmaların yerinə yetirilməsi tapşırılır. Bu zaman 2.1.1 alt standartı reallaşdırılır. Şagirdlər qiymətləndirilə bilərlər. 4.1.3 alt standartından istifadə edərək müəllim böyük qrupa 12,14-cü çalışmaların icrasını tapşırır. Müəllim 3.1.1 alt standartını reeallaşdırmaq məqsədilə 15-ci çalışmanı böyük qrupa tapşırır. Şagirdlərin tərcümə bacarığını inkişaf etdirmək məqsədilə onlara çalışma 16, 17-dəki mətnlər təqdim olunur. Mətnləri tərcümə etməklə şagirdlər S.Mehmandarov haqqında daha bir məlumat əldə etmiş olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər "Səməd bəy Mehmandarov" haqqında debata qoşularaq, müzakirə aparırlar.

**Nəticə:** Görkəmli şair B.Vahabzadə yazır:

"...Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Şamın yaşamağı, yanmağındadır..."

İnsan həyata gəldiyi gündən son nəfəsinə qədər mübarizə aparır. Hətta ən tənbəl və hər şeyə biganə olan adam belə, mübarizədən kənarda qala bilməz. Fərq, sadəcə, bu mübarizənin ümummilli məqsədlərə, xalq mənafeyinə xidmət edib-etməməsindədir. Ona görə də, insan işıqlı amallar, aydın məqsədlər uğrunda mübarizə aparmalı və nəsillərin yaddaşında əsrlər keçsə belə, yaşamalıdır, Səməd bəy Mehmandarov kimi.

**Yaradıcı tətbiqetmə:** Səməd bəy Mehmandarov haqqında əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Əlvida, Lənkəran torpağı! (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.1.; 1.3.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir. | 4.1.1 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş
**Dərsin üsulu:** Əqli-hücum, sual-cavab, təqdimat
**Resurslar:** Dərslik, dəftər, proyektor.
**Motivasiya:** Müəllim proyektorda internetin köməyi ilə H.Aslanov haqqında filmi şagirdlərə nümayiş etdirir.

Şagirdlərə sual verir: "Film kimin haqqındadır? Filmdə hansı müharibədən söhbət açılır?"

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Müəllim verdiyi suala cavab almaq məqsədilə tədqiqata "Əlvida, Lənkəran! torpağı! mətninin oxusu ilə başlayır. Şagirdlər nitqlərində məntiqi vurğudan düzgün istifadə etməklə (2.1.1 alt standartı) mətni oxuyurlar. Mətn dialoq şəklində oxunur. Mətn oxunduqdan sonra "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər üzərində iş aparılır. Verilmiş sözlərə sinonimlər, antonimlər tapılaraq əlavə cümlə daxilində işlədilir. Mətnin oxusu prosesində nitqdə tələffüzə düzgün əməl olunmasına xüsusi nəzarət edilir və bu istiqamət digər çalışmalar üzrə işlərdə də diqqət mərkəzində saxlanılır.

Şagirdlər cütlərlə işləyərək, 2-ci çalışmanı yerinə yetirirlər. Bu zaman 1.1.1 alt standartı reallaşdırılır. Müəllim şagirdlərin tələffüzünə nəzarət edir, nitq qüsurları yerindəcə düzəldilir.

Böyük qruplar 3,4-cü çalışmaları yerinə yetirərək 1.1.2 alt standartını reallaşdırırlar. Çalışmanın şərtinə əsasən şagirdlər Nuşu ananı xarakterizə edirlər. Onlar müzakirədə deyilən bütün fikirlərə öz münasibətlərini bildirirlər ki,

nəticədə alt standart reallaşdırılır. 5,6,7,8,9,12-ci çalışmalar şagirdlərə paylanılır. Nitq hissələrinin qrammatik mənalarını və onlarla bağlı düzgün tələffüz və yazı qaydalarının mənimsənilməsinə yönəlmiş çalışmaların icrasında 2.1.1 alt standartı reallaşdırılır. Qruplar ayrı-ayrılıqda mətndən götürülmüş sözlərin qrammatik mənasını izah edirlər. Müəllim qrupların işlərini qiymətləndirə bilər. 3.1.3 alt standartının reallaşdırılması üçün şagirdlər kursivlə verilmiş sözlərin mənasını kontekstə uyğun olaraq qarşılığı ilə əvəz edərək mətni danışırlar və 11-ci çalışmanı yerinə yetirirlər.

Şagirdlər əldə etdikləri fakt və məlumatlara münasibət bildirərək 13,14-cü çalışmaları yerinə yetirərək 4.1.1 alt standartını reallaşdırırlar.

**Məlumat mübadiləsi:** Motivasiya zamanı göstərilən kadrlar, mətnin oxusu, səhnələşdirilməsi, çalışmalar üzərində iş əsasında şagirdlər Həzi Aslanov haqqında qismən məlumat əldə etmiş olurlar. Şagirdlər Həzi Aslanovun özünəməxsus xüsusiyyətləri üzərində fikir mübadiləsi aparırlar.

**Nəticə:** Şagirdlər mövzu ətrafında işləyərək maraqlı məlumatlar əldə edirlər. Onlar Həzinin uşaqlığını, onun sözünün üstündə necə mərdliklə dayandığını, anasının ona qarşı isti münasibətini öyrənirlər. Həzi kimi olmaq, onun kimi sözünün üstündə durmaq, arzusuna çatmaq üçün, hərbçi olmaq üçün qarşısına məqsəd qoymaq şagirdlərə bir nümunədir.

**Yaradıcı tətbiqetmə:** Həzi Aslanov haqqında məlumat toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Yadigar qalan innab ağacı
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 4.1.1.<br>Əd. – 1.2.4. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.1<br>2.1.2 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, BİBÖ, sual-cavab

**Resurslar:** Dərslik, dəftər, proyektor, kompüter

**Motivasiya:** Müəllim şagirdlərə H.Aslanovun Lənkəran şəhərində yerləşən ev muzeyinin görüntülərini nümayiş etdirir. Evin qarşısında iri gövdəli bir ağac var.

Müəllim şagirdlərə müraciət edir: Kim Lənkəran şəhərində olub? H.Aslanovun ev-muzeyi sizə necə təsir bağışladı?"

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Siz Həzi Aslanov haqqında birinci mətndə az da olsa, məlumat aldınız. Necə düşünürsünüz, mətndən tanış olduğunuz bu zərif, sısqa, balaca oğlan qəhrəman olacaqmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim "Yadigar qalan innab ağacı" mətnini şagirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"nda çətin söz və ifadələrin mənası izah edilir, bəzi sözlər cümlələrdə işlədilir. Sonra mətnin məzmununun mənimsədilməsi üzərində iş başlanır. Bu məqsədlə müəllim şagirdləri 3 qrupa bölür. 1.1.1. alt standartının reallaşdırılması üçün müəllim qruplara 1,2,7-ci çalışmaların icrasını tapşırır. 1-ci qrupun üzvləri mətndəki məntiqi ardıcıllığın pozulmasını araşdırır, 2-ci qrupun üzvləri mətndəki hadisəyə öz münasibətlərini bildirir, 3-cü qrupun üzvləri isə 7-ci çalışmadakı mətn üzrə məntiqi ardıcıllığı bərpa edirlər.

Qruplar üçün müəyyən vaxt təyin edilir. Vaxt bitdikdə qrupların işləri yoxlanılır, fəaliyyətləri qiymətləndirilir.

Şagirdlərin rabitəli yazı vərdişlərinə yiyələndiklərini nümayiş etdirmələri, ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz etmələri üçün müəllim cütlərlə iş üsulundan istifadə edir. 3,4,5,8-ci çalışmalar üzərində iş aparılır və 1.1.2 alt standartı reallaşdırılır. 2.1.2 alt standartının reallaşdırılması məqsədilə müəllim şagirdlərə 6-cı çalışmanı yerinə yetirməyi tapşırır. 2.1.1 alt standartının reallaşması üçün müəllim cütlərə 9, 13-cü çalışmaları yerinə yetirməyi tapşırır.

Şagirdlərin tərcümə bacarığını inkişaf etdirmək məqsədilə 8-ci çalışmanın yazılı şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Bu mətni tərcümə edərkən şagirdlər Həzi Aslanov haqqında daha bir faktla tanış olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər müəllimin tədqiqat zamanı verdiyi "Həzi Aslanov qəhrəman olacaqmı?" fikrini müzakirə edib, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər H.Aslanov haqqında oxuduqlarından belə nəticəyə gəlirlər ki, orqanizmin zəifliyi yox, iradənin möhkəmliyi daha əsasdır. Uşaq yaşlarından qarşıya qoyulan məqsədə çatmaq üçün cəhd etmək, səylə çalışmağın axırda müsbət nəticələr verəcəyi gözlənilir. Əlbəttə, Həzi kimi uşaqlar sonda bir general olurlar.

**Yaradıcı tətbiqetmə:** Həzi Aslanovun sonrakı taleyi haqqında əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Partizan Daşdəmirov
## (I hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.2.; 4.1.1.<br>Əd. – 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.4 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə.

**Motivasiya:** Müəllim elektron lövhədə Böyük Vətən müharibəsindən bəhs edən kadrları nümayiş etdirir.

Müəllim soruşur:

– Kadrlarda hansı müharibədən söhbət gedir?

Şagirdlərin fərziyyələri dinlənilir və nitqlərindəki nöqsanlar düzəldilir.

**Tədqiqat sualı:** 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Azərbaycanın rolu nədən ibarət olmuşdur?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Tədqiqat "Partizan Daşdəmirov" mətninin oxusu ilə başlanır. Mətn hissə-hissə qruplardakı şagirdlərə oxutdurulur, məzmunun və sözlüyün mənimsədilməsi üzərində iş

aparılır. "Sözlük" və "Söz ehtiyatı"nda olan söz və ifadələrin köməyi ilə mətn tərcümə edilir. Şagirdlərin öyrəndikləri yeni sözləri qrup üzvləri cümlələrdə işlədirlər.

Müəllim 2-ci çalışmadakı sualları 3 qrup arasında bölür və şagirdlərə vaxt ayırır. Şagirdlər suallara cavab hazırlayaraq 1.1.1. alt standartını reallaşdırırlar. Sonra qruplar 3-cü çalışmanı yerinə yetirəcək fakt və hadisələri ümumiləşdirərək plan üzrə mətni danışırlar və bu zaman 1.1.2 alt standartını reallaşdırırlar. Müəllim qiymət meyarlarına əsasən şagirdləri qiymətləndirə bilər. Sonra 4,5,6-cı çalışmaları yerinə yetirirlər. Qrup üzvləri hekayədən xoşlarına gələn hissəni danışaraq 2.1.4. alt standartını reallaşdırırlar. Mətndə kursivlə yazılmış sözlərin kontekstə uyğun qarşılığını taparaq yerində işlədir və 4.1.2 alt standartını reallaşdırırlar. Qrup üzvləri obrazları müqayisə edərək oxşar və fərqli cəhətlərini təhlil edir. 3.1.3. alt standartını reallaşdırırlar.

Müəllim şagirdləri qiymətləndirə bilər. Sonra 7,8,9-cu çalışmaların icrası nitq hissələrinin yazılışı ilə bağlı bacarıqların tətbiqinə yönəldilir. Mətndəki əsas nitq hissələrinin qrammatik mənalarının mənimsənilməsi 2.1.1 alt standartının reallaşması vasitəsilə həyata keçirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər partizan Daşdəmirov obrazı haqqında öyrəndiklərini müzakirə edir, tədqiqat sualı ətrafında fikir mübadiləsi aparırlar.

**Nəticə:** Mətnin oxusu, çalışmalar üzərində işləməklə şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini oxuduqları mətnin hissələrinə müvafiq qruplaşdırmaq bacarıqlarını inkişaf etdirirlər. Mətnin məzmunu ilə tanışlıq şagirdlərdə tarixi keçmişə dair biliklərinin zənginləşməsinə təsir göstərir. Şagirdlər Vətənimizin cəsur, qorxmaz, düşmən qarşısında əyilməyən, lazım gələrsə, həyatı bahasına, heç nədən çəkinmədən düşməni yerində oturtmağı bacaran qəhrəman oğlunun həyatı ilə bir daha yaxından tanış olurlar.

**Yaradıcı tətbiqetmə:** Böyük Vətən müharibəsi iştirakçısı olan qəhrəman övladlarımız haqqında nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətn üzrə plan tərtib edib məzmununu danışın.

## Partizan Daşdəmirov
## (II hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.2<br>2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, BİBÖ

**Resurslar:** Dərslik, proyektor, internetə qoşulmuş kompüter

**Motivasiya:** Müəllim şagirdlərə elektron lövhədə "Uzaq sahillərdə" filmindən bir neçə fraqment nümayiş etdirir. Sonra şagirdlərə müraciət edir.

– Böyük Vətən mübaribəsinin iştirakçısı olmuş partizan oğullarımızdan kimləri tanıyırsınız?

Şagirdlər öz fərziyyələrini söyləyirlər. Onların cavabları dinlənilir və tələffüzlərindəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Sizcə, partizan Daşdəmirovun I hissədə planlaşdırdığı hərbi əməliyyat II hissədə alınacaqmı?

**Tədqiqatın aparılması:** Mətnin II hissəsi ilə tanış olmaq üçün müəllim mətni şagirdlərə oxutdurur. Oxu prosesində şagirdlərin nitqlərində məntiqi vurğudan yerində istifadə etmələri izlənilir, səs tonunun düzgün tənzimlənməsinə diqqət yetirilir, nitq qüsurları düzəldilir. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş çətin sözlər izah edilir. Şagirdlər həmin sözlərin qarşılıqlarını taparaq cümlələrdə işlədirlər.

Şagirdlərin mətn haqqında biliklərinin möhkəmləndirilməsi və mətnin hissələrinin müəyyənləşdirilməsi məqsədilə 1-ci çalışma yerinə yetirilir. Müəllim şagirdlərin müxtəlif mövqeli fikirlərini ümumiləşdirərək 2-ci çalışmadakı suallara cavab vermələrini tapşırır. Bu zaman 2.1.3 alt standartı reallaşdırılır. Danışıq zamanı sözlərin düzgün tələffüzünə fikir verilir. Tələffüzlərindəki qüsurlar düzəldilir.

Şagirdlər Böyük Vətən müharibəsi haqqında fakt və hadisələri ümumiləşdirərək öz fikirlərini söyləməklə 1.1.2 alt standartını reallaşdırırlar.

Müəllim şagirdlərə yazı bacarıqlarını inkişaf etdirmək və yazılarını zənginləşdirmək məqsədilə 7,8,9-cu çalışmaları yerinə yetirməyi və 2.1.1 və 4.1.2 alt standartlarını reallaşdırmağı tapşırır.

**Məlumat mübadiləsi:** Şagirdlər mətn üzərində işləyərək tədqiqat sualına cavab tapmış olurlar. Onlar mərdlik, qoçaqlıq, igidlik, düzgünlük kimi keyfiyyətlərin insan üçün nə qədər faydalı olduğunu müzakirə edirlər.

**Nəticə:** Şagirdlər fikirlərini mətndəki fakt və hadisələrlə əsaslandırırlar. Onlar partizan Daşdəmirov obrazı vasitəsilə öyrənirlər ki, Azərbaycan xalqı vətənpərvər, vətənsevər xalqdır. Dünyada ikinci bir xalq tapmaq olmaz ki, vətəndən ayrılan kimi onun üçün bizim qədər darıxsın. Bu hisslər xalqımızın torpağa, vətənə nə qədər bağlı olduğunun sübutudur. Partizan Daşdəmirov da öz dövrünə görə Vətən hesab etdiyi Sovetlər İttifaqının torpaqlarının qorunmasında heç nədən çəkinməmişdir.

**Yaradıcı tətbiqetmə:** Mətnin məzmununa, kontekstə uyğun bir neçə atalar sözü tapıb dəftərinizə yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Mübarizi olan millət
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1. Əd. – 2.1.1.; 3.1.2.; 1.2.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. Nitqində məntiqi vurğudan düzgün istifadə edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1 2.1.2 2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, təqdimat

**Resurslar:** Dərslik, dəftər, proyektor, elektron lövhə

**Motivasiya:** Müəllim proyektoru işə salır. Elektron lövhədə Mübariz İbrahimova həsr olunmuş sənədli film canlandırılır. Sonra sinfə müraciət edir:

– Uşaqlar, gördüyünüz bu kadrlar sizə hansı hadisələri xatırladır?

Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, Mübariz öz ölümüylə şəhidlik zirvəsinə yüksələ bildimi?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Mübarizi olan millət" şeirinin oxusu üzərində aparılır. Çalışma 1-in şərtinə (2.1.2. alt standartı) əsasən, məntiqi vurğudan istifadə etməklə şeir oxunur. Şeirdəki əsas fikir müəyyənləşdirilir. Müəllim şeirin məzmununu mənimsətmək, onun mövzusu üzərində şagirdlər arasında fikir mübadiləsi yaratmaq məqsədilə 1.1.2. alt standartına və 2-ci çalışmanın şərtinə uyğun olaraq böyük qrupla şeirin nə üçün "Mübarizi olan millət" adlandırılması fikrini müzakirə edib, düzgün variantın seçilməsinə kömək edir. Sonra sinif 5 kiçik qrupa (əgər sinifdə uşaq azdırsa, 4 qrupa) bölünür. Hər qrupa şeirin bir bəndinin məzmunu üzrə iş aparmaq tapşırılır. Qrupa ikinci tapşırıq kimi 2.1.3. alt standartına uyğun seçilmiş qrammatik çalışmalar tapşırılır. Buna görə 4,5,6,7,18-ci çalışmalar məsləhət görülür. Qrupların işi üçün vaxt ayrılır. Təyin olunmuş vaxt bitdikdən sonra qrupların fəaliyyətləri qiymətləndirilir.

Sonra bütün qruplar 3-cü çalışmanı yerinə yetirərək 1.1.2. alt standartını reallaşdırırlar.

Şagirdlər 9-cu çalışmanı yerinə yetirməklə mətndəki fikirlərə münasibətlərini bildirərək 3.1.3 alt standartının şərtinə əməl edərək atalar sözlərinin hissələrini tapıb uyğunlaşdırıb yazırlar. Sonra müəllim cütlərlə işləyərək 10,11,12,13,14,15,16,17-ci çalşmaların yerinə yetirilməsini tapşırır və bu zaman 2.1.1 alt standartı reallaşdırılır.

Sonra "Hikmət xəzinəsi" rubrikasında verilmiş aforizmlər ətrafında bütün qruplar düşünür, şagirdlərin lüğət ehtiyatlarının zənginliyini, tərcümə etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə iş aparılır.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirin məzmunu ilə tanış olduqdan sonra yerinə yetirilmiş çalışmalar əsasında fikir mübadiləsi aparırlar.

**Nəticə:** Mübariz xalqımızın igid, qəhrəman oğludur. O, şəhidlik zirvəsinə yüksəlmişdir. Onun həyatı bizim gənclər üçün həyat məktəbidir, qəhrəmanlıq nümunəsidir. Torpağın altında uyuyan şəhidlərimizin ruhu başımızın üstündə dolanır, demək istədikləri,lakin deyə bilmədikləri sözləri isə qulaqlarımızdadır. Şəhidlərin adı daim ürəyimizdə, əməlləri isə əməllərimizdə, fəaliyyətimizdə yaşayır.

**Yaradıcı tətbiqetmə:** Mübariz İbrahimov haqqında məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirdən bir hissə əzbərləməyə çalışın.

# Arxadan güllə atmaq kişilik sayılmır
# (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.; 4.1.1. Əd. – 1.2.4.; 3.1.2. |
| 2 | Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Kiçik qruplar və cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, klaster, müzakirə
**Resurslar:** Dərslik, lövhə, şəkillər

**Motivasiya:** Müəllim lövhədə "mərdlik" sözünü yazır, şaxələnmə üsulundan istifadə edir. Sonra şagirdlərdən soruşur:

– Bu söz sizdə hansı fikirləri yaradır? Bəs "namərdlik" dedikdə nə başa düşürsünüz?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Söylənilən fikirlər dairənin ətrafında qeyd olunur.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, niyə arxadan güllə atmaq kişilik sayılmır?

**Tədqiqatın aparılması:**Müəllim mətni rollar üzrə şagirdlərə oxutdurur və səhnələşdirir. Ən yaxşı iştirakçı qiymətləndirilir. Şagirdlər "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözləri tərcümə edərək cümlələrdə işlədirlər.

Müəllim 1-ci çalışmanı böyük qrupla işləyərək şagirdlərin fikirlərini öyrənir. Bu zaman 1.1.2 alt standartı reallaşdırılır. 3-cü çalışmanı cütlərə paylayır. Cütlər suallar ətrafında fikir mübadiləsi aparırlar. Suallar cavablandırılır. Bu zaman 1.1.2 alt standartı reallaşır. 2,4-cü çalışmalar kiçik qruplara tapşırılır. Onlar mətndəki fakt və hadisələri ümumiləşdirərək çalışmanın şərtinə əməl edirlər və bu zaman 2.1.3 alt standartı reallaşdırılır.

Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah etmək məqsədilə şagirdlərə 7,8-ci çalışmaları yerinə yetirmək tapşırılır. Çalışmalar müxtəlif qruplara tapşırılır. Tapşırıqların yerinə yetirilməsi üçün verilən vaxt bitdikdə qrupların təqdimatları müzakirə olunur, düzgün cavablar müəyyənləşdirilir və qiymətləndirilir. 9, 10, 11-ci çalışmaları yerinə yetirməklə şagirdlər məntiqi düşünmək bacarıqlarını nümayiş etdirirlər.

**Məlumat mübadiləsi:** Mətnin oxusu və çalışmalar üzərində iş fikir mübadiləsinə imkan yaradır. Şagirdlər İsrafil ağanın hərəkətləri üzərində fikir

mübadiləsi aparırlar.

**Nəticə:** Mətnin məzmunu və çalışmalar üzərində aparılan işlərin nəticəsində şagirdlər bu qənaətə gəlirlər ki, düşmən də olsa, mübarizə mərdliklə aparılmalıdır. Əgər insan qorxaqdırsa və ya qarşısında dayanandan qorxursa, deməli, o, arxadan zərbə vuracaqdır. Ancaq qoçaqlar, mərdlər üzbəüz vuruşmağı kişilikdən sayırlar. Mətndə həmçinin İsrafil ağanın xarakterinin müxtəlif cizgiləri açılır ki, burada da ibrət götürülməli cəhətlər çoxdur.

**Yaradıcı tətbiqetmə:** Qaçaq Kərəm haqqında kiçik esse yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Şərq şeirinin gəncəli ilahəsi
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 4.1.1.; 1.2.2.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qrupla iş

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, dəftər, kompüter, proyektor

**Motivasiya:** Müəllim internet şəbəkəsindən istifadə edərək proyektor vasitəsilə lövhədə Məhsəti Gəncəvinin şəkillərini, şeirlərinə çəkilmiş miniatürləri canlandırır. Müəllim şagirdlərə sual verir:

– Ekranda gördüyünüz şairə xanım kimdir? Gördüyünüz kadrlardan şairə haqqında sizə nə məlum oldu?

Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki səhvlər düzəldilir.

**Tədqiqat sualı:** Məhsəti Gəncəvinin yaşadığı dövr haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərin oxu bacarıqlarını yoxlamaq məqsədilə "Şərq şeirinin gəncəli ilahəsi" mətnini oxutdurur. Şagirdlər nitqlərindəki məntiqi vurğudan düzgün istifadə edərək mətni oxuyurlar. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir və cümlələrdə işlədilərək mənimsədilir. Mətndəki fikirlərə münasibət (3.1.3 alt standartı) bildirməklə şagirdlər 1-ci çalışmanı yerinə yetirirlər. Şagirdlər qruplara bölünür. Mətnin məzmununun mənimsədilməsi, mətndəki fakt və hadisələrin qruplaşdırılması məqsədilə çalışma 3-dəki suallar qruplar arasında paylanılır. Qruplar planın bəndlərini danışmalı və həmin bölməyə aid suallar hazırlamalıdırlar. 2,4,5-ci çalışmaların icrası qruplara tapşırılır. Şagirdlər çalışmalarda verilmiş nümunələrdən mətnin hissələrinə uyğun istifadə edərək 2.1.4 alt standartını reallaşdırırlar.

8,9-cu çalışmalar söz birləşməsi və sadə cümlələrin qrammatik normalara uyğun tələffüz edilməsinə və kontekstə uyğun mənalarının izah edilməsinə istiqamətləndirilmişdir. Bu çalışmalar da qruplarla iş formasında yerinə yetirilir. Bu zaman 2.1.1 alt standart reallaşdırılır.

6, 7-ci çalışmalar isə şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsinə xidmət edir. 10, 11-ci çalışmalar şagirdlərin qrammatik bacarıqlarını formalaşdırır.

Qruplarla işin müəyyən mərhələsi başa çatdıqdan sonra müəllim qrup üzvlərini qiymətləndirə bilər.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, aşağı siniflərdə dilimizdəki sözlərin leksik və qrammatik mənaları, onların dəyişməsi, müxtəlif şəkillərə düşməsi (hal, mənsubiyyət, zaman, şəkil, şəxs şəkilçiləri qəbul edərək dəyişməsi) haqqında məlumat almışsınız. Artıq bilirsiniz ki, hansısa bir fikri ifadə etmək üçün sözlər müxtəlif şəkilçilər qəbul edərək dəyişir, bir-birilə əlaqələnir, cümlə şəklinə düşürlər. Məsələn: *Rəssam, Günay, sərgi, keçirilmək* – sözlərini əlaqələndirib cümlə şəklinə salmaq üçün bu sözlərə müvafiq şəkilçilər artırılmalıdır. *Günay* sözünə yiyəlik hal, *sərgi* sözünə mənsubiyyət şəkilçisi, *keçirilmək* sözünə feilin zaman şəkilçisini artırsanız, həmin sözlərin köməyi ilə çatdırmaq istədiyiniz fikri tam şəkildə ifadə edə biləcəksiniz. Beləliklə, həmin sözlər şəkilçilərin köməyilə, "*Rəssam Günayın sərgisi keçirilir*", - cümləsi şəklinə salınır. Bəzən sözlər arasında əlaqə nəticəsində söz birləşmələri də yaranır. Göstərdiyimiz cümlədə *rəssam Günay, Günayın sərgisi* söz birləşmələridir. Məlumat üçün deyək ki, söz birləşmələri və cümlələr qrammatikanın *sintaksis* bölməsində öyrənilir.

**Məlumat mübadiləsi:** Şagirdlər Məhsəti Gəncəvinin həyat və yaradıcılığı ilə tanış olur və Azərbaycan xalqının şairəyə olan böyük sevgisinin bir daha şahidi olurlar. Fikir mübadiləsi zamanı şairənin yaradıcılığı bir daha araşdırılır.

**Nəticə:** Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan çoxlu yazıçı və şairlərimiz vardır. Onlardan biri də Məhsəti Gəncəvidir. O, Azərbaycan şeirinin ilahəsidir. Onun rübailəri Azərbaycan şeirinin inkişafında yüksək yerlərdən birini tutur. Xalq öz istedadlı qızının xatirəsini daima əziz tutaraq hər zaman onu əbədiləşdirməyə çalışır.

**Yaradıcı tətbiqetmə:** Məhsəti Gəncəvinin həyat və yaradıcılığı mövzusunda təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvəllərdən birinə əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## "Kəlilə və Dimnənin" yaranması
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.2.1.; 1.2.2. Coğ. – 1.1.1. Əd. – 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1 2.1.3 2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, BİBÖ

**Resurslar:** Dərslik, proyektor, kompüter, dəftər

**Motivasiya:** Müəllim əlində "Kəlilə və Dimnə" kitabı sinfə daxil olur. O, kitabı şagirdlərə göstərir və onlara müraciət edir:

– Uşaqlar, bu kitab sizə tanışdır? Onun haqqında nə bilirsiniz?

Şagirdlərin fərziyyələri dinlənilir və nitqlərindəki səhv tələffüz düzəldilir.

**Tədqiqat sualı:** "Kəlilə və Dimnə" ibrətamiz, tərbiyəvi əhəmiyyətə malik bir kitabdırsa, bu kitabla tanışlıq bizə nə verə bilər? Kitabdan bu günümüz üçün hansı nəticələri çıxarmaq mümkündür?

**Tədqiqatın aparılması:** "Kəlilə və Dimnə" kitabı ilə tanış olmaq məqsədilə müəllim mətni şagirdlərə oxutdurur. Oxu prosesində şagirdlərin məntiqi vurğusuna, səs tonunun düzgün tənzimlənməsinə diqqət yetirilir, nitq qüsurları düzəldilir. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş çətin sözlər izah edilir. Şagirdlər həmin sözlərin qarşılıqlarını taparaq cümlələrdə işlədirlər.

Şagirdlərin mətn haqqında biliklərinin möhkəmləndirilməsi və mətnin hissələrinin müəyyənləşdirilməsi məqsədilə 2.1.3 alt standartı üzrə 1-ci çalışma yerinə yetirilir. Müəllim bütöv siniflə plan əsasında işləyərək mətni uşaqlara danışdırır. Danışıq zamanı sözlərin düzgün tələffüzünə fikir verir. Uşaqların tələffüzündəki qüsurları düzəldir. 2.1.4 alt standarta görə mətnin hissələri arasında əlaqələri gözləmək şərtilə şagirdlər 2-ci çalışmanı yerinə yetirirlər. Şagirdlər 4-cü çalışmada verilmiş cümləni tamamlamaqla 1.1.1 alt standartını reallaşdırırlar.

Şagirdlər mətndəki fikirlərə münasibət bildirərək 3,5-ci çalışmaları icra edirlər və onlar 3.1.3 alt standartını reallaşdırırlar.

6,7,8,9-cu çalışmaları yerinə yetirməklə şagirdlər söz birləşməsi və sadə cümlələri qrammatik mənalarına uyğun tələffüz edərək 2.1.1 alt standartını reallaşdırırlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətn üzərində işləyərək tədqiqat sualına cavab tapmış olurlar. Onlar "Kəlilə və Dimnə"dən böyüklərə hörməti, valideynə sonsuz məhəbbəti, biliyə, elmə hədsiz marağı öyrənir və müzakirə edirlər.

**Nəticə:** Şagirdlər fikirlərini fakt və hadisələrlə əsaslandırırlar. Onlar öyrənirlər ki, bu əsər tərbiyə məktəbidir. Heyvanların dili ilə söylənilən hadisələr insanları düşünməyə, həyata və hadisələrə başqa gözlərlə baxmağa cəlb edir.

**Yaradıcı tətbiqetmə:** Mətnin məzmununa, kontekstə uyğun bir neçə atalar sözü tapıb dəftərinizə yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Qızıl it (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.3.<br>Əd. – 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.2<br>2.1.4 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. | 3.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Kiçik qruplarla və kollektivlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, debat

**Resurslar:** Dərslik, elektron lövhə, film

**Motivasiya:** Müəllim elektron lövhədə "Heyvanlar aləmində" seriyasından olan verilişdən itlərə həsr olunmuş parçanı tapır və şagirdlərə göstərir. Sonra sinfə müraicət edir:

-"İt insanın dostudur" deyimini hamınız eşitmisiniz. İtlər haqqında hansı məlumatları bilirsiniz?

**Tədqiqat sualı:** İnsanların bir-birinə olan məhəbbətlərini bilirsiniz, bu barədə kitablardan oxumuşsunuz, filmlərdə görmüşsünüz. Bəs heyvanların insanlara olan məhəbbəti haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat "Qızıl it" mətninin oxusu ilə başlanır. "Sözlük"dəki çətin sözlər izah edilir və cümlələrdə işlədilir. Mətnin ideyasını müəyyənləşdirmək məqsədilə müəllim şagirdləri qruplara bölür. Verilən vaxt bitdikdən sonra qrup üzvləri mətnin ideyası haqqında düşündüklərini deyirlər və hər qrup digər qrupun fikirlərinə öz münasibətini bildirir. 2.1.2 alt standartının reallaşdırılması məqsədilə şagirdlər 1-ci çalışmanı yerinə yetirərək suallara cavab verirlər. 2,4-cü çalışmanı yerinə yetirən zaman şagirdlər mətnin hissələri arasında əlaqələri gözləməklə 2.1.4 alt standartını reallaşdırırlar. Şagirdlər 4,5-ci çalışmaları yerinə yetirməklə tanış olduqları mətndə fakt və hadisələri ümumiləşdirərək 1.1.2 alt standartını reallaşdırırlar.

Mətnin məzmununda söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun olaraq tələffüz edərək şagirdlər 6,7,8,9-cu çalışmaları yerinə yetirərək 2.1.1 alt-standatını reallaşdırırlar.

**BUNLARI BİLİRSİNİZMİ?**

Uşaqlar, nitqinizdə istifadə etdiyiniz *söz birləşmələri* adi sözlər kimi əşya və ya hadisələri adlandırmaq, onların mənalarını daha da konkretləşdirmək üçündür. *Söz birləşmələri* müstəqil mənalı sözlərdən əmələ gəlir.

Məsələn: *Xəzər dənizi, bədii əsər, kəndin mənzərəsi, evdən çıxanda* və s. Müstəqil mənalı sözlə köməkçi sözün birləşməsi (məsələn: *məktəbə tərəf, anam üçün* və s.) *söz birləşməsi* sayılmır.

*Söz birləşməsi* iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məsələn: *Azərbaycan ordusu, aydın səma, mənalı ömür, zəngin sərvətimiz, pəncərəni açmaq, günəşin şəfəqləri, qapını döyəndə, gəminin göyərtəsi, dərsdən gələn* və s.

**Məlumat mübadiləsi:** "Qızıl it" mətninin oxusu, eyni zamanda, çalışmalar üzərində iş, heyvanlarla insanlar arasındakı dostluq, məhəbbət hissləri şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir.

**Nəticə:** Ev heyvanları uşaqların sevimliləridir. Onlar adamlarda əsəb gərginliyini azaldır, uşaqları daha xeyirxah edir. Amma bizim "dördayaqlı dostlarımız", xüsusilə də itlər narahatlıq yarada, qonşulara və ya küçədən keçənlərə zərər yetirə bilər.

Heyvan saxlayan şəxslər heyvanı onun bioloji xüsusiyyətlərinə uyğun saxlamalı, onunla humanist rəftar etməli, nəzarətsiz, yeməksiz və susuz qoymamalı, döyməməli və xəstələnərsə, baytara müraciət etməlidirlər.

**Yaradıcı tətbiqetmə:** Azərbaycan ərazisində qorunan müxtəlif cins itlər haqqında məlumat toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dahi mütəfəkkir (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.2.; 4.1.1.<br>Coğ – 3.2.1.<br>Əd. – 1.2.4.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.2<br>2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qrupla iş
**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə
**Resurslar:** Dərslik, dəftər, kompüter, proyektor

**Motivasiya:** Müəllim internet şəbəkəsindən istifadə edərək proyektorla lövhədə "Nizami" filmindən fraqmentlər göstərir. Müəllim şagirdlərə müraciət edir:

– Ekranda gördüyünüz şairi, yəgin ki, tanıdınız. Şair haqqında müxtəlif məqalələr oxumusunuz. Bəs gördüyünüz kadrlar şair haqqında sizə nə deyir?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Şair Nizami, onun yaşadığı dövr, yaradıcılığı haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərin oxu bacarıqlarını yoxlamaq məqsədilə mətni oxutdurur. Şagirdlər nitqlərində məntiqi vurğunu gözləməklə oxuyurlar. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir və cümlələrdə işlədilərək mənimsədilir. Çalışma 1 mətnlə tanış olmağa xidmət edir. Şagirdlər qruplara bölünür. Suallar qruplar arasında bölüşdürülür. Qruplar suallara cavab verməli, həm də özləri əlavə suallar hazırlamalıdırlar.

Çalışma 3,4,5-in icrası qruplara tapşırılır. Şagirdlər çalışmalarda verilmiş nümunələrdən mətnin hissələrinə uyğun istifadə edərək 2.1.3 alt standartını reallaşdırırlar.

6-cı çalışma mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirməyə xidmət edir ki, bu da 3.1.1 alt standartının reallaşdırılmasına yönəlmişdir.

7,8,9,10-cu çalışmalar söz birləşməsi və sadə cümlələrin qrammatik normalara uyğun tələffüz edilməsinə və kontekstə uyğun mənalarının izah edilməsinə istiqamətləndirilmişdir. Bu çalışmalar da qruplarla iş formasında yerinə yetirilir. Qruplarla işin müəyyən mərhələsi başa çatdıqdan sonra müəllim qrup üzvlərini qiymətləndirə bilər.

**Məlumat mübadiləsi:** Şagirdlər Nizami Gəncəvinin ictimai-siyasi fəaliyyəti ilə də tanış olurlar. Şagirdlər dahi şairə olan xalq sevgisini, bu sevginin nəinki Azərbaycan xalqı, hətta dünya xalqları tərəfindən olduğunun bir daha şahidi olurlar. Mübadilə zamanı bir daha şairin yaradıcılığı araşdırılır.

**Nəticə:** Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan çoxlu yazıçı və şairlərimiz var. Onlardan biri də Nizami Gəncəvidir. Onun dünya şöhrətli "Xəmsə"si bütün dillərə tərcümə olunmuşdur. Xalq öz oğlunun xatirəsini əbədiləşdirməyə çalışır.

**Yaradıcı tətbiqetmə:** Nizami Gəncəvinin həyat və yaradıcılığı mövzusunda təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Bərdənin tərifi (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.1.1.; 1.1.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.2<br>2.1.1 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla, cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə

**Motivasiya:** Müəllim lövhədə Qarabağ torpaqlarını, bu torpaqların gözəlliyini nümayiş etdirir. Müəllim şagirdlərə müraciət edir:

– Siz Bərdə haqqında heç eşitmisinizmi?

Şagirdlərin cavabları dinlənilir. Onların tələffüzündəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Bərdə haqqında Nizami Gəncəvinin hansı əsərində söhbət açılır?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərə "Bərdənin tərifi" şeirini oxutdurur. Şeirin hər bəndi bir şagirdə oxutdurulur. Şeirin oxusu prosesində məzmun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük"dəki sözlərin mənası izah edilir, cümlələrdə işlədilir. Şagirdlər 1-ci çalışmanın şərtinə uyğun olaraq verilmiş ifadələri şeirdəki boşluqlarda yerləşdirərək fikirlərini əsaslandırırlar. Bu zaman 2.1.2 alt standartı reallaşdırılır.

Şagirdlər qruplara bölünür. Hər qrupa 3-cü çalışmanın şərtinə əsasən misralar üzərində işləmək tapşırılır. Şagirdlər şeirin misralarından biri üzərində düşünürlər, nümunələrdən, faktlardan istifadə etməklə həmin mətnin məzmununu genişləndirərək Bərdə haqqında danışırlar (3.1.2 alt standartı). Müəllim danışıq zamanı şagirdlərin nitqlərindəki qüsurları düzəldir. Şagirdlər şeirdəki kursivlə verilmiş misralar üzərində düşünərək "gizlənən" mənaları aydınlaşdırmağa çalışırlar. Bu çalışma şagirdləri düşünməyə və nəticə çıxarmağa istiqamətləndirir. Şagirdlər 3.1.3. alt standartını reallaşdırırlar. Dərslikdəki 5-ci çalışmanı kiçik qruplar yerinə yetirirlər.

7,8,9,10-cu çalışmaların icrasını müəllim cütlərə tapşırır. Bu daha yaxşı səmərə verir. Cütlər verilmiş çalışmalarda söz birləşməsi və sadə cümləlƏri qrammatik normalara uyğun tələffüz edərək sözlərin mənasını praktik yolla mənimsəyirlər. Çalışmalarda qoyulan tapşırıqlar, eyni zamanda, orfoqrafik və durğu işarələrindən istifadə üzrə işlər aparılmasına da imkan verir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Bərdənin tərifi" şeirinin əsas ideyasını müzakirə edir və vətən mövzusunda yazılmış bildikləri digər şeirlərlə müqayisəli şəkildə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Tədqiqat sualına cavab axtaran şagirdlər öyrənirlər ki, Bərdə şəhəri Qarabağ ərazisində yerləşir. Qarabağ- bizim babalarımızdan yadigar qalan əbədi məskənimizdir. Onun bir dilbər güşəsi də Bərdədir. Həqiqətən, öz gözəlliyi ilə Nizamini cəlb edən bu qədim torpaq dahi mütəfəkkirin yazılarında əbədiləşmişdir.

**Yaradıcı tətbiqetmə:** "Mənim vətənim" mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Seçdiyiniz misraları əzbərləmək.

## Çinar və taxta parçası (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Coğ. – 3.2.3.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.2<br>2.1.3<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Kiçik qruplar və cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, disk, kompüter

**Motivasiya:** Müəllim aktyorun ifasında M.Ə.Sabirin "Ağacların bəhsi" şeirini səsləndirir. Müəllim diski əldə edə bilməsə, özü şeiri ifadəli oxuya bilər. Sonra müəllim sinfə belə bir sualla müraciət edir:

- Şeirdə nədən bəhs edilir? Ağaclar nə üçün bir-biri ilə mübahisə edirlər?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** İnsanların həyatında ağacların nə kimi rolu var? Meşə təsərrüfatı haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Çinar və taxta parçası" mətninin şagirdlərə oxutdurulması ilə başlanır. Mətndəki situasiyanın düzgün qavranılması və sözlük üzərində iş aparılır. Bu zaman 2.1.2 alt standartı reallaşdırılır.

Sonra müəllim şagirdləri qruplara bölür. Hər qrup mətnin məzmunu ilə bağlı mətndəki fakt və hadisələri ümumiləşdirərək (1.1.2 alt standartı) plan tərtib etməlidir. Çalışma 3 bu məqsədlə nəzərdə tutulmuşdur.

Mətnin hissələri arasında əlaqələri gözləməklə (2.1.4 alt standartı) 4,5-ci çalışmalar yerinə yetirilir.

Kiçik qruplara 6,7,8-ci çalışmaların yerinə yetirilməsi tapşırılır. Bu çalışmaları yerinə yetirməkdə məqsəd şagirdlərin mətni mənimsədiklərini aydınlaşdırmaqdır. Onlar 3.1.3 alt standartını reallaşdıraraq fikirlərə münasibətlərini bildirirlər.

9-cu çalışmanın icrası cütlərə tapşırılır. Cütlər "Hikmət xəzinəsi"ndən rubrikasında verilmiş aforizm ətrafında düşünərək öz mülahizələrini bildirməlidirlər. Cütlər verilmiş aforizmi əvvəlcə tərcümə edir, daha sonra onların içərisindən mətnin məzmunu ilə əlaqəli olan fikri səsləndirirlər.

Şagirdlər 10,11,14,15-ci çalışmaları yerinə yetirərək müxtəlif fikirləri ümumiləşdirərək təqdim edirlər. Bu zaman 2.1.3 alt standartı reallaşdırılır.

Sonra müəllim yenə qruplarla işə keçərək hər qrupa 12,13-cü çalışmalardan birini yerinə yetirməyi tapşırır. Bu çalışmalar vasitəsilə 4.1.2 alt standartı reallaşdırılır, şagirdlər nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edərək fikirlərini əsaslandırırlar.

Çalışmalarda qoyulan tapşırıqlar şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, dil ehtiyatlarının genişlənməsinə, həmçinin nitqlərində vurğudan düzgün istifadə üzrə bacarıqların inkişafına şərait yaradır.

Çalışmalarda qoyulan tapşırıqlar şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, dil ehtiyatlarının genişlənməsinə, həmçinin nitqlərində vurğudan düzgün istifadə bacarıqlarının inkişafına şərait yaradır.

**Məlumat mübadiləsi:** Qruplar yerinə yetirdikləri çalışmalar əsasında mövzunu müzakirə edirlər. Fikir mübadiləsi onlarda insanda olan inamsızlıq, bədgümanlıq, həyatdan küskünlük kimi mənfi xüsusiyyətlərə qarşı münasibətlərin formalaşmasına kömək edir.

**Nəticə:** İnsan həmişə inamla yaşamalıdır. Həyatdan küsmək, bədgüman olmaq insanın əhvalını dəyişdirir, gələcəyə inamını azaldır, əlini işdən soyudur. Bu da sonrakı illərdə insanın həyatında qorxulu hadisələrin baş verməsinə gətirib çıxara bilər. Başqasına yardım əli uzadan insan həm onu ucaldar, həm də özü ucalar.

**Yaradıcı tətbiqetmə:** Mətndəki hadisəyə bənzər hadisə ilə qarşılaşmısınızmı? Bu barədə yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Üsyankar şair (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Söz birləşməsi və sadə cümləni qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.3<br>2.1.4 | Az.t. – 4.1.1.; 1.3.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 3 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, dəftər, kompüter, proyektor

**Motivasiya:** Müəllim internet şəbəkəsindən istifadə edərək şagirdlərə proyektorla "Nəsimi" filmindən kadrlar nümayiş etdirir. Müəllim şagirdlərə müraciət edir:

– Ekranda gördüyünüz şairi, yəqin ki, tanıdınız. Filmdə onun obrazını gördünüz? Bu kadrlar sizə necə təsir bağışladı?

**Tədqiqat sualı:** Bir vətəndaş kimi Nəsiminin şəxsi keyfiyyətləri, ictimai fəaliyyəti haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:**Müəllim şagirdlərin oxu bacarıqlarını yoxlamaq məqsədilə "Nəsimi" mətnini oxutdurur. Şagirdlər məntiqi vurğunu gözləməklə (2.1.2 alt standartı) mətni oxuyurlar. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir və cümlələrdə işlədilərək mənimsədilir.

Şagirdlər qruplara bölünürlər. Mətnin mənimsədilməsi, mətndəki fakt və hadisələrin qruplaşdırılması məqsədilə çalışma 1,2,5 yerinə yetirilir. (2.1.3 alt standartı). Qruplar suallar verməli, həm də özləri əlavə suallar hazırlamalıdırlar. Qrup üzvləri mətn üzrə plan tərtib edir və plan üzrə mətni danışırlar(2.1.4 alt

standartı). Çalışma 4,6-nı yerinə yetirməklə qruplar dilin normalarına bələdlik səviyyələrini bir daha nümayış etdirərək, fikirlərini konkret nümunələrlə əsaslandırırlar. Bu zaman 3.1.3 alt standart reallaşdırılır. Şagirdlər 2.1.1 alt standartını reallaşdıraraq 7,9-cu çalışmaları yerinə yetirərək söz birləşməsi və sadə cümləri qrammatik normalara uyğun tələffüz edirlər.

8,10-cu çalımalar isə şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə, tərcümə bacarıqlarının inkişafına xidmət edir. Bu zaman 4.1.2 alt standartı reallaşdırılır.

### BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, Sizin gündəlik nitqinizdə istifadə etdiyiniz söz birləşmələri əsas və asılı tərəflərdən ibarət olur. Asılı tərəf əvvəl işlənir və əsas tərəfə tabe olaraq, onun mənasını konkretləşdirir. Məsələn: *tərbiyəli şagird, mətni öyrənmək* birləşmələrində *şagird* və *öyrənmək* sözləri əsas tərəfdir:

*tərbiyəli* ⟶ *şagird*
*mətni* ⟶ *öyrənmək*

Göründüyü kimi, söz birləşmələrinin əsas tərəfi müxtəlif nitq hissələri ilə ifadə oluna bilər. Məsələn: *yaşıl qələm* birləşməsinin əsas tərəfi (*qələm*) isimlə, *divarı rəngləmək* birləşməsinin əsas tərəfi (*rəngləmək*) feillə ifadə olunmuşdur.

Əsas tərəfin hansı nitq hissəsi ilə ifadə olunmasına görə söz birləşmələri 2 növə ayrılır:

1. İsmi birləşmələr: *yun parça, şagirdlərin çoxu*
2. Feili birləşmələr: *dumana bürünmüş, musiqi çalınanda*

**Məlumat mübadiləsi:** Şagirdlər İmadəddin Nəsiminin həyatı və fəaliyyəti ilə tanış olur, Nəsimi yaradıcılığına onlarda böyük maraq oyanır. Mübadilə zamanı bir daha şairin yaradıcılığını araşdırırlar.

**Nəticə:** Yaradıcılığa lirik şeirlərlə başlayan Nəsimi sonralar daha çox fəlsəfi şeirlər yazmış, hətta fəlsəfi və siyasi fikirlərini belə insanlara bədii söz vasitəsilə çatdırmışdır. Onun ilk şeirlərində məhəbbət, insan gözəlliyinin tərənnümü əsas yer tutmuşdur. Tədricən püxtələşən şair əsərlərində siyasi, ictimai, əxlaqi mövzulara daha geniş yer verməyə başlayır. Nəsiminin qəzəlləri, rubailəri, orijinal olduğu qədər də qiymətlidir. Azərbaycan ədəbiyyatı tarixinə İmadəddin Nəsimi ana dilində yazılmış ilk fəlsəfi qəzəlin müəllifi kimi daxil olmuşdur.

**Yaradıcı tətbiqetmə:** Nəsimi haqqında informasiya toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Nəsimi (1 saat)

<table>
<tr><th>№</th><th>Gözlənilən təlim nəticələri</th><th>Alt standart</th><th>Fənlərarası inteqrasiya</th></tr>
<tr><td>1</td><td>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.</td><td>1.1.2</td><td rowspan="3">Az.t. – 1.2.2.; 4.1.1.<br>Əd. – 1.1.1.; 1.2.2.</td></tr>
<tr><td>2</td><td>Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.</td><td>2.1.1<br>2.1.2<br>2.1.4</td></tr>
<tr><td>3</td><td>Mətndəki fikirlərə münasibət bildirir.</td><td>3.1.3</td></tr>
</table>

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli-hücum, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, proyektor, dəftər

**Motivasiya:** Müəllim lövhədə “Nəsimi” filmindən 2-ci hissəni nümayiş etdirir. Müəllim şagirdlərə sualla müraciət edir:

– Gördüyünüz kadrlar sizə necə təsir bağışladı?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Nəsimiyə xalqımız tərəfindən verilən qiymət haqqında nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat “Nəsimi” şeirinin oxusu ilə başlanır. Oxu zamanı sözlərin orfoepiyası və vurğusuna, düzgün tələffüzünə diqqət yetirilir, nöqsanlar düzəldilir. “Sözlük”də verilmiş çətin sözlərin mənası izah edilir, şagirdlər yeni söz və ifadələri cümlələrdə işlədirlər.

Müəllim şagirdləri qruplara bölür. Şagirdlər 2-ci çalışmanın şərtinə görə suallar tərtib edirlər və bu suallarla bir-birlərinə müraciət edirlər. Beləliklə, 2.1.4 alt standartı reallaşdırılır. 3-cü çalışmanı yerinə yetirərkən şagirdlər mətndəki fakt və hadisələri ümumiləşdirərək 1.1.2 alt standartını reallaşdırırlar. Mətndəki fikirlərə münasibət bildirmək məqsədilə şagirdlər 4,5-ci çalışmaları yerinə yetirirlər. Bu zaman 3.1.3 alt standartı reallaşdırılır. 7,8,9-cu çalışmalar söz birləşməsi və sadə cümləlri qrammatik normalara uyğun tələffüz etməklə 2.1.1 alt standartının reallaşmasına şərait yaradır. Bu çalışmaların icrası şagirdlərin yazılı rabitəli nitqinin formalaşmasına imkan verir, həm də sözlərin yazılış və durğu işarələri qaydalarına əməl olunmasını əks etdirir.

## BUNLARI BİLİRSİNİZMİ?

Əsas tərəfi isim, sifət, say, əvəzlik və bəzən də zərflə ifadə olunan birləşmələrə ismi birləşmələr deyilir.

Məsələn: *sərin* → *külək (isim)*
*Qızların* → *gözəli (sifət)*
*Uşaqların* → *çoxu (say)*
*Qonaqların* → *hamısı (əvəzlik)*
*Vətənimizin* → *sabahı (zərf)*

Yaranma üsullarına, forma və məna xüsusiyyətlərinə görə bu birləşmələr bir-birindən fərqlidir:

Məsələn: *aylı gecə; ay işığı; yağışın damcıları.*

**Məlumat mübadiləsi:** Şagirdlər "Nəsimi" şeirinin məzmunu ilə tanış olduqdan sonra Xəlil Rza Ulutürkün dahi sənətkara verdiyi qiyməti müzakirə edirlər. Dərs boyu aparılan işlər nəticəsində tədqiqat sualına tapılan cavablar müzakirə olunur.

**Nəticə:** Vətənimizin övladları şeirə, sənətə həmişə yüksək qiymət vermişlər. Torpağımızın yetirdiyi şairlər, yazıçılar həmişə xalqımızın sevimlisi olmuşlar. Xalqın içərisində onların xüsusi yeri olmuşdur. Belə sənətkarlardan biri də Nəsimidir. Nəsiminin mübarizliyi onu xalqın gözündə ucaltmışdır. Bunu tanış olduğumuz "Nəsimi" şeirindən də görə bilərik.

**Yaradıcı tətbiqetmə:** İmadəddin Nəsimi haqqında əlavə informasiya toplayıb yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Seçdiyiniz bəndləri əzbərləmək.

## Qurban bayramı (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.2.1.; 1.3.1. Əd. – 2.1.1. |
| 2 | Söz birləşməsi və sadə cümləli qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.1<br>2.1.2 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab
**Resurslar:** Dərslik, proyektor, dəftər

**Motivasiya:** Müəllim elektron lövhədə keçən Qurban bayramından çəkilmiş bayram mərasimlərinin görüntüləini canladırır. Müəllimin sualı:

– Qurban bayramının xalqımız üçün necə önəmli olması faktları barədə nə deyə bilərsiniz?

Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** Bəs Qurban bayramının keçirilməsinin mahiyyəti, onun hansı ölkələrdə keçirilməsi barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Qurban bayramı" mətninin oxusu ilə başlanır. Şagirdlər nitqlərində məntiqi vurğudan düzgün istifadə etməklə 1-ci çalışmanı yerinə yetirirlər. Müəllim qruplara 2,4,7-ci çalımaların icrasını tapşırır. Bu zaman 3.1.3 alt standartı reallaşdırılır və onlar mətndəki fikirlərə münasibət bildirirlər.

Mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirən xüsusiyyətlər 3,5-ci çalışmaların icrası zamanı yerinə yetirilir və bu zaman 1.1.1 alt standart reallaşır.

8,11-ci çalışmaların icrası şagirdlərin seçdiyi nümunələrlə yazılarını zənginləşdirməyə xidmət edir ki, bu da 4.1.1 və 4.1.2 alt standartının reallaşmasına xidmət edir.

Şagirdlərin qrammatik anlayışlara dair biliklərini yoxlamaq 2.1.4 alt standartını reallaşdırmaq məqsədilə dərslikdəki 10-cu çalışmaya müraciət etmək lazımdır.

**Məlumat mübadiləsi:** Şagirdlər Qurban bayramı keçirmələri barədə öz təəssüratlarını yoldaşları ilə bölüşərək, müzakirəyə qoşulurlar.

**Nəticə:** Qurban bayramı türkdilli Şərq xalqları arasında birlik, mehribanlıq yaradan bayramdır. Hər bir xalq öz bayramlarının dəyərini və qiymətini bilib, onu qorumalı, gələcək nəsillərə ötürməlidir. Bu bayram xalqımızın mənəvi irsidir.

**Yaradıcı tətbiqetmə:** Şagirdlər Qurban bayramı haqqında əlavə məlumat toplayıb təqdimat hazırlamalıdırlar.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Ağıllı sövdəgər
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.1.<br>Əd. – 1.2.4.; 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Kiçik qruplarla iş
**Dərsin üsulu:** Əqli hücum, müzakirə,təqdimat
**Resurslar:** Dərslik, proyektor, dəftər.

**Motivasiya:** Müəllim şagirdlərə Molla Nəsrəddinin bir neçə lətifəsini danışır. Şagirdlər dinləyirlər, düşünürlər və gülürlər. Müəllim sinfə sualla müraciət edir:

– Eşitdiyimiz lətifələrdə diqqətinizi cəlb edən nə oldu?

Şagirdlərin fərziyyələri dinlənilir. Müəllim onların nitqlərindəki qüsurları düzəldir.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, hazırcavablıq yaxşı xüsusiyyətdir, yoxsa pis? Özünüzü hazırcavab hesab edirsinizmi? Hazırcavab insanları şanslı hesab etmək olarmı?

**Tədqiqatın aparılması:**Tədqiqat "Ağıllı sövdəgər" mətninin oxusu ilə başlanır. Oxu prosesində şagirdlərin məntiqi vurğudan düzgün istifadə etmələrinə (2.1.2 alt standartı) diqqət yetirilir, müəyyən məqamlarla bağlı lazımi tövsiyələr verilir. Paralel olaraq mətnin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır, "Sözlük"dəki çətin sözlər izah edilir, lazım gəldikdə cümlələrdə işlədilir. Mətnin oxusu başa çatdıqdan sonra şagirdlər qruplara bölünərək 2-ci çalışmanın icrasına başlayırlar və bu zaman mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirərək 1.1.1 alt standartını reallaşdırırlar. Qruplara 1.1.2 alt standartına əməl edərək, fakt və hadisələri ümumiləşdirərək 3-cü çalışmanı yerinə yetirmək tapşırılır. Sonra müəllim sinfə

sual verərək dərsdə səslənən müxtəlif mövqeli fikirləri ümumiləşdirərək 4-cü çalışmanın yerinə yetirilməsini tapşırır və bu zaman 2.1.3 alt standartı reallaşır. Qrup üzvləri mətndəki fikirlərə münasibət bildirərək 5,7-ci çalışmaları yerinə yetirərək 3.1.3 alt standartını reallaşdırırlar.

Qrup üzvləri verilmiş mətndəki sözlərin mənasını izah etməklə bərabər oradakı söz birləşmələrinin rolunu da qeyd edirlər ki, bu da 3.1.1 alt standartının reallaşdırılması üçün zəmin yaradır.

**Məlumat mübadiləsi:** Şagirdlər hazırcavablıq barədə fikir mübadiləsi aparırlar. Əlişirin hazırcavablığını müzakirə edərək müəyyən qənaətə gəlirlər.

**Nəticə:** İnsanda hazırcavablıq yaxşı xüsusiyyətdir, lakin düşünmək lazımdır ki, hazırcavablıq həmişə yerinə düşürmü? Hazırcavab insanlar dərin düşünmə qabiliyyətinə malik olurlar. Düşünmədən danışmaq, lazım oldu-olmadı ağılsız sözlər işlətmək isə bəzən insanı çətin vəziyyətdə qoyur, yaxud onu gülüş hədəfinə çevirir. Əlişirin hazırcavablığı ona Sultan Hüseynin yanında daha da hörmət gətirdi və o, Əlişiri özünün vəziri təyin etdi.

**Yaradıcı tətbiqetmə:** Dahi şəxsiyyətlərin hazırcavablığı ilə bağlı faktlar toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Plan əsasında mətnin məzmununu danışmaq.

## Kim haqlıdır?
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.<br>Coğ. – 2.1.3.<br>Əd. – 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə
**Resurslar:** Dərslik, elektron lövhə, proyektor.

**Motivasiya:** Müəllim şagirdlərə proyektor vasitəsilə "Qızılaxtaranlar" filmindən fraqmentlər göstərir. Fraqmentə baxdıqdan sonra sinfə sualla müraciət edir:

– İnsanları belə işlərə şövq edən nədir? Tamah, yoxsa məcburiyyət?

Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqat sualı:** Ağıllı, hazırcavab insanlar haqqında nə bilirsiniz? Həyatda rastlaşdığınız hansı hadisəni nağıla bənzədə bilərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat, dərslikdəki "Kim haqlıdır?" mətninin oxunması ilə başlayır. "Sözlük"dəki çətin sözlər izah edilir, cümlələrdə işlədilir. Mətnin oxusu prosesində şagirdlərin məntiqi vurğu ilə oxu bacarığı izlənilir, lazımi düzəlişlər edilir və lazımi praktik kömək göstərilir.

Tədqiqat dərslikdəki çalışmalar üzrə işlə davam etdirilir. Çalışma 1,3,4,5 cütlərə tapşırılır. Cütlər mətndəki fakt və hadisələri ümumiləşdirərək 1.1.2 alt standartını reallaşdırırlar. Çalışma 2-dəki suallar cütlərə paylanılır və cütlər suallara cavab verərək mətndəki hissələr arasındakı əlaqələri gözləməklə 2.1.4 alt standartını reallaşdırırlar.

6-cı çalışmanın icrası şagirdlərin lüğət tərkibinin dəqiqləşdirilməsinə xidmət edir. Şagirdlər söz birləşməsi  və sadə cümləlləri qrammatik normalara uyğun tələffüz edərək 7,8,9-cu çalışmaları yerinə yetirməklə 2.1.1 alt standartını reallaşdırırlar. Çalışmaların icrasından və müzakirədən sonra qiymətləndirmə aparılır.

**Məlumat mübadiləsi:** Mətnin oxusu və eyni zamanda çalışmalar üzərində iş şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir.

**Nəticə:** Nağıllarımızda, dastanlarımızda tanış olduğumuz hadisələri babalarımız həyatdan götürmüş və onlara obrazlılıq qataraq bizim dövrümüzə qədər yaşatmışlar. Nağıllarımız bizim üçün ibrət, tərbiyə məktəbidir. Biz yaşımız artdıqca, əməllərimiz böyüdükcə yenə də nağıllara inanırıq, onlarla yaşayırıq.

**Yaradıcı tətbiqetmə:** Həyatda rast gəldiyiniz hər hansı hadisə ilə filmdə, bədii ədəbiyyatda rastlaşmısınızsa, onun haqqında kiçik esse yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Şah İsmayıl
# (I hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi fikri anladığını nümayiş etdirir. | 1.1.1 | Az.t. – 1.2.1.; 4.1.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.2<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Kiçik qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə, BİBÖ
**Resurslar:** Dərslik, kompyüter, elektron lövhə, proyektor.

**Motivasiya:** Müəllim lövhədə kompyüter və proyektor vasitəsilə "Şah İsmayıl" operasından fraqmentləri canlandırır və sonra sinfə sualla müraciət edir:

– Gördüyünüz operanın müəllifi kimdir? Bu opera haqqında nə bilirsiniz?

Şagirdlər fərziyyələrini söyləyirlər.

**Tədqiqat sualı:** Gördüyünüz operanın baş qəhrəmanı Şah İsmayıl Xətayi dir. Şah İsmayıl Xətayi haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim "Şah İsmayıl" mətnini şagirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"nda çətin söz və ifadələr də işlədilir. Sonra mətnin məzmununu mənimsədilməsi üzərində iş başlanır. Bu məqsədlə müəllim şagirdləri 3 qrupa bölür. Qruplara 1.1.1; 2.1.2; 2.1.4; 4.1.2 alt standartlarının reallaşdırılması üçün 1,2,3,4-cü çalışmaların icrası tapşırılır. Bu çalışmaları yerinə yetirməklə şagirdlər, mətndəki məntiqi ardıcıllığı müəyyənləşdirir, oxu zamanı nitqlərində məntiqi vurğudan istifadə edir, mətnin hissələri arasında əlaqələri gözləməklə danışır, seçdiyi nümunələrlə yazılarını zənginləşdirirlər.

Qruplar mətndəki fikirlərə münasibət bildirərək 5,6,7-ci çalışmaları yerinə yetirmək üçün BİBÖ cədvəlini doldururlar. Müəllim qrupların işini qiymətləndirir və 3.1.3 alt standartı reallaşdırılır.

Qrup üzvləri 2.1.1 alt standartını reallaşdırmaq məqsədilə 8,9,10-cu çalışmaların icrasına başlayırlar. Çalışmaları yerinə yetirən zaman söz birləşməsi və sadə cümlələri qrammatik normalarına uyğun tələffüz edirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər "Şah İsmayıl Xətayini xalq qəhrəmanı hesab etmək olarmı?" fikrini müzakirə edib,debata qoşulurlar.

**Nəticə:** Şagirdlər Şah İsmayıl haqqında oxuduqlarından belə nəticəyə gəlirlər ki, Şah İsmayıl Xətayinin yaratdığı vahid Azərbaycan dövlətinin xəritəsinə baxanda "Azərbaycan" adlanan ərazinin necə böyük bir coğrafi sərhədə malik olduğu aydın görünür. Xain qonşular bu ərazini zaman-zaman tutaraq özlərinə dövlət yaratmışlar. Lakin onlar bu əraziyə heç vaxt vətən deyə bilməmişlər. Çünki özgə torpağı vətən olmaz.

**Yaradıcı tətbiqetmə:** Ş.İ.Xətayi haqqında əlavə məlumat toplayıb təqdimat hazırlayın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Şah İsmayıl
## (II hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.1.; 4.1.1. Əd. – 1.2.4.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.3 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə, BİBÖ

**Resurslar:** Dərslik, proyektor, kompüter, dəftər

**Motivasiya:** Müəllim lövhədə internet səhifələrindən götürülmüş Şah İsmayıl Xətayinin yaşadığı dövr haqqında məlumatları, şəkilləri nümayiş etdirir. Sonra sinfə müraciət edir: "Gördüyünüz şəkillər hansı dövrü əhatə edir? Hansı tarixi hadisələri sizə xatırlatdı?"

Şagirdlərin cavabları dinlənilir. Tələffüzlərindəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Şah İsmayıl Xətayini bir sərkərdə, dövlət başçısı kimi tanıyırsınız. Bəs onu bir şair kimi necə qiymətləndirərdiniz?

**Tədqiqatın aparılması:** Təqdiqat dərslikdəki "Şah İsmayıl" mətninin 2-ci hissəsinin oxusu ilə başlanır. Əvvəlki dərslərdən, tarixdən mövzu ilə bağlı şagirdlərin müəyyən məlumatı olduğundan müəllim oxu zamanı BİBÖ üsulundan istifadə edir. Sonra yeni mətnin mənimsədilməsi üzərində iş aparılır. Şagirdlər qruplara bölünür. 1-ci çalışma üzərində iş aparılır. Bu zaman mətndəki fakt və hadisələr ümumiləşdirilir və 1.1.2 alt standart reallaşdırılır. Müəllim 2,3-cü çalışmaları kiçik qruplara paylaşdırır və 3.1.3 alt standartını reallaşdırılaraq mətndəki fikirlərə münasibət bildirir. Qrup üzvləri məntiqi təfəkkürlərinə arxayınlaşaraq ağ boşluqlara sözləri yerləşdirməli və kursivlə verilmiş ifadələrin izahını verməlidirlər. Şagirdlər müxtəlif fikirləri ümumiləşdirərək təqdim edirlər (2.1.3. alt standartı).

Müəllim bütün siniflə işləyərək Şah İsmayılın qəhrəmanlığını müzakirə edərək debata qoşulur və fikirlərini toplayaraq təqdim edirlər. Müəllim kiçik qruplara 5,6-cı çalışmaları tapşırır. Bu zaman 3.1.2 alt standartını reallaşdıraraq əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edərək çalışmaları yerinə yetirirlər. Müəllim nəzarət edir və göstəriş verir.

Şagirdlər söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edərək 7,8,9-cu çalışmaları yerinə yetirərək 2.1.1 alt standartını reallaşdırırlar.

Qrupların işi yoxlandıqdan sonra müəllim müvafiq çalışmalara əsasən qiymətləndirmə apara bilər.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətndə və çalışmalardakı faktlar üzərində fikir mübadiləsi aparır, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər əldə etdikləri faktlar əsasında Şah İsmayılın şair kimi fəaliyyəti ilə tanış olur, onun "sərkərdə şair", "qəhrəman şair" adlandırılmasının səbəbini anlayırlar.

Biz fəxr edirik ki, tariximizdə Şah İsmayıl Xətayi kimi, öz fəaliyyəti, əməlləri ilə iz qoymuş şəxsiyyətlərimiz olub. Onların həyat yolu əsl nümunədir. Belə insanlar üçün Vətən, xalq, millət məfhumu ən ali bir məfhumdur. Hər birimiz Xətayi kimi insanlardan özümüzə nümunə götürməyi bacarmalıyıq.

Çalışaq ki, belə insanlardan biri olaq.

**Yaradıcı tətbiqetmə:** Şagirdlər Şah İsmayıl Xətayinin əsərlərindən nümunələr toplayıb təqdimat hazırlayırlar.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Qızıldan qiymətli bitki (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Biol. – 1.3.2.<br>Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.3.<br>Əd. – 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.1 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Kiçik qruplarla və cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, BİBÖ
**Resurslar:** Dərslik, proyektor, kompüter

**Motivasiya:** Müəllim lövhədə proyektor vasitəsilə zəfəran bitkisindən bəhs olunan sənədli filmi göstərir və eyni zamanda "Zəfəran"mahnısını səsləndirir. Müəllim sinfə sualla müraciət edir.

– Zəfəranın ətri sizə necə təsir edir?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Nə üçün zəfəran "qiymətli bitkilər" siyahısındadır?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Qızıldan qiymətli bitki" mətninin şagirdlərə oxutdurulması ilə başlanır. Oxu prosesində şagirdlər əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan (3.1.2 alt standartı) istifadə edirlər. Şagirdlər böyük qrup şəklində BİBÖ cədvəlini doldururlar. Bu zaman 1-ci çalışma yerinə yetirilir.

Sinif kiçik qruplara bölünür. Müəllim şagirdlərə 2-ci çalışmanı yerinə yetirməyi tapşırır. Qrup üzvləri mətn üzrə işləyərək, mətndəki fakt və hadisələri ümumiləşdirərək suallar tərtib edirlər və həmin sualları bir-birlərinə verirlər. Bu zaman 1.1.2 alt standartı reallaşmış olur, şagirdlərin mövzunu nə dərəcədə başa düşmələri aydınlaşır. Müəllim 3,4,5-ci çalışmaların icrasını cütlərə tapşırır. Cütlər mətn üzrə işləyərək mətndəki fikirlərə münasibət bildirərək tapşırıqları yerinə yetirirlər. Tapşırıqların həlli müzakirə edilir və müəllim tərəfindən qiymətləndirilir. Bununla 3.1.3 alt standartı reallaşmış olur.

Şagirdlər 6,7,8,9-cu çalışmaları cütlərlə yerinə yetirərkən 2.1.1 alt standartını reallaşdıraraq uyğun söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edirlər. Qrupların cavabları qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Qruplar yerinə yetirdikləri çalışmalar əsasında mövzunu müzakirə edirlər. Fikir mübadiləsi onlarda təbiətdə olan bitkilərə qarşı daha həssas, daha diqqətli olmaq kimi münasibətlərin formalaşmasına

kömək edir. Tədqiqat sualına cavab tapan şagirdlər fikirlərini əsaslandırmağı bacarırlar.

**Nəticə:** Azərbaycan dünyanın ən qədim və bitkiləri ilə zəngin ölkələrindən biridir. Burada 4500-dən artıq bitki növü var. Bu növlərin bir çoxu Azərbaycan ərazisində mədəni hala keçmiş, dünyanın müxtəlif ölkələrinə yayılmışdır. Dünya əkinçiliyinin ilk dövrlərində Azərbaycanda bağçılıq, tərəvəzçilik təsərrüfatları fəaliyyət göstərmişdir.

İnsan həyatında bitkilərin əhəmiyyəti çox böyükdür. Onlar oksigen mənbəyidir, onlardan qida maddəsi kimi, tikinti materialı kimi istifadə olunur. Bitkilərdən dərman, boyaq maddələri alınır. Bəzi bitkilərdən dekorativ məqsədlərlə istifadə olunur.

Azərbaycanda bitən dəmirağac, xarı bülbül, Eldar şamı, Lənkəran akasiyası və bir çox bitkilər endemikdir, yəni təbii halda yalnız bizim ölkədə bitir.

**Yaradıcı tətbiqetmə:** Daha hansı qiymətli bitkiləri tanıyırsınız? Bu haqda təqdimat hazırlayın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Ən varlı məmləkət
## (I hissə- 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.3.1.; 4.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.2<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə
**Resurslar:** Dərslik, elektron lövhə, kompüter

**Motivasiya:** Müəllim elektron lövhədə Naxçıvan Muxtar Respublikası haqqında çəkilmiş sənədli filmi nümayiş etdirir. Sinfə sualla müraciət edir: "Gördüyümüz kadrlar haqqında nə deyə bilərsiniz?" Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Naxçıvan, yoxsa Nəqşicahan? Bu iki ifadəni necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərə "Ən varlı məmləkət" mətnini oxutdurur. Mətnin oxusu prosesində məzmun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük"dəki sözlərin mənası izah edilir, cümlələrdə işlədilir. Şagirdlər 1-ci çalışmanın şərtinə uyğun olaraq verilmiş ifadələri ağ boşluqlarda yerləşdirərək fikirlərini əsaslandırırlar. Bu zaman 2.1.2 alt standartı reallaşdırılır. Kiçik qruplar 2,3-cü çalışmalar üzərində işləyərək çalışmaların şərtinə əsasən, mətn üzrə fikir yürüdür, faktlardan istifadə etməklə suallara cavab verir, mətnin hissələri arasındakı əlaqələri gözləməklə mətnin məzmunu genişləndirərək Naxçıvan haqqında danışırlar. Bu zaman 2.1.4 alt standart reallaşdırılır. Müəllim 4,5,7,8-ci çalışmaları cütlərə paylayır. Şagirdlər 3.1.3 alt standartına əsaslanaraq mətndəki fikirlərə münasibət bildirməklə çalışmaları yerinə yetirirlər. Cütlər yerinə yetirdikləri çalışmaları təqdim edirlər. Onların səhvləri müzakirə edilir, düzəldilir. Müəllim cütləri qiymətləndirə bilər.

Sonra böyük qrupla 9-cu çalışma yerinə yetirilir. Bu çalışmanın yerinə yetirilməsi zamanı söz birləşməsi və sadə cümlələr qrammatik normalara uyğun tələffüz edilir və 2.1.1 alt standartı reallaşdırılır.

### BUNLARI BİLİRSİNİZMİ?

Dilimizdə feili birləşmələr də çox işlənir.

Əsas tərəfi feillərdən ibarət olan birləşmələrə **feili birləşmələr** deyilir. Məsələn: *evə getmək*. Belə birləşmələrin əsas sözü zamana və şəxsə görə dəyişməyən feillərdən ibarətdir. Yəni, məsdər, feili sifət və ya feili bağlama – feili birləşmənin əsas tərəfi kimi işlənir. ⟶

Məsələn: *dərsi* ⟶ *danışmaq* (məsdər)
*Dərsi* ⟶ *danışan* (feili sifət)
*Dərsi* *danışanda* (feili bağlama)

Çox vaxt feili birləşmələrdə sözlərin sayı çox olur: *dərsi yaxşı danışmaq, şeiri əzbər öyrənən, qapını gülər üzlə qonaqların üzünə açanda*.

**Məlumat mübadiləsi:** Şagirdlər "Ən varlı məmləkət" mətninin əsas ideyasını müzakirə edir və Vətənimizin digər belə məmləkətləri barədə müqayisəli şəkildə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Vətən ona görə əzizdir ki, o bizim ilk beşiyimiz, son məkanı-

mızdır. Dünyaya ilk dəfə göz açanda Azərbaycan torpağının ətrini duymuşuq. Anamızın südü ilə ruhumuza vətən sevgisi hopmuşdur. Doğma diyarımız Azərbaycan bizim varlığımız, arxamız və köməyimizdir. Bizim bir güvənc yerimiz, bir dayaq nöqtəmiz var. Onun adı Azərbaycandır, ana Vətən Azərbaycan.

Naxçıvan isə Azərbaycanın bir parçasıdır.

**Yaradıcı tətbiqetmə:** Naxçıvan haqqında informasiya toplayıb təqdim etmək.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Ən varlı məmləkət
## (II hissə- 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Söz birləşməsi və sadə cümləni qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.3<br>2.1.4 | Az.t. – 1.3.1.; 4.1.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Mətndəki fikirlərə münasibət bildirir.<br>Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. | 3.1.2<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə, kompüter

**Motivasiya:** Müəllim Naxçıvan haqqında bəstələnmiş musiqini səsləndirir. Şagirdlər birlikdə ifa edirlər. Müəllim sinfə sualla müraciət edir: Mahnıda ifa etdiyiniz sözlərlə sizin fikirləriniz üst-üstə düşürmü?

Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Naxçıvan həqiqətənmi ən varlı məmləkətdir? Onun haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərə mətnin II hissəsini oxutdurur. Əsas fikri nəzərə çarpdırmaq

üçün şagirdlər məntiqi vurğudan istifadə edirlər və bununla 3.1.2 alt standartı reallaşdırılır. Şagirdlər 1-ci cümlənin mətndəki rolunu müəyyənləşdirirlər. Müəllim şagirdləri qruplara bölür və hər qrupa 3 və 7-ci çalışmaların icrasını tapşırır. Bu zaman şagirdlər mətnin hissələri arasında əlaqələri gözləyərək 2.1.4 alt standartını reallaşdırırlar. Müəllim şagirdlərin işini qiymətləndirə bilər. Müəllim cütlərlə işi şagirdlərə məsləhət bilərək mətndəki fikirlərə münasibət bildirməklə mətnlərə uyğun suallar tərtib edir, verilmiş sualların mətnin məzmununa aidliyini təyin edir və mətndə kursivlə fərqləndirilmiş ifadələrin kontekstə uyğun mənalarını araşdırır, verilmiş variantların uyğunluğunu seçir. Bu zaman 3.1.3 alt standartı reallaşdırılır.

Kiçik qruplar 2.1.3 alt standartına əsasən müxtəlif mövqeli fikirləri ümumiləşdirərək 8,9-cu çalışmaları yerinə yetirirlər. Qrup üzvləri verilmiş ifadələri yeniləri ilə əvəz edərək müqayisə edirlər. "Hikmət xəzinəsi" ndə rubrikasında verilmiş aforizmlər mətnin məzmunu ilə bağlı tərbiyəvi iş aparmağı nəzərdə tutur. Aforizmlərdə işlənmiş feli birləşmələrin seçilməsi şagirdlərin söz birləşməsi və sadə cümlələri qrammatik normalarına uyğun tələffüzünə kömək edir və bu zaman 2.1.1 alt standartı reallaşdırılaraq 10-cu çalışma yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnin 2-ci hissəsinin 1-ci hissə ilə əlaqəsini daha ətraflı öyrənir və Naxçıvan haqqında bildiklərini bir daha artıraraq debata qoşulurlar.

**Nəticə:** Vətən doğulub boya-başa çatdığımız məkandır. Deməli, Vətən doğulduğumuz kənddən, qəsəbədən, şəhərdən başlayır. Əvvəl kiçik bir guşəni vətən bilirik. Özünüz böyüdükcə Vətən haqqında anlayışlarınız da genişlənir, ana yurdun tək bircə kənd yox, yüzlərlə, minlərlə kənddən, qəsəbədən, şəhərdən ibarət olduğunu anlayırıq.

Gözümüzdə, şüurumuzda getdikcə böyüyən, böyüdükcə gözəlləşən ana yurdumuz bizim üçün fəxr yeri, ən müqəddəs ibadətgahdır.

Naxçıvan dilbər guşəmiz olmaqla sevimli Vətənimizin bir parçasıdır.

**Yaradıcı tətbiqetmə:** "Naxçıvan Azərbaycanın dilbər guşəsidir" mövzusunda kiçik inşa yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Məhəmməd Füzuli
# (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 4.1.1.<br>Əd. – 1.2.4. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1.<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qrup və cütlərlə iş
**Dərsin üsulu:** Əqli-hücum, sual-cavab, müzakirə
**Resurslar:** Dərslik, dəftər, şəkillər, elektron lövhə

**Motivasiya:** Müəllim elektron lövhədə Məhəmməd Füzulinin şəkillərini nümayiş etdirir və sinfə müraciət edir: "Gördüyünüz bu şəkillər haqqında nə bilirsiniz?" Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki qüsurlar düzəldilir.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, Məhəmməd Füzulini şeirin qəzəl janrının ustadı hesab etmək olarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat "Məhəmməd Füzuli" mətninin oxusu ilə başlanır. Sonra mətnin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir. Mətnin oxusu zamanı şagirdlər məntiqi vurğudan istifadə edirlər. Bununla əlaqədar olaraq şagirdlər 1,2-ci çalışmaları yerinə yetirməyə çalışırlar və bununla 1.1.2 alt standartı reallaşdırılır.

Müəllim şagirdlərin iştirakı ilə 3-cü çalışmanın icrasına başlayır və şagirdlər yerində işlənməyən cümlənin mətndə yerini taparaq 3.1.3 alt standartını reallaşdırırlar.

Müəllim şagirdləri qruplara bölür və hər qrup 4-cü çalışmada verilmiş abzasları genişləndirərək mətn tərtib edir və Məhəmməd Füzulinin yaradıcılığını tədqiq edərək geniş təqdimat hazırlayırlar. Müəllim qrupların işini qiymətləndirə bilər. Bu zaman 2.1.4 alt standartı reallaşdırılır.

Sonra qruplar 5-ci çalışmanı yerinə yetirərək sözləri mətndə kontekstə uyğun yerləşdirirlər və 3.1.1 alt standartı reallaşdırılır. Müəllim 6,7,8,9-cu çalışmaları cütlərə paylayır və cütlər söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edərək 2.1.1 alt standartını reallaşdırırlar.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətnin məzmunu və yerinə yetirdikləri çalışmaların köməyilə sözlərin qrammatik mənaları, mətnin məzmunu üzərində fikir mübadiləsi aparırlar.

**Nəticə:** Şagirdlər öyrənirlər ki, bütün dövrlərdə Azərbaycan xalqının maariflənməsində xalqın zövqünün formalaşmasında misilsiz xidmətləri olan şəxsiyyətlərimiz olub. Bunlardan biri də Məhəmməd Füzulidir. Hər bir şairin, sənətkarın Azərbaycan ədəbiyyatında öz mövqeyi, öz yeri var. Məhəmməd Füzuli isə Azərbaycan şeirinin zirvəsində parlayan bir günəşdir ki, bu gün də bu günəşin şüaları gənc yazarların yolunu işıqlandırır.

**Yaradıcı tətbiqetmə:** Şair haqqında informasiya toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dənizdə fırtına
## (I hissə-1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.3<br>2.1.4 | Coğ. – 2.1.3.<br>Əd. – 1.2.4.; 2.2.1. |
| 2 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 3 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1<br>4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, BİBÖ, sual-cavab,debat

**Resurslar:** Dərslik, elektron lövhə, dəftər, iş vərəqləri

**Motivasiya:** Müəllim elektron lövhədə “İnsan məskən salır” filmindən müxtəlif fraqmentlər göstərir. Şagirdlər filmin qəhrəmanı Ramizin fırtınada göstərdiyi qəhrəmanlığı diqqətlə izləyirlər. Müəllim sinfə sualla müraicət edir:

“Gördüyünüz kadrlar sizə necə təəssürat bağışlayır?” Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Hər adam belə qəhrəmanlıq edə bilər? Ümumiyyətlə, kiməsə kömək etmək qəhrəmanlıqdırmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Dənizdə fırtına” mətninin 1-ci hissəsinin oxusu ilə başlanır. Müəllim şagirdlərə mətni oxutdurur. Oxu prosesində şagirdlərin sözləri orfoepik normalara uyğun və vurğunu gözləməklə düzgün tələffüz etmələrinə, intonasiyaya fikir verilir, zəruri düzəlişlər edilir. “Sözlük”dəki sözlər izah edilir və cümlələrdə işlədilir.

Sonra mətn üzrə seçilmiş alt standartların reallaşdırılması çalışmalar üzrə iş aparmaqla davam etdirilir, 1-ci çalışmanın icrasında bütün sinif iştirak edir. Şagirdlər suallara cavab verərək mətnlə əlaqəsi olmayan sualı tapır və bununla da 2.1.3 alt standartı reallaşdırılır.

Sonra cütlərlə iş aparılır. Müəllim 2,3,4,6-cı çalışmaların icrasını cütlərə paylayır. Cütlər mətndəki fikirlərə münasibət bildirərək 3.1.3 alt standartını reallaşdıraraq yerinə yetirir və mətnin hissələri arasındakı əlaqələri gözləməklə əsaslandıraraq 2.1.4 və sözləri ağ boşluqda yerləşdirərək 3.1.3 alt standartını reallaşdırırlar.

Sonra müəllim böyük qrupla işləyərək 5-ci çalışmanı yerinə yetirərək 4.1.1 alt standartını reallaşdırırlar. Şagirdlər 4.1.2 alt standartını reallaşdıraraq seçdikləri nümunələrlə yazılarını zənginləşdirərək, 7-ci çalışmanı yerinə yetirirlər.

Sonra şagirdlər 2.1.1 alt standartına əsasən 8, 9-cu çalışmanı yerinə yetirirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları, filmdə gördükləri və tədqiqat nəticəsində öyrəndikləri əsasında fikir mübadiləsi edirlər. Müzakirə şagirdlərin rabitəli nitqinin inkişafına kömək edir.

**Nəticə:** İnsanlara, yəni ehtiyacı olanlara yardım etmək hər bir insanın əsas borcu və vəzifəsi olmalıdır. Lakin yardım edərkən elə etmək lazımdır ki, həmin insanlar utanmasınlar, xəcalətli qalmasınlar. Onlara deyilməlidir ki, bu bizim insanlıq borcumuzdur, mənim yerimdə olsaydınız, siz də belə hərəkət edərdiniz.

**Yaradıcı tətbiqetmə:** “Dosta yardım” mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni danışmaq.

## Dənizdə fırtına
## (II hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Coğ. – 2.1.3.<br>Əd. – 1.2.4.; 2.2.1. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Əqli hücum, müzakirə
**Resurslar:** Dərslik, elektron lövhə, proyektor

**Motivasiya:** Müəllim ekranda "İnsan məskən salır" filmindən yenə də kadrlar göstərir. Şagirdlər kadrlara baxaraq qəhrəmanın hərəkətlərini izləyirlər. Müəllim sinfə sualla müraciət edir:

– Uşaqlar, "Dənizdə fırtına" mətninin I hissəsini oxumuşsunuz. Sizcə, filmdəki hadisə ilə mətndəki təbiət hadisəsi arasında hansı oxşarlıqlar var?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Nicat tapılacaqmı, gəmidəki insanı xilas edə biləcəkmi?

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərə mətni oxutdurur. "Sözlük"-də verilmiş çətin sözlərin mənası izah edilir və cümlələrdə işlədilir. Oxu prosesində şagirdlərin düzgün oxu bacarıqları izlənilir.

Şagirdlər qruplara bölünür. Müəllim qruplara 1,2-ci çalışmaları yerinə yetirməyi tapşırır. Şagirdlər adı çəkilən Nicatı xarakterizə edir və mətndəki fakt və hadisələri ümumiləşdirərək fikirlərini aydınlaşdırırlar. Sonra qruplar plan tərtib edərək müzakirə edir və variantları müəyyənləşdirməyə başlayırlar. Bu zaman 1.1.2 alt standartı reallaşdırılır.

3-cü çalışmanı yerinə yetirən zaman qrup üzvləri Nicatın hərəkətlərini dəyərləndirir və müxtəlif mövqeli fikirləri ümumiləşdirərək 2.1.3 alt standartını reallaşdırırlar.

Müəllim cütlərlə işləməyi düşünərək 4,5,7-ci çalışmaları cütlərə paylayır. Şagirdlər mətndəki Nicatdan başqa digər obrazları da müzakirə edirlər. Ananın etirazının səbəbini aydınlaşdırmağa çalışırlar. Mətndəki fikirlərə münasibət bildirərək 3.1.3 alt standartını reallaşdırırlar.

Şagirdlər seçdikləri nümunələrlə yazılarını zənginləşdirərək 4.1.2 alt

standartını reallaşdırır və 6-cı çalışmanı yerinə yetirirlər.

Qruplar 8,9-cu çalışmaları yerinə yetirərək söz birləşməsi və sadə cümləlari qrammatik normalara uyğun tələffüz edirlər və 2.1.1 alt standartını reallaşdırırlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətndəki Nicatın fədakarlığı ilə tanış olur və fikir mübadiləsi edirlər. Müzakirələr nəticəsində nəticə ümumiləşdirilir.

**Nəticə:** Hekayənin qəhrəmanı Nicat ilə tanışlıq şagirdlərin tədqiqat sualına cavab tapmalarına gətirib çıxarır.

Köməyə ehtiyacı olanlara yardım etmək hər kəsin müqəddəs borcu olmaqla yanaşı, bu xüsusiyyət nəsildən nəslə keçməli, belə bir xeyirxahlıq daim yaşamalıdır. Yardıma ehtiyacı olnanlara elə köməklik göstərmək lazımdır ki, onlar razı olsunlar. Onlarla mülayim danışmaq, mədəni rəftar etmək əsas şərtlərdəndir. Bu, bizim insanpərvər, humanist olmağımızı göstərir. Xeyirxahlıq və yardımsevərlik bizdən də digərlərinə ötürülməlidir.

**Yaradıcı tətbiqetmə:** Etdiyimiz xeyirxahlıq və ya kömək haqqında kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dərsə gecikən uşaqlar
## (I hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.2.; 1.3.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.2<br>2.1.3<br>2.1.4 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, səs assosiasiyası
**Resurslar:** Dərslik, proyektor, elektron lövhə

**Motivasiya:** Müəllim elektron lövhədə Qarabağ müharibəsinə həsr olunmuş kadrları göstərir. Kadrlarda dağıdılmış abidələr, qəbirlər təsvir olunmuşdur. Müəllim sinfə müraciət edir: "Bu kadrlar sizə necə təsir bağışladı?" Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Qarabağ müharibəsində insanlar öz doğma yurdlarından didərgin düşmüşlər. Kənd və şəhərimiz, abidələrimiz, məzarlıqlarımız dağıdılmışdır. Bu hadisələr sizə necə təsir edir?

**Tədqiqatın aparılması:** Tədqiqat "Dərsə gecikən uşaqlar" mətninin oxusu ilə başlanır. Oxu zamanı şagirdlər məntiqi vurğudan istifadə etməklə 2.1.2 alt standartını reallaşdırırlar. Onlar mətnin mövzusu ilə bağlı fikirlərini bölüşürlər. Çətin sözlərin mənasını izah edirlər. Lüğət üzrə iş aparılır: sözlər və ifadələr ayrı-ayrı cümlələrdə işlədilir. Nöqsanların aradan qaldırılması üzərində əməli iş aparılır. 2-ci çalışmanın icrası mətnin məzmununun mənimsədilməsinə kömək edir. Bu çalışma həmçinin diqqətin mətndəki əsas fakt və hadisələr üzərində cəmləşdirilməsinə imkan yaradır. Bu zaman 1.1.2 alt standart reallaşır. 3,6,7-ci çalışmalar qruplarla yerinə yetirilir. Bu zaman şagirdlər mətndəki fikirlərə münasibət bildirərək (3.1.3 alt standartı) məntiqi düşünmə bacarığını nümayiş etdirirlər.

Şagirdlərin mətni nə dərəcədə qavramalarını müəyyənləşdirmək məqsədilə qruplara 4-cü çalışmanın icrası tapşırılır. Qrup üzvləri kiçik təqdimatlar hazırlayaraq mətnə münasibətlərini bildirirlər və 2.1.3 alt standartı reallaşdırılır.

Şagirdlər məntiqi vurğunun yerində işlənməsindən (3.1.2 alt standart) istifadə edərək 5-ci çalışmanı yerinə yetirirlər.

Qrup üzvləri mətnin hissələri arasında əlaqələri gözləməklə mətnin məzmununu danışırlar (2.1.4 alt standartı).

9,10,11-ci çalışmaların icrası cütlərə tapşırılır və cütlər söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edərək (2.1.1 alt standartı) tapşırığı yerinə yetirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, məlumdur ki, nitq prosesində insanlar hər hansı bir iş və ya hadisə barədə məlumat verərkən, müəyyən bir məlumatı soruşub öyrənmək istərkən cümlələrdən istifadə edirlər. Cümlə insanlar arasında fikir mübadiləsinin əsas vasitəsidir. Cümlə ayrı-ayrı sözlərdən, bəzən də söz birləşmələrindən ibarət olub, bitmiş bir fikir bildirir. Məsələn: *Axşamdan yağan qar balaca kəndi ağ örtüyə bürümüşdü.*

Cümlə bir sözdən də ibarət ola bilər.

Məsələn: *Soyuqdur.*

Cümlə bitmiş fikir ifadə etdiyinə görə onun baş üzvlərindən ibarət qrammatik əsası olur. Məsələn: ***Bakı*** *gözəl* ***şəhərdir***.

**Məlumat mübadiləsi:** Mətnin məzmunu ilə tanışlıqdan və çalışmalar üzərində işlədikdən sonra şagirdlər Anar və Rəşadın başına gələnlərlə tanış olur və fikir mübadiləsi edirlər.

**Nəticə:** Mətnin məzmunu və yerinə yetirilmiş çalışmalar üzərində işin nəticəsində şagirdlər belə nəticəyə gəlirlər ki, Qarabağ savaşı bu torpaqların əzəli sakinləri olan vətəndaşlarımızın həyatında öz dəhşətli izlərini qoyduğu kimi, bu diyarın tarixi abidələrinə, məzarlıqlarına da ziyan vurmuşdur. Lakin balalarımız düşmən basqınlarının qarşısında böyüklərlə bərabər məğrur dayanmışlar.

**Yaradıcı tətbiqetmə:** Bu mülahizə mövzusunda inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvəllərə əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dərsə gecikən uşaqlar
## (II hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.2.; 1.3.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, səs assosiasiyası

**Resurslar:** Dərslik, proyektor, elektron lövhə

**Motivasiya:** Müəllim elektron lövhədə Qarabağ müharibəsinə həsr olunmuş sənədli filmləri nümayiş etdirir. Müəllim sinfə sualla müraciət edir: – Gördüyümüz bu kadrlar sizdə necə hisslər oyatdı?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Sizcə, Sergey müəllim uşaqları danlayacaqmı? Şagirdlər düzgün hərəkət etmişdilər?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki mətnin oxusu ilə başlanır. Şagirdlər məntiqi vurğudan istifadə edərək mətni oxuyurlar. Çətin sözlərin

mənası izah edilir. Lüğət üzrə iş aparılır: sözlər və ifadələr cümlələrdə işlədilir.

Şagirdlər qruplara bölünür. Qrup üzvləri 1.1.1 alt standartına əsasən mətndəki məntiqi ardıcıllığı müəyyənləşdirirlər və bununla 1-ci çalışma yerinə yetirilir, 2,3-cü çalışmaları yerinə yetirmək qruplara tapşırılır. Onlar müxtəlif fikirlər söyləyirlər və itirilmiş Qarabağ torpaqları haqqında öz mülahizələrini irəli sürürlər. Bu zaman 3.1.3 alt standartı reallaşdırılır.

Cütlərə 4-cü çalışmaya əsasən kiçik təqdimat yazmaq tapşırılır. Cütlər hazırladıqları təqdimatı oxuduqları mətndəki hadisələrlə uyğunlaşdırmalıdırlar. Təqdimat hazırlanır və təqdim edilir. Müəllim cütləri qiymətləndirir. Bu zaman 1.1.2 alt standart reallaşdırılır.

6-cı çalışmanın şərtinə əsasən şagirdlər mətnin məzmununu danışırlar.

Daha sonra 2.1.1 alt standartını reallaşdırmaq məqsədilə qruplar 7,8,9,10-cu çalışmaları icra edirlər.

**Məlumat mübadiləsi:** Mətnin məzmunu ilə tanışlıqdan və çalışmalar üzərində işlədikdən sonra şagirdlər Anar və Rəşadın təşəbbüsü, onların qoçaqlığı, qayğıkeşliyi, bu kiçikyaşlı uşaqların böyük əməlləri, böyük qəlbləri ilə tanış olub müzakirəyə qoşularaq fikir mübadiləsi yürüdürlər.

**Nəticə:** Bugünkü Anar və Rəşad kimi gənclər sabahın əsgərləridir. O əsgər ki, əlində silah Vətən torpağının keşiyini çəkəcək, onun hər qarışını göz bəbəyi kimi qoruyacaq. Ona görə də, sabahkı Vətən keşikçisi özündə məsuliyyət hissi tərbiyə etməli, bu borcunu ləyaqətlə yerinə yetirməyə hazır olmalıdır.

**Yaradıcı tətbiqetmə:** Çalışma 5 əsasında həyata keçirilir.

**Qiymətləndirmə:** Müvafiq cədvəllərə əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Tariximizi yazan qadın (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.1.; 3.1.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.1 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Müxtəlif əməli yazılar (arayış, protokol) yazır, fikirlərə münasibət bildirir. | 4.1.1<br>4.1.2<br>4.1.4 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab

**Resurslar:** Dərslik, dəftər, kompüter, proyektor

**Motivasiya:** Müəllim elektron lövhədə Azərbaycan qadınlarına həsr olunmuş sənədli filmi nümayiş etdirir. Sinfə sualla müraciət edir:

– "Aslanın erkəyi, dişisi olmaz" atalar sözünü bu filmdə gördüklərinizə aid etmək olarmı?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Azərbaycanın məşhur qadın şəxsiyyətlərindən kimi tanıyırsınız?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Tariximizi yazanlar" mətninin oxusu ilə başlanır. "Sözlük"dəki çətin sözlər üzərində iş aparılır və həmin sözlər cümlələrdə işlədilir.

Şagirdlər mətndəki fakt və hadisələri ümumiləşdirərək verilmiş sualları cavablandırırlar və fikirlərini əsaslandıraraq 1-ci çalışmanı yerinə yetirərək 1.1.2 alt standartını reallaşdırırlar. Müəllimin tapşırığı ilə şagirdlər mətndən Sara Aşurbəylini səciyyələndirən xüsusiyyətləri seçib yazırlar və 2-ci çalışmanı yazaraq, 2.1.3 alt standartını reallaşdırırlar.

Müəllim şagirdlərin cavabını dinlədikdən sonra 3-cü çalışmanı yerinə yetirməyi tapşırır. Bu zaman şagirdlərin lüğət ehtiyatının zənginliyi aşkarlanır və 4.1.2 alt standartını reallaşdıraraq yazılarını zənginləşdirirlər.

4, 5, 6, 7-ci çalışmaları müəllim kiçik qruplara tapşırır. Şagirdlər mətndəki fikirlərə münasibət bildirərək çalışmanı yerinə yetirir və bu zaman 3.1.3 alt standart reallaşdırılır.

Daha sonra 7, 9-cu çalışmalar yerinə yetirilir. Şagirdlərin söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz etmələri aydınlaşır və bununla 2.1.1 alt standartı reallaşdırılır.

### BUNLARI BİLİRSİNİZMİ?

Bir iş, hadisə, əlamət haqqında məlumat verən cümlələr *nəqli cümlələrdir*. Bu cümlələr adi intonasiya ilə deyilir.
Məsələn: *Hər ilin may ayında Gül bayramı keçirilir.*
Belə cümlələrin sonunda nöqtə qoyulur.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnlə tanış olduqdan sonra Azərbaycan qadınının Vətənə olan məhəbbətinin müxtəlif yollarla təzahür etməsi ilə tanış olur və fikir mübadiləsi yürüdürlər.

**Nəticə:** Şagirdlər mətni oxuyub belə nəticəyə gəlirlər ki, insan Vətənə

sevgisini bildirmək üçün dayanıb hər hansı bir məqamı gözləməməlidir. Hər bir an, hər bir məqamda bu sevgi təzahür edə bilər. Təki istək olsun. Sara Aşurbəyli kimi. Ona zaman çatmadı. Çünki öz qarşısında elə işləri görmək məqsədilə qoymuşdur ki, onları etməyə, əlbəttə ki, bir ömür bəs etməzdi.

**Yaradıcı tətbiqetmə:** Mətnin məzmununa uyğun atalar sözü tapıb yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq

## Ağabəyim ağa
## (I, II hissələr – 2 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 2.2.1.; 1.2.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1 2.1.3 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş

**Dərsin üsulu:** Əqli-hücum, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, proyektor, dəftər, kompüter

**Motivasiya:** Müəllim proyektor vasitəsilə məşhur Azərbaycan qadınlarının şəkillərini nümayiş etdirir. Sonra sinfə sualla müraciət edir: "Bu şəkillərdən siz kimi tanıdınız?" Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Azərbaycan qadınları haqqında nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim şagirdlərə "Ağabəyim ağa" mətnini oxutdurur. Şagirdlər "Sözlük"də və "Söz ehtiyatı"ndakı çətin sözlərin mənasını aydınlaşdırır və cümlələrdə işlədirlər. Mətnin məzmununu aydınlaşdırmaq, əsas ideyasını təhlil etmək məqsədilə çalışmalar üzərində iş başlanır. Əvvəlcə müəllimin tapşırığı ilə şagirdlər 1-ci çalışmada mətndəki ağ boşluqda sözləri seçərək yerləşdirirlər və bu zaman 2.1.3 alt standartını reallaşdırırlar. Daha sonra 3.1.3 alt standartını reallaşdırmaq

məqsədilə şagirdlər suallara cavab verirlər.

Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edərək 4-cü çalışmanı yerinə yetirirlər. 3.1.2 alt standart reallaşır. Şagirdlər cütlərlə işləyərək, 5,6,7-ci çalışmaları yerinə yetirirlər. Bu çalışmalar şagirdlərə müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim etməkdə (2.1.3 alt standart) kömək edir.

Sonra söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz etmək məqsədilə 2.1.1 alt standart reallaşaraq 7, 8, 9-cu çalışmalar yerinə yetirilir.

Müəllim şagirdlərin cavablarını qiymətləndirir.

"Ağabəyim ağa" mətninin ikinci hissəsində isə mətni daha yaxşı mənimsəmələri, mətnin ideyasını aydınlaşdırmaq məqsədilə şagirdlər böyük qrupla işləyərək suallara cavab verir (çalışma 1-də): Mətnin hissələri arasında əlaqələri gözləməklə (2.1.4 alt standart) 2-ci çalışma yerinə yetirilir.

Mətnin "Vətən həsrəti" adlandırılması məqsədəuyğundurmu? sualına cavab olaraq 3-cü çalışma yerinə yetirilir ki, bu da 1.1.2 alt standartını reallaşdırmaq üçün daha doğru olardı.

4-cü çalışma isə cümlənin mətndə doğru yerləşdirilməsinin aydınlaşdırılmasına xidmət edir.

6,7,8,9-cu çalışmalar isə söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz etməyə (2.1.1 alt standart) xidmət edir.

### *BUNLARI BİLİRSİNİZMİ?*

Bəzi cümlələr sual məqsədilə – yeni məlumat almaq, ya da məlumatı dəqiqləşdirmək üçün işlədilir. Belə cümlələr *sual* cümlələridir. Onların sonunda sual işarəsi qoyulur.

Məsələn: – *Dərsə niyə bu qədər gecikmisiniz?*

Sual cümlələrini yaratmaq üçün sual əvəzliklərinin (*Kitabxana **harada** yerləşir?*), sual ədatlarının (***Bəs** indi getməyə yeriniz yoxdur?*), bəzən də yalnız intonasiyanın (*Nizaminin "Xəmsə"sini oxumusunuz?*) köməyindən istifadə edilir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Ağabəyim ağanı istedadlı vətən qızı, şairə hesab etmək olarmı?" fikrini müzakirə edib, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər Ağabəyim ağa haqqında oxuduqlarından belə nəticəyə gəlirlər ki, Vətəni sevmək, onun vətəndaşı olmaq üçün təkcə orada yaşamaq azdır. Vətənin hər daşı, hər çiçəyi insan üçün əziz olmalıdır.

**Yaradıcı tətbiqetmə:** Ağabəyim ağa haqqında əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## İstedadlı şairə, xeyriyyəçi qadın (1 saat)
## Xurşidbanu Natəvan (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 2.2.1.; 1.2.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.2<br>2.1.3<br>2.1.4 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir.<br>Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.2<br>4.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat
**Resurslar:** Dərslik, proyektor, kompyüter, dəftər

**Motivasiya:** Müəllim proyektor vasitəsilə İ.Əfəndiyevin “Xurşidbanu Natəvan” pyesindən hissələri şagirdlərə nümayiş etdirir. Müəllim sinfə sualla müraciət edir: “Xurşidbanu Natəvan haqqında nə bilirsiniz?”

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Xurşidbanu Natəvanı xeyriyyəçi adlandırmaq olarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki mətnin oxusu ilə başlanır. Müəllim şagirdlərə mətni oxutdurur. “Sözlük”dəki çətin sözlər izah edilir, sonra cümlələrdə işlədilir. Çalışmalarla iş başlanır.

1-ci çalışmanı yerinə yetirməklə şagirdlər məntiqi ardıcıllığı müəyyənləşdirirlər (1.1.1 alt standartı).

2, 6-cı çalışmalar isə müxtəlif mövqeli fikirləri ümumiləşdirmək üçün yaxşıdır (2.1.3 alt standartı).

3, 5, 11-ci çalışmaları müəllim kiçik qruplara tapşırır və qrup üzvləri mətndəki fikirlərə münasibət bildirərək 3.1.3 alt standartını reallaşdırırlar.

4, 10-cu çalışmalar böyük qrupla yerinə yetirilir. Bu zaman 2.1.4 alt standart reallaşdırılır.

12, 13-cü çalışmalar isə söz birləşməsi və sadə cümlələrin qrammatik

normalara uyğun tələffüz edilməsinə xidmət edir. Müəllim şagirdlərin işini qiymətləndirə bilər.

Mətnin 2-ci hissəsində isə şagirdlər mətn üzrə daha geniş məlumat əldə etmək üçün müxtəlif tipli çalışmaları yerinə yetirirlər.

15, 18-ci çalışmalar müxtəlif mövqeli fikirləri ümumiləşdirməyə xidmət edir ki, bu zaman 2.1.3 alt standartı reallaşır.

16, 19, 20, 21, 22-ci çalışmalar mətndəki fikirlərə münasibət bildirmək üçündür. Bu zaman 3.1.3 alt standart reallaşdırılır. Müəllim şagirdləri istiqamətləndirir. Onlarda tərcümə etmək, lüğət ehtiyatını zənginləşdirmək kimi bacarıqların inkişafına kömək edir.

**BUNLARI BİLİRSİNİZMİ?**

Elə cümlələr də var ki, məsləhət, nəsihət, tələb, təkid və s. ifadə edir. Belə cümlələr *əmr* cümlələridir. Onların xəbəri adətən, feilin əmr şəkli ilə ifadə olunur. Belə cümlələrin sonunda nöqtə işarəsi qoyulur.

Məsələn: *Yubanma, ardımca tez gəl.*

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətndə və çalışmalardakı faktlar üzərində fikir mübadiləsi aparır, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər əldə etdikləri faktlar əsasında Natəvanın xeyriyyəçilik fəaliyyəti ilə tanış olur, onun “Xan qızı” adlandırılması səbəbini anlayırlar. Biz fəxr edirik ki, tariximizdə Natəvan kimi öz fəaliyyəti, əməlləri ilə iz qoymuş xeyriyyəçilərimiz olub. Onların həyat yolu əsl nümunədir. Belə insanlar milyonlara sahib olsalar da, yalnız özünü düşünməmiş, xalqı, milləti üçün faydalı işlər görmüş, ona yararlı olmağa çalışmışlar.

**Yaradıcı tətbiqetmə:** Natəvanın həyatı ilə bağlı təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Atəşgah Aleksandr Dümanın gözü ilə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.1.; 1.3.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.1<br>2.1.2 | |
| 3 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1<br>4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, dəftər, proyektor, kompyüter

**Motivasiya:** Müəllim proyektoru işə salır. Bakı ətafındakı Suraxanı kəndində yerləşən Atəşgahın görüntüləri nümayiş etdirilir:

– Burada gördüyünüz yerlər sizə tanışdırmı?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** Atəşgah haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işləməklə aparılır. Müəllim "Atəşgah Aleksandr Dümanın gözü ilə" mətnini şagirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir, bəzi sözlər cümlələrdə işlədilir. Bu 2.1.2 alt standartının reallaşdırılması üçündür. Çalışma 1-in şərtinə əsasən mətnin məzmununun mənimsədilməsi üzərində iş başlanır. Bu məqsədlə müəllim şagirdləri 4 qrupa bölür. 4.1.1 alt standartının reallaşdırılması üçün sagirdlərə 4-cü çalışmanın icrası tapşırılır.

I qrup – Atəşgaha gedən yol

II qrup – Küləklə alovun oyunu

III qrup – Günbəzli həyət

IV qrup – Qonaqpərvərlik – mövzularında mətnin məzmununa dair təqdimatlar hazırlanır.

Qruplar üçün müəyyən vaxt təyin edilir. Vaxt bitdikdə qrupların işləri yoxlanılır, fəaliyyətləri qiymətləndirilir. Müəllim sonra böyük qrupla işə keçir.

1.1.1 alt standartının həyata keçirilməsi, şagirdlərin dinlədikləri mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirilməsi üçün çalışma 3, 6, 7 icra edilir.

Şagirdlərə 1.1.2 alt standartının həyata keçirilməsi, şagirdlərin mətndəki fakt və hadisələri ümumilləşdirilmələri üçün "Köməkçi"dən istifadə etməklə çalışma 2-nin icrası tapşırılır.

Mətndə işlənmiş söz birləşmələri və sadə cümlələri qrammatik normalara uyğun tələffüz etməklə 2.1.1 alt standartının reallaşdırılması üzərində iş aparılır. Bu zaman 8, 9-cu çalışmalar seçilir. Şagirdlər nida cümlələri qurmağı öyrənirlər. Mətni tərcümə edərək cümlələri növlərinə görə müəyyənləşdirirlər.

Şagirdlərlə 4.1.2 alt standartını reallaşdırmaq məqsədilə 5-ci çalışma üzərində iş aparılır. Beləliklə, şagirdlər seçdikləri nümunələrlə yazılarını zənginləşdirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Yüksək hiss və həyəcanla tələffüz edilən cümlələr nida cümlələridir. Məsələn: *Eşq olsun Azərbaycan əsgərinə!*

Nida cümlələrini yaratmaq üçün, sadəcə, intonasiyadan, bəzən də nidalardan istifadə olunur.

Məsələn: *Gözəl torpaq, sənə çox borcluyam, çox!*
*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı dünyadan neçə əl çəkim?!*

Nida cümlələrinin sonunda nida işarəsi qoyulur.

**Məlumat mübadiləsi:** Şagirdlər Atəşgah haqqında bildiklərini Dümanın təsvir etdikləri ilə müqayisə edib müzakirəyə qoşulurlar.

**Nəticə:** Şagirdlər mətni oxuyub belə bir nəticəyə gəlirlər ki, həqiqətən də, Azərbaycan çox qədim tarixə, zəngin mədəniyyətə malik bir ölkədir, tarixi abidələr diyarıdır. Keçmiş sirləri ilə dolu bir dünyanı özündə gizlədən tarixi yerlərdən biri də Atəşgahdır. Hələ XIX əsrdə Qafqaza səyahət edən fransız yazıçısı da belə bir ocaqdan heyrətlə bəhs etmişdir. Azərbaycanı Odlar yurdu kimi tanıdan bu tarixi məkan indi Dövlət qoruğudur. Dövlət tərəfindən muzey kimi qorunur, mühafizə edilir.

Əgər sinif şagirdləri Atəşgahda muzeydə olmayıblarsa, mütləq oraya ziyarəti təşkil etmək lazımdır.

**Yaradıcı tətbiqetmə:** Atəşgah haqqında əlavə məlumat toplayıb dəftərdə yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Azərbaycan torpağı (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.2<br>2.1.4 | Az.t. – 3.1.1.; 1.2.2.<br>Coğ. – 3.2.1.<br>Əd. – 1.1.1.; 2.1.1. |
| 2 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |
| 3 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, səs assosiasiyası, müzakirə.

**Resurslar:** Dərslik, proyektor, kompyüter, dəftər.

**Motivasiya:** Müəllim elektron lövhədə Azərbaycanın görməli yerlərini əks etdirən videoçarxı işıqlandırır.

–Vətənimizin təbiəti, görməli yerləri barədə öz fikirlərinizi söyləyə bilərsinizmi?

Şagirdlər fikirlərini söyləyirlər.

**Tədqiqat sualı:** – Bu gözəllikləri şairin ifasında eşitmək istərdinizmi?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Azərbaycan torpağı" şeirinin oxusu ilə başlanır. Şeirin hər bəndi şagirdlərə oxutdurulur. Şeirin oxusu prosesində məzmun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Şeirin məzmunu üzrə işin ardınca sözlərin düzgün vurğu ilə oxunması üzərində işə yer verilir. 2.1.2 alt standartının reallaşdırılması üçün 1-ci çalışmaya müraciət edilir. Şagirdlər məntiqi vurğudan düzgün istifadə etməklə şeirdəki sözləri tələffüz edirlər.

2.1.4 alt standartının reallaşdırılması üçün çalışma 2 seçilir. Şagirdlər öz sözlərilə şeirin məzmununu genişləndirib danışır, bu mövzu ətrafında düşündüklərini deyirlər.

3.1.1 alt standartını reallaşdırmaq üçün çalışma 5,8,9 seçilmişdir. Şagirdlər şeirin məzmununa dair suallar tərtib edir, şeirin bəndlərini nəsrə çevirib danışır, kiçik esse yazır, yazıdakı cümlə üzvlərinin sintaktik vəzifələrini müəyyənləşdirirlər.

4.1.2 alt standartı şagirdlərin yazı vərdişlərini inkişaf etdirmək üçündür. Bu zaman şagirdlər seçdikləri sözü variantları ilə əvəz edərək yazılarını zənginləşdirirlər. Şagirdlər cümlə üzvləri barədə ilkin elmi məlumatla tanış olurlar ki, bu da onların cümlə qurmaq qabiliyyətlərini inkişaf etdirmək üçündür.

### BUNLARI BİLİRSİNİZMİ?

Cümlədə müstəqil leksik mənaya malik, bir-birilə həm məna, həm də qrammatik cəhətdən bağlı olan sözlər cümlə üzvləri adlanır. Cümlədəki hər sözü cümlə üzvü hesab etmək olmaz.

Məsələn: – *Uşaqlar, deyəsən, qatar yaxınlaşır* – cümləsində *uşaqlar* və *deyəsən* sözləri mənaca cümlə üzvləri ilə bağlı olsalar da, qrammatik cəhətdən əlaqədar deyildirlər. Yəni, həmin sözləri cümlədən çıxarsaq da, fikir bitkinliyi pozulmayacaqdır.

Cümlə üzvləri nitq hissələri, bəzən də söz birləşmələri ilə ifadə olunur.

Məsələn: Məktəbimiz *kəndin kənarında* yerləşir – cümləsində kəndin kənarında söz birləşməsi bir cümlə üzvüdür.

**Məlumat mübadiləsi:** Şagirdlər Azərbaycan torpağının gözəllikləri barədə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Azərbaycanın təbiəti zəngindir. Onun əlverişli təbii-coğrafi mühiti, bərəkətli torpaqları, səfalı yerləri çoxdur. Azərbaycan, Odlar diyarı, gözəlliklər yurdudur. Bu barədə şair və yazıçılarımız çoxlu əsərlər yazmışlar. Vətən sevgisi bizim hamımızı birləşdirən bir duyğudur. İstər şair, istər yazıçı, istərsə alim, istərsə də ən adi bir vətəndaş olsan da Vətən gözəllikləri səni şair kimi danışdıracaq. Hamımız çalışmalıyıq ki, Vətənimizin – Azərbaycan torpağının hər bir qarışını göz bəbəyimiz kimi qoruyaq!

**Yaradıcı tətbiqetmə:** Çalışma 4 üzərində aparılır.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Çalışma 7 üzərində işləmək.

## Ərik ağacı
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 1.2.4. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli-hücum, debat, müzakirə

**Resurslar:** Dərslik, proyektor, kompüter, dəftər.

**Motivasiya:** Müəllim elektron lövhədə "Azərbaycanda bağçılığın inkişafı film-xronikadan" fraqmentləri işıqlandırır (internetin köməyilə).

– Sizcə, bağlarımızın belə səviyyədə görünməsi üçün hansı işlər görülür?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** – Əgər hər kəs həyatında bir ağac əkib bağa baxarsa, təbiətimizə necə təsir göstərmiş olar?

**Tədqiqatın aparılması:** Bu tədqiqat sualı ətrafında düşünmək üçün müəllim şagirdlərlə birlikdə dərslikdəki "Ərik ağacı" mətninə müraciət edir. Mətn oxunur. Nitqdə məntiqi vurğudan düzgün istifadə etməklə (2.1.2 alt standartı) əsas fikir müəyyənləşir. Oxu prosesində çətin söz və ifadələrin mənası izah edilir. 3.1.3 alt standartının tələbilə, çalışma 9, 10 icra edilir. Bu zaman şagirdlərin söz ehtiyatını zənginləşdirmək məqsədilə mətn daxilindəki söz və ifadələrin yerinə başqaları qoyulur, şagirdlər buna öz münasibətlərini bildirirlər.

Sonra mətnin məzmununun mənimsədilməsi üzərində iş aparılır. Bu məqsədlə 3.1.3 alt standartına görə çalışma 7 icra edilir. 1.1.2 alt standartına görə çalışma 3-də verilmiş şərt yerinə yetirilir. Şagirdlər mətni oxuyub anladıqlarını nümayiş etdirirlər.

2.1.3 alt standartına görə 4-cü çalışmadakı atalar sözlərinin mətnə uyğunluğu aydınlaşdırılır. Müxtəlif mövqeli fikirlər ümumiləşdirilir. Çalışma 5 3.1.3 alt standartının daha dəqiq reallaşdırılması üçün daha məqsədəuyğundur. Şagirdlər çalışmada təqdim edilmiş fikir ətrafında debata qoşulurlar.

2.1.1 alt standartının reallaşdırılması üçün çalışma 12 seçilir ki, bu da sözlərin qrammatik formalarının müəyyənləşdirilməsi üçündür. Şagirdlərin sözlərin və ifadələrin sintaktik vəzifələrini müəyyənləşdirilmələri üçün (3.1.1 alt standart) çalışma 13, rabitəli yazı vərdişlərinə yiyələnmələrini nümayiş etdirmələri üçün çalışma 14 seçilir (4.1.2 alt standartı).

## BUNLARI BİLİRSİNİZMİ?

Cümlə üzvləri 2 yerə bölünür. Baş üzvlər və ikinci dərəcəli üzvlər. Bu bölgü onların cümlənin təşkilindəki roluna görədir. Baş üzvlər cümlənin qrammatik əsasını təşkil edir. Onlar aşağıdakılardır:

1. Mübtəda
2. Xəbər

Mübtəda cümlədəki hərəkətin və ya əlamətin aid edildiyi şəxsi, əşyanı bildirir. Kim?, nə?, bəzən də hara? suallarından birinə cavab verir, ismin adlıq halında olan söz və ya söz birləşmələrilə ifadə olunur.

Məsələn: 1. ***Təbriz*** *Şərqin böyük şəhərlərindən biridir.*

2. ***Təbriz sənətkarlarının şöhrəti*** *dünyaya yayılmışdı.*

Mübtəda cümlənin ən müstəqil üzvüdür. Qrammatik cəhətdən heç bir üzvdən asılı deyil.

Ən çox isim və əvəzliklərlə ifadə olunur. Sifət, say, işarə əvəzlikləri, feili sifətlər də isimləşərək mübtəda vəzifəsində iştirak edə bilərlər.

Məsələn: ***Körpə*** (sifət) yuxuda gülümsəyirdi.

**Məlumat mübadiləsi:** Çalışma 6-da qoyulmuş sual əsasında müzakirə təşkil edilir. Şagirdlər mətnin məzmunundan öyrəndikləri, əvvəlcədən bildikləri əsasında məlumat mübadiləsinə qoşulurlar.

**Nəticə:** Ağacların faydasını saymaqla bitməz. Onlar havanı təmizləyir, oksigenlə zənginləşdirirlər. Əgər yaşadığımız evlərin 4 tərəfində ağaclar olsa, bizim üçün enerji mənbəyi yaranar. Qədim türklərin belə bir məsəli var: "Meşəsi bol olan kəndin qəbiristanlığı kiçik olar". Axı ağacların çoxluğu uzunömürlülüyün nişanıdır. Meşə zolaqlarının Yer kürəsinin "yaşıl ciyəri" adlandırılması əbəs deyil. Ağaclar həmişə insanların qoruyucusu, keşikçisi olublar. Onları kəsmək, məhv etmək cinayətdir.

Ağac kəsmək, bağ salmaq həmişə xeyirxahlıq sayılıb. Məhəmməd Peyğəmbər (s.ə.s) deyirdi: "Qiyamət qopsa da, bir ağac əkməyə vaxt varsa, dərhal ək!"

**Yaradıcı tətbiqetmə:** Ağacların faydası barədə biologiya fənnindən bildikləriniz barədə yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Novruz beynəlxalq bayramdır
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 2.2.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.2<br>2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qrupla iş
**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab
**Resurslar:** Dərslik, dəftər, kompyüter, proyektor
**Motivasiya:** Müəllim elektron lövhədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə Novruz bayramı

münasibətilə şəhərdə keçirilən Novruz şənliyində iştirakı təsvir olunmuş kadrları canlandırır. Monitorda müxtəlif Novruz adətlərini əks etdirən görüntülər işıqlandırılır.

– Novruz bayramının xalqımız üçün necə önəmli olması faktları barədə nə deyə bilərsiniz?

Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** Bəs Novruz bayramının keçirilməsinin mahiyyəti, onun daha hansı ölkələrdə keçirilməsi barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Novruz beynəlxalq bayramdır" mətninin oxusu ilə başlanır. Şagirdlər məntiqi vurğunu gözləməklə mətni oxuyur (2.1.2 alt standartı), suallara cavab verirlər(1.1.2 alt standartı). Suallar 3-cü çalışmada verilmişdir. Məzmunu mənimsətmək məqsədilə 1.1.2; 2.1.3; 3.1.3 alt standartlarının reallaşdırılması üzərində iş – 4, 5, 8, 9-cu çalışmaların icrası ilə həyata keçirilir. Sonra müəllim şagirdləri qruplara bölür: 2.1.3 alt standartı – 2-ci çalışmanın tələbilə şagirdlər dərslikdəki məlumatlara və internetə əsaslanaraq Novruz adətləri barədə bildiklərini təqdimat şəklində yazıb müdafiə edirlər. Hər qrup seçdikləri – bir ölkənin təmsilçisi kimi çıxış edə bilər. Qrupların fəaliyyətləri qiymətləndirilir.

4.1.2 alt standartını reallaşdırmaq məqsədilə 7-ci çalışma üzərində iş aparılır, atalar sözləri tapılıb, müəyyənləşdirilir. 6-cı çalışmada isə şagirdlər səhv tərtib edilmiş cümlələri düzəltməklə Novruz çərşənbələri barədə əlavə məlumat almış olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər Novruzun Beynəlxalq bayram olduğunu faktlara əsasən müzakirə edirlər.

**Nəticə:** Novruz hər birimizin qəlbinin bayramıdır. O ən doğma, ən milli bayramdır. Türkdilli, Şərq xalqları arasında birlik, mehribanlıq yaradan bayramdır. Hər bir xalq öz milli bayramının dəyərini, qiymətini bilib, onu qorumalı, gələcək nəsillərə ötürməlidir. Bu bayram xalqımızın mənəvi irsidir. 2009-cu ildə Novruz YUNESKO-nun qeyri-maddi-mədəni irs siyahısına daxil edilmişdir. Onu dünyanın bir çox ölkələrində də bayram edirlər.

**Yaradıcı tətbiqetmə:** Novruzun beynəlxalq bayram olması barədə əlavə məlumatlar tapmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

# Oğul qazancı (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.2.2.<br>Əd. – 2.2.1. |
| 2 | Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir.<br>Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qrupla iş
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab
**Resurslar:** Dərslik, elektron lövhə, kompyüter
**Motivasiya:** Müəllim Ə.Kərimin "Qaytar ana borcunu" şeirini oxuyur.
– Siz oğlanın hərəkətini necə qiymətləndirirsiniz?
Cavablar dinlənilir.
**Tədqiqat sualı:** Sizcə, anaların borcunu qaytarmaq mümkündürmü?
**Tədqiqatın aparılması:** Tədqiqatı dərslikdəki "Oğul qazancı" mətninin oxusu ilə başlamaq olar. Şagirdlər mətni rollar üzrə də oxuya bilərlər. Çünki mətndə dialoqlar kifayət qədərdir.

Mətndəki çətin söz və ifadələrin mənası izah edilir."Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası üzərində iş aparılır. Sonra mətnin məzmununun mənimsədilməsi üzrə işə keçilir. Bu zaman aşağıdakı alt standartlar seçilir:

1.1.1. alt standartının reallaşdırılması üçün çalışma 1,7;
1.1.2. alt standartının reallaşdırılması üçün çalışma 2;
2.1.3. alt standartının reallaşdırılması üçün çalışma 4;
3.1.3. alt standartının reallaşdırılması üçün çalışma 8,9;
4.1.2. alt standartının reallaşdırılması üçün 5,6,10-cu çalışmaların icrası nəzərdə tutulmuşdur.

Bu çalışmaları yerinə yetirən böyük qrup dinlədikləri mətndə fakt və hadisələri ümumiləşdirir, mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir, fikirlərə münasibət bildirərək, müxtəlif mövqeli fikirləri ümumiləşdirirlər.

Rabitəli yazı vərdişlərinə yiyələndiklərini nümayiş etdirərək seçdikləri nümunələrlə yazılarını zənginləşdirirlər.

### BUNLARI BİLİRSİNİZMİ?

Xəbər cümlənin baş üzvlərindən biri olub, haqqında danışılanın hərəkət və ya əlamətini bildirir.

Məsələn: *Gülbəsləyən qız gülləri sulayanda mən də ləkləri gəzir, gül dərirdim* – cümləsində xəbər (*gəzir, dərirdim*) mübtəda ilə ifadə olunan əşyanın hərəkətini bildirir.

Kamal qoçaq oğlandır – cümləsində isə xəbər (*oğlandır*) mübtədanın ifadə etdiyi xəbəri, əşyanın daşıdığı əlaməti bildirir.

Xəbər nə edir? (feilin bütün şəkil və zamanlarında), kimdir? nədir? neçədir? haradadır? necədir? və s. suallarından birinə cavab verir.

**Məlumat mübadiləsi:** Çalışma 3-də verilmiş fikir ətrafında mübadilə aparılır.

**Nəticə:** Analara hörmət etmək, onlara diqqət, qayğı göstərmək borcumuzdur. Ana təmənnasız olaraq, öz sevgisini, öz məhəbbətini, qayğısını övladlarına verir. Övladın xoşbəxtliyi ananın səadətidir. Hər kəs çalışmalıdır ki, yeri gəldikcə öz anasına sevinc bəxş etsin. Yaşınızın artmağına baxmayaraq, siz həmişə ananız üçün körpəsiniz, sizin hər bir uğurunuz ananı sevindirir. Çalışın ki, bu sevinci ananızdan əsirgəməyəsiniz.

**Yaradıcı tətbiqetmə:** "Analara qayğı bizim mənəvi borcumuzdur" mövzusunda esse yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Hekayənin mətnini öyrənmək.

## Gülbəsləyən qız
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.3.<br>Əd. – 2.2.1. |
| 2 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 3 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.2<br>4.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Əqli hücum, müzakirə, sual-cavab
**Resurslar:** Dərslik, dəftər, kompyüter, proyektor

**Motivasiya:** Müəllim elektron lövhədə hər ilin may ayında keçirilən "Gül bayramı"nın görüntülərini canlandırır:

– Gül bayramında iştirak etmək xoşunuza gəlirmi?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Sizcə, bu qədər gözəllik yaradan çiçəkləri, gülləri yetişdirmək asandırmı? Siz bu gözəlliyi bizim üçün bəsləyən insanlardan biri ilə tanışsınızmı?

**Tədqiqatın aparılması:** Tədqiqata dərslikdəki "Gülbəsləyən qız" mətninin oxusu ilə başlamaq olar. Dərslikdəki mətn oxunur, çətin söz və ifadələrin mənası şagirdlərə izah edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər üzərində iş aparılır. Sonra mətnin məzmunu üzərində işə keçilir. Şagirdlər dinlədikləri mətndəki fikirlərin ardıcıllığını müəyyənləşdirmək və 1.1.1 alt standartını reallaşdırmaq üçün 3-cü çalışmaya müraciət edirlər.

1.1.2 alt standartını reallaşdırmaq üçün 2-ci çalışmanı icra etmək məqsədilə şagirdlər qruplara bölünürlər. Hekayənin məzmunu ilə bağlı suallar tərtib edirlər. Qruplara təyin edilmiş vaxt bitdikdən sonra fəaliyyətləri qiymətləndirilir.

Həmin standart üzrə 3-cü çalışmanın da icrası məsləhət görülür.

3.1.1 alt standartının reallaşdırılması üçün 6,7,8-ci çalışmalar seçilir. Bu çalışmaların icrası cümlədəki sözlərin sintaktik vəzifələrinin dəqiqləşdirilməsi üçündür. Şagirdlərin rabitəli yazı vərdişlərini inkişaf etdirmək məqsədilə 4.1.2 alt standartının reallaşdırılması nəzərdə tutulmuşdur ki, bu zaman 5-ci çalışmaya müraciət edilir.

Şagirdlər qrammatik anlayışlarla tanış olur, aşağı sinifdən öyrəndikləri ilə əlaqələndirirlər.

### BUNLARI BİLİRSİNİZMİ?

Suallarından göründüyü kimi xəbərin ifadə vasitələri müxtəlif ola bilər. Əgər xəbər zamana və şəxsə görə dəyişən feillərlə, frazeoloji birləşmələrlə ifadə olunursa, feili xəbər adlanır.

Məsələn: *Ağabəyim ağa ömrünün sonunadək Fətəli şahın Qum şəhərindəki sarayında **yaşadı**.* – cümləsində xəbər feili xəbərdir.

*Bu, Azərbaycan hərb tarixində ilk və yeganə hərbi memuardır* – cümləsindəki xəbər isə ismi xəbərdir. Çünki isimlə ifadə olunmuşdur.

İsim, sifət, say, əvəzlik və ya zərflə, ismi birləşmələrlə, var, yox, lazım, gərək, mümkün, bəs sözləri ilə ifadə olunan xəbərlər ismi xəbər adlanır.

Məsələn: *Anasından məktub aldığı üçün sevinci **hədsizdir**.*

**Məlumat mübadiləsi:** Şagirdlər "Gülbəsləyən qız" mətninin oxusu üzərində əməksevərlik, zəhmət kimi yüksək insani keyfiyyətlər barədə fikir yürüdürlər, mübadilə aparırlar.

**Nəticə:** Zəhmətsiz yaşamaq olmaz. Hər kəs çəkdiyi zəhmətin bəhrəsini görür. Hər dövrdə zəhmət adamlarına, əmək qəhrəmanlarına xüsusi hörmət olmuşdur. Hələ dahi Nizaminin "Kərpickəsən kişinin dastanı" hekayəsində əmək adamının ən ali hörmətə layiq olduğu qeyd edilmişdir. İndi də öz halal zəhməti sayəsində yaşayan, ucalan insanlar çoxdur. Cəmiyyətimizdə belə şəxslərə həmişə xüsusi diqqət və qayğı ilə yanaşırlar. Biz də çalışmalıyıq ki, heç kəsin əziyyətinə biganə qalmayaq. Ən sadə peşə adamının çəkdiyi zəhmət belə təqdirəlayiqdir.

**Yaradıcı tətbiqetmə:** "Onunçün öyrətdim ki, əlimi bu sənətə
Bir gün sənə əl açıb düşməyim xəcalətə"
– aforizminə aid kiçik bir esse yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Hekayənin məzmununu öyrənmək.

## Mükafat
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.2.<br>Əd. – 2.2.1. |
| 2 | Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.2<br>3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, sual-cavab
**Resurslar:** Dərslik, proyektor, kompüter, dəftər, elektron lövhə
**Motivasiya:** Müəllim elektron lövhədə at yarışlarının görüntülərini canlandırır.

– Bu atların yarışda qalib çıxması hansı səbəblərlə bağlıdır? Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** Atların bəslənməsində insanların rolu böyükdür. Amma insan nə işlə məşğul olursa-olsun, öz insanlığını qoruyub saxlamalı, yalnız şan-şöhrət üçün deyil, insanlığın naminə gözəl işlər görməlidir. Siz necə düşünürsünüz?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq üçün şagirdlər dərslikdəki "Mükafat" hekayəsini oxuyurlar. Oxuyarkən çətin söz və ifadələrin mənaları izah edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər, ifadələr üzərində iş aparılır. Sonra mətnin məzmunu üzrə işə keçilir.

1.1.2 alt standartının reallaşdırılması üçün 2-ci çalışma üzrə iş aparılır. Bu zaman şagirdlər mətndəki fakt və hadisələri ümumiləşdirməklə suallara cavab verirlər.

2.1.4 alt standartının tələbilə mətnin hissələri arasında əlaqələri gözləməklə 5-ci çalışmanı icra edirlər.

3.1.1 alt standartının seçilməsi 7,8,10-cu çalışmaların icrası – cümlə üzvlərinin sintaktik vəzifələrini müəyyənləşdirmək üçündür.

3.1.2 alt standartı üzrə çalışma 1,9-da olduğu kimi şagirdlər düzgün oxu qaydalarına riayət edən yoldaşlarını qiymətləndirirlər.

4.1.2 alt standartının reallaşdırılması 2,6-cı çalışmaların icrası, şagirdlərin seçdiyi nümunələrlə yazılarını zənginləşdirmələri üçündür.

## BUNLARI BİLİRSİNİZMİ?

Cümlədəki mübtəda hansı şəxsdə olarsa, xəbər də həmin şəxsdə olmalıdır.

Məsələn: ***Biz işğal olunmuş torpaqlarımızı geri qaytarmalıyıq*** – cümləsində həm mübtəda, həm də xəbər 1-ci şəxsin cəmindədir.

Xəbər mübtəda ilə kəmiyyətcə də uyğun gəlməlidir, yəni mübtəda tək olduqda xəbər də tək, cəm olduqda xəbər də cəm olur.

| Məsələn: | ***Mən danışıram.*** | ***Biz danışırıq.*** |
|---|---|---|
| | ***Sən danışırsan.*** | ***Siz danışırsınız.*** |
| | ***O danışır.*** | ***Onlar danışırlar.*** |

Mübtəda cansız varlıqları bildirən sözlərlə ifadə olunduqda xəbər kəmiyyətcə ona uyğun olmaya da bilər.

Məsələn: ***Şəhərimizdə yeni evlər tikilir*** – cümləsində mübtəda cəmdə, xəbər isə təkdə işlənmişdir.

**Məlumat mübadiləsi:** Şagirdlər hekayədəki Kamalın hərəkətini müzakirə edib, məlumat mübadiləsi aparırlar.

**Nəticə:** Ən düzgün hərəkət çətin anda başqasının köməyinə yetməkdir. Ən dar məqamda belə insanlar bunu unutmamalıdırlar. Hətta öz işin bundan

zərər çəkdiyi bir halda olsa belə, sənə ehtiyacı olana yardım əli uzatmalısan. Bu, insanlığın yazılmamış qanunudur.

**Yaradıcı tətbiqetmə:** "Mən insanlara nə kimi kömək edə bilərəm" mövzusunda kiçik esse yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** "Mükafat" hekayəsinin məzmununu danışmaq.

## Mən sənə qul olacağam, ana!
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 2.1.1.; 1.1.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.2<br>2.1.3<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, elektron lövhə, film

**Motivasiya:** Müəllim elektron lövhədə 28 May meydanında C.Cabbarlının abidəsini, C.Cabbarlı metro stansiyasını, C.Cabbarlı adına kinostudiyanın təsvirləri olan görüntüləri canlandırır.

– Ekranda gördüklərinizin arasında ümumi olan nədir? Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** Cəfər Cabbarlı adı sizdə hansı fikirlər doğurur? Onun haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Mən sənə qul olacağam, ana!" mətninin oxusu ilə başlanır. Nitqdə məntiqi vurğudan düzgün istifadə edilməlidir. "Sözlük"dəki çətin sözlər və ifadələr izah edilir, sonra cümlələrdə işlədilir. 2.1.2. alt standartının tələblərinə uyğun olaraq çalışma 1,2 yerinə yetirilir.

Mətndəki fakt və hadisələrin ümumiləşdirilməsi, 1.1.2 alt standartının

reallaşdırılması üçün 2-ci çalışma üzərində iş aparılır. Mətnə dair sualları müəyyənləşdirmək məqsədilə müəllim şagirdləri 3 qrupa bölür. 2.1.3 alt standartının reallaşdırılması üçün şagirdlər yazdıqları əsasında mətnin məzmununu genişləndirir, müxtəlif mövqeli fikirləri ümumiləşdirərək işlərini təqdim edirlər. Şagirdlərin plan tərtib etməsi, (2.1.4 alt standartına görə) mətnin hissələri arasında əlaqələri gözləməklə mətnin bütöv məzmununu danışması üçün çalışma 3,4 yerinə yetirilir. Şagirdlərin qrupdakı işləri rəğbətləndirilir.

Şagirdlərin yazı vərdişlərinə yiyələndiklərini nümayiş etdirmək məqsədilə 3.1.1; 4.1.2 alt standartları seçilmişdir. Bu məqsədlə çalışma 6-da şagirdlər 2-ci dərəcəli üzv olan tamamlığı cümlədə müəyyənləşdirir, ifadə vasitələrini təyin edirlər.

Çalışma 7-də mübtəda ilə nə? sualına cavab verən tamamlıqların fərqi müəyyənləşdirilir. Şagirdlər bu tapşırıqları yazılı şəkildə yerinə yetirirlər.

Çalışma 9-da mübtəda haqqında şagirdlərin bildikləri aşkar edilir. Bu çalışmanı şifahi şəkildə də yerinə yetirmək olar.

**BUNLARI BİLİRSİNİZMİ?**

Biz fikrimizi daha ətraflı ifadə etmək üçün nitqimizdə baş üzvlərdən əlavə, ikinci dərəcəli üzvlərdən də istifadə edirik. İkinci dərəcəli üzvlər bunlardır:

1. Tamamlıq
2. Təyin
3. Zərflik

Tamamlıq cümlədə əşya, obyekt bildirən sözlərdir. Cümlədə xəbərə aid olur. Tamamlıq Kimə? Nəyə? Kimi? Nəyi? Nə? Kimdə? Nədə? Kimdən? Nədən? Kim ilə? Nə ilə? Kim üçün? və s. suallarına cavab verir. Mübtəda kimi isim, əvəzlik və məsdərlə ifadə olunur. Sifət, say, işarə əvəzlikləri, zərf və feili sifətlər də isimləşəndə tamamlıq vəzifəsində işlənə bilərlər.

Məsələn: *Bu qəribə sövdəgərin xəbərini həmin gün padşaha çatdırdılar* – cümləsindəki tamamlıqlardan biri (*sövdəgərin xəbərini*) ismi birləşmə ilə, digəri isə (*padşaha*) isimlə ifadə olunmuşdur.

**Məlumat mübadiləsi:** Uşaqlar tanıdıqları şəxsiyyətin uşaqlıq illərində həyatından bir epizodla tanış olub onun xarakteri barədə müəyyən mülahizə yürütmək imkanına nail olurlar. Öz aralarında fikir mübadiləsi aparırlar.

**Nəticə:** Anaya məhəbbət sonsuzdur. Bu məhəbbətin müqəddəsliyi qarşısında heç nə tab gətirə bilməz. Hətta azyaşlı uşaqlar da ana məhəbbətini öz üzərlərində hiss edirlər. Öz kiçik qəlbləri ilə bunu duyurlar. Şair qəlbli yaradıcı insanlar isə daha kövrək olurlar. Onlar ana qədrini, ana müqəddəsliyini daha erkən hiss edir, öz mənəvi borclarını ömürləri boyu anaya itaətdə keçirməyin onlar üçün səadət olduğunu düşünürlər. Bizə də onların yazdıqları əsərlərin ruhu təsir edir, anaya olan məhəbbətimizi, sədaqətimizi bəzən misralara da

çevirə bilirik.

**Yaradıcı tətbiqetmə:** C.Cabbarlının yaradıcılığı barədə qısa məlumat toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni və C.Cabbarlının "Ana" şeirinin məzmununu danışmaq.

## "Ölkəm" şeiri
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 1.1.1.; 1.2.4. |
| 2 | Söz birləşməsi və sadə cümləələri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.2<br>2.1.3<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, dəftər, elektron lövhə, kompyüter

**Motivasiya:** Müəllim elektron lövhədə C.Cabbarlının sözlərinə bəstələnmiş "Ölkəm" romansını səsləndirir. Musiqinin müəllifi Asəf Zeynallıdır. Romansı müğənni Bülbül ifa edir.

– Bu musiqidə nədən bəhs edilir? Şagirdlər musiqinin sözlərinə qulaq asıb, müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** – Sizcə, niyə bu musiqiyə müraciət etmişik? Onun müəllifi kim ola bilər?

**Tədqiqatın aparılması:** Şagirdlər tədqiqata başlayırlar. Bülbülün ifasını dinlədikdən sonra şagirdlər 2.1.2 alt standartına uyğun olaraq məntiqi vurğudan istifadə edərək şeiri ifadəli şəkildə oxuyurlar. Lazım gəldikdə sözlərin

düzgün tələffüzü üçün müəllim şagirdlərə köməklik də göstərir. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edilməsi şeirin ideyasını müəyyənləşdirməyə xidmət edir (çalışma N3-1.1.2 alt standartı).

Sonra şeirin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində işə keçilir. Şagirdlər qruplara bölünürlər. Hər qrupa şeirin bir bəndinin təhlili tapşırılır. Verilmiş vaxt bitdikdən sonra şagirdlər misralar və bəndlər arasında əlaqələri gözləməklə şeirin məzmununu danışırlar. Bunlar 2.1.4 alt-standatının reallaşdırılması üçündür. Bu məqsədlə 2,3,4-cü çalışmalar icra edilir. Sonra şagirdlər şeiri nəsrə çevirərək məzmununu qısa şəkildə dəftərlərinə yazırlar. Bu zaman şagirdlər müxtəlif mövqeli fikirləri ümumiləşdirirlər ki, bu da 2.1.3 alt standartının tələbinə uyğundur.

Şagirdlər şeirdə üzərində ulduz işarəsi qoyulmuş sözlərin düzgün tələffüz şəklini yazmaqla 2.1.1 alt standartını reallaşdırırlar. Şeirdə altından xətt çəkilmiş cümlədə cümlə üzvlərinin sintaktik vəzifəsini müəyyənləşdirirlər ki, bu da onların qrammatik anlayışlarının möhkəmləndirilməsi, 3.1.1 alt standartının reallaşdırılması üçündür. Bu standarta uyğun 5-ci, 8-ci çalışmalar da müəyyən edilmişdir.

4.1.2 alt standartı isə şagirdlərin seçdikləri nümunələrlə yazılarını zənginləşdirmək, bununla lüğət ehtiyatlarını da artırmaq üçündür. Bu məqsədlə 9,10-cu çalışmalar seçilmişdir.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirin müəllifi barədə məlumatı genişləndirərək, C.Cabbarlının şeir dilini müzakirə edirlər.

**Nəticə:** Vətənimiz Azərbaycan bizim üçün ən zəngin bir ölkədir. Ölkəmin sərvətləri sonsuzdur. Bu sərvətlər bizə məxsusdur. İgid xalqımız öz tarixi keçmişini mühafizə edib qoruyur, tarixin buraxdığı səhvləri bir də təkrar etməməyə çalışır. Neft bizim sərvətimizdir. Tarixin qızıl səhifələrində Azərbaycanın şanlı keçmişi canlanır. Ölkəmizin bu günü də, gələcəyi də parlaqdır. Elin, ölkənin sərvəti öz xalqına məxsusdursa, bu, əsl xoşbəxtlikdir.

**Yaradıcı tətbiqetmə:** "Ölkəmizin sərvətləri" mövzusunda kiçik bir esse yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu danışmaq, bir hissəni əzbərləmək.

# Dəmirçioğlunun Çənlibelə gəlməsi
# (I hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 3.1.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. | 3.1.1<br>3.1.2 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qruplarla, cütlərlə iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, elektron lövhə, kompyüter

**Motivasiya:** Müəllim elektron lövhədə "Koroğlu"filmindən bir fraqmenti canlandırır.

– Bu filmin qəhrəmanı barədə nə deyə bilərsiniz?

Şagirdlər fikirlərini söyləyirlər.

**Tədqiqat sualı:** – Siz "Koroğlu" dastanı haqqında nə deyə bilərsiniz? Dastan qəhrəmanlarından kimləri tanıyırsınız?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Dəmirçioğlunun Çənlibelə gəlməsi" mətninin oxusu ilə başlanır. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edərək mətnin rollar üzrə oxusu təşkil edilir (çalışma 1 – 3.1.2 alt standartı). Mətn oxunduqdan sonra "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Verilmiş sözlərə sinonimlər, antonimlər tapılaraq əlavə cümlə daxilində işlədilir. Mətnin oxusu prosesində şagirdlər çalışmalıdırlar ki, məntiqi vurğudan düzgün istifadə etsinlər. Bu, 2.1.2 alt standartını reallaşdırır.

Şagirdlər cütlərlə işləyərək 2-ci çalışmanın tələbinə əsasən mətnin planını tərtib edirlər – 1.1.1 alt standartı;

Sonra cütlər Dəmirçioğluna aid xüsusiyyətləri seçib dəftərlərinə yazır, bununla yazılarını zənginləşdirirlər – 4.1.2 alt standartı, çalışma 3;

Mətndəki fikirlərə münasibət bildirmək üçün 4-cü çalışmada şagirdlər 3.1.3 alt standartını, müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim etmələri üçün 5-ci çalışmanı yerinə yetirən şagirdlər 2.1.3 alt standartını həyata keçirmiş olurlar. Sonra şagirdlər dinlədikləri mətndən fikir ardıcıllığını, cümlələrin necə əlaqələndiyini müəyyənləşdirmək üçün 6-cı çalışmaya müraciət edirlər. Bu,

1.1.1 alt standartının reallaşdırılmasıdır.

Şagirdlərin qrammatik anlayışlarını inkişaf etdirmək, mətndəki söz və ifadələrin sintaktik vəzifələrini dəqiqləşdirmək məqsədilə 7,8,9-cu çalışmalar icra edilir ki, bu da 3.1.1 alt standartının reallaşdırılmasıdır.

Çalışmaların icrasından və müzakirədən sonra qiymətləndirmə aparılır.

**BUNLARI BİLİRSİNİZMİ?**

Cümlədə Necə? Nə cür? Hansı? Neçə? Nə qədər? Neçənci? suallarından birinə cavab verən sözlər **təyindir**. Təyin cümlənin ikinci dərəcəli üzvüdür. Əksərən, sifət, say, feili sifət, işarə əvəzlikləri ilə ifadə olunaraq mübtədanı və tamamlığı izah edir. Bəzən ismi birləşmələrlə, əsas tərəfi feili sifət olan feili birləşmələrlə də ifadə oluna bilir.

Məsələn: *Arxlardan axan dağ suları pıçıldaşır, rəngarəng çiçəklər aləmə bihuşedici ətir saçırdı* – cümləsindəki təyinlər feili birləşmə (*arxlardan axan*) və sifətlə (*rəngarəng, bihuşedici*) ifadə olunmuşdur.

**Məlumat mübadiləsi:** Mətnin oxusu və eyni zamanda çalışmalar üzərində iş şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir. Şagirdlər "Koroğlu" dastanı barədə məlumat əldə edirlər. Koroğlunun özünəməxsus xüsusiyyətləri üzərində fikir mübadiləsi edirlər.

**Nəticə:** Şagirdlər mövzu ətrafında işləyib maraqlı məlumatlar əldə edirlər. Onlar Koroğlunun mərdliyini, insanlara qarşı münasibətlərini özlərinə örnək olaraq qəbul edirlər.

Dastandakı bir "qol"u oxumaqla şagirdlər şifahi ədəbiyyatımızın ölməz əsərlərindən biri olan qəhrəmanlıq dastanı ilə tanış olurlar

**Yaradıcı tətbiqetmə:** "Koroğlu" dastanı barədə əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dəmirçioğlunun Çənlibelə gəlməsi
## (II hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 3.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.2<br>2.1.3 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir. | 4.1.1 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, söz assosiasiyası

**Resurslar:** Dərslik, elektron lövhə, kompüter

**Motivasiya:** Müəllim Üzeyir Hacıbəyovun “Koroğlu”operasından fraqment göstərir.

– Bu operanın müəllifi və məzmunu barədə nə bilirsiniz?

Şagirdlər müxtəlif cavablar verirlər.

**Tədqiqat sualı:** “Koroğlu” dastanının qollarının neçəsinin adını bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat “Dəmirçioğlunun Çənlibelə gəlməsi” qolunun 2-ci hissəsinin oxusu ilə başlanır. 2-ci hissə ilə bağlı “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər şagirdlərə izah edilir, onların mətndəki işlənmə yerlərinə diqqət yetirilir, bəziləri cümlələrdə işlədilir.

Bu dərsdə müəllim aşağıdakı alt standartlarından istifadə edə bilər:

– 1.1.1 alt standartı –çalışma 2,3;

– 2.1.2 alt standartı –çalışma 1;

– 2.1.3 alt standartı –çalışma 6;

– 3.1.1 alt standartı –çalışma 5,7,8,9;

Bunları yerinə yetirməklə şagirdlər mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir, nitqlərində məntiqi vurğudan istifadə etməklə mətni mənimsədiyini nümayiş etdirir, müxtəlif mövqeli fikirləri ümumiləşdirərək qrammatik anlayışları möhkəmləndirir, topladıqları fakt və məlumatlara münasibətlərini bildirirlər.

**Məlumat mübadiləsi:** Mətnin oxusu, çalışmalar üzərində işləməklə

şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmaq bacarıqlarını inkişaf etdirirlər.

**Nəticə:** Şagirdlər öyrənirlər ki, "Koroğlu" eposu şifahi xalq ədəbiyyatının ən möhtəşəm əsəridir. Yəni orada qoyulan məsələlər heç vaxt öz dəyərini itirmir. Hər dövr üçün təravətini qoruyub saxlayır. İndi torpaqlarımızın taptaq altında olduğu bir dövrdə Koroğlu qəhrəmanlarından öyrənməyə dəyər.

**Yaradıcı tətbiqetmə:** "Koroğlu" dastanının qollarından birini əlavə olaraq oxumaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Dəmirçioğlunun Çənlibelə gəlməsi
## (III hissə – 1saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 3.1.1. Coğ. – 3.2.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümləl əri qrammatik normalara uyğun tələffüz edir.<br>Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.1<br>2.1.2 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, söz assosiasiyası

**Resurslar:** Dərslik, elektron lövhə.

**Motivasiya:** Müəllim "Koroğlu" dastanını sinfə gətirir. Şagirdlər kitabı vərəqləyir, əsərin həcmi, hissələri barədə vizual məlumat alırlar.

– Uşaqlar, dastanın hansı hissələri haqqında məlumatınız var? Şagirdlər bildiklərini deyirlər.

**Tədqiqat sualı:** – Deyə bilərsinizmi, "Dəmirçioğlunun Çənlibelə gəlməsi" qolu dastanın neçənci qoludur və nə üçün bu qol belə adlanır?

**Tədqiqatın aparılması:** Şagirdlər də artıq müəyyən dərəcədə bu qol haqqında məlumatları olduğu üçün tədqiqata mətnin 3-cü hissəsinin oxusu

ilə başlayırlar. Nitqlərində məntiqi vurğudan istifadə edərək mətni oxuyurlar. Bu 2.1.2. alt standartının reallaşdırılması üçündür(çalışma 1). Sonra "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər şagidlərə izah edilir, onların mətndəki işlənmə yerlərinə diqqət yetirilir, bəziləri cümlə içərisində işlədilir.

Müəllim şagirdlərin diqqətini 1.1.1 alt standartının reallaşdırmaları üçün 2,4-cü çalışmaların icrasına yönəldir. Bu zaman şagirdlər mətndəki əsas fikri müəyyənləşdirir, mətni rollar üzrə oxuyaraq onun planını hazırlayırlar. Daha doğrusu, dərslikdə verilmiş planla öz planlarını müqayisə edib dərslikdəki plana dəyişiklik barədə düşünürlər. Bu işdə onlara müəllim kömək edə bilər.

Sonra müəllim şagirdləri qruplara bölür. 1.1.1. alt standartının reallaşdırılmasında 3-cü çalışma da çox əhəmiyyətlidir. Qrup daxilində şagirdlər ədəbi dilin normalarına uyğun olaraq mətn üzrə suallar tərtib edir; sualların düzgünlüyünü təsdiq etmək üçün qruplar bir-birinin işini qiymətləndirirlər.

2.1.1 alt standartının reallaşdırılması üçün 5-ci çalışmaya müraciət edilir. Şagirdlər seçilmiş sözlərin tələffüzünü qarşısında yazaraq, vurğunu müəyyənləşdirirlər.

Şagirdlərin rabitəli yazı vərdişlərini inkişaf etdirmək məqsədilə 3.1.1; 4.1.3 alt standartlarının tələblərinə uyğun olaraq 6-cı, 7-ci çalışmalara müraciət edilir. 6-cı çalışma müvafiq durğu işarələrinin qoyulması qaydasına, 7-ci çalışma isə 2-ci dərəcəli üzv olan zərfliyin işlənmə funksiyasına, ifadə vasitələrinə aiddir. 9-cu çalışma həm də şagirdlərin tərcümə bacarığını inkişaf etdirmək üçündür.

## BUNLARI BİLİRSİNİZMİ?

Cümlədə hərəkətin icra tərzini, yerini, zamanını, kəmiyyətini, baş vermə səbəbini, hansı məqsədlə icra edildiyini bildirən sözlər zərflikdir. Zərflik ikinci dərəcəli üzvdür; feili xəbərə aid olub aşağıdakı suallara cavab verir: 1) Necə? Nə cür? Nə tərzdə? Nə vəziyyətdə? Bu suallara cavab verən zərfliklər tərzi-hərəkət zərflikləridir.

Məsələn: Qapı *taybatay* açıldı.

2) Nə vaxt? Nə zaman? Haçan? Nə vaxta qədər? və s. Bu suallara zaman zərflikləri cavab verir.

Məsələn: Mən onu *əvvəllər* də görmüşdüm.

3) Nə qədər? Nə dərəcədə? Bu suallara kəmiyyət zərflikləri cavab verir.

Məsələn: Bunu sənə *dəfələrlə* xatırlatmışam.

4) Niyə? Nədən ötrü? Nə məqsədlə? Nə səbəbə? Bu suallara səbəb və məqsəd zərflikləri cavab verir.

Məsələn: Dərsə *hazır olmadığı üçün* əlini qaldırmadı – cümləsində səbəb; *Torpaqlarımızı düşmənlərdən təmizləmək üçün* orduya getdi – cümləsində məqsəd zərfliyi işlənmişdir.

5) Hara? Haraya? Harada? Haradan? Yer zərflikləri bu suallara cavab verir.

Məsələn: *Şəhərdən dünən qayıtmışam.*

**Məlumat mübadiləsi:** Mətnin rollarla oxusu, çalışmalar üzərində işləməklə şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini mətnin hissələrinə uyğunlaşdırmaq, fikirlərin ardıcıllığını müəyyənləşdirmək bacarıqlarını inkişaf etdirirlər.

**Nəticə:** Şagirdlər öyrənirlər ki, "Kitabi-Dədə Qorqud"dan sonra "Koroğlu" eposu şifahi xalq ədəbiyyatımızın ən möhtəşəm əsəridir. "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları ayrı-ayrı tarixi dövrlərdə yaransalar da, hər iki dastan xalqımızın qəhrəmanlıq tarixinin salnaməsini özündə əks etdirən sənət abidələri kimi ölməzdir.

Şagirdlər öyrənirlər ki, Koroğlu türk dünyasının ortaq qəhrəmanıdır.

"Koroğlu"dastanı 16-17-ci əsrlərdə baş vermiş tarixi hadisələrlə səsləşir. Eposun müxtəlif variantları vardır. Koroğlu dastanının Tiflis, Güney Azərbaycan, türkmən variantları 18, digərləri isə 21-25 qoldan ibarətdir.

**Yaradıcı tətbiqetmə:** "Koroğlu" dastanının qollarından birini internet səhifələrindən, ya da kitabxanadan əldə edib oxumaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Təbriz sənətkarları
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 3.1.2. |
| 2 | Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.2<br>4.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, təqdimat
**Resurslar:** Dərslik, proyektor, dəftər, kompüter
**Motivasiya:** Müəllim elektron lövhədə incəsənət muzeyinin Təbriz

sənətkarlarına həsr edilmiş zalının görüntülərini canlandırır.

– Uşaqlar, bu muzeydə hansı sənət əsərlərinə aid nümunələr gördünüz?

Şagirdlər fikir söyləyirlər.

**Tədqiqat sualı:** – Gördüyünüz sənət nümunələri haqqında nə bilirsiniz? Təbriz sənətkarlıq məktəbi haqqında nə eşitmisiniz?

**Tədqiqatın aparılması:** Tədqiqata dərslikdəki “Təbriz sənətkarları” mətninin oxusu ilə başlanır. 2.1.2 alt standartının tələbinə uyğun olaraq mətn məntiqi vurğudan düzgün istifadə etməklə oxunur. “Sözlük” izah edilir. 1.1.1 alt standartını reallaşdırmaq məqsədilə 3-cü çalışmaya müraciət edilir. Şagirdlər mətnin məzmununa uyğun cümləni tamamlayırlar. Sonra 1.1.2 alt standartının tələbilə 1-ci çalışmaya müraciət edilir. Burada şagirdlər mətnə uyğun suallar verirlər. Bütün bunlar mətnin məzmununu mənimsətmək üçündür.

Sonra müəllim şagirdləri qruplara bölür. 1.1.2 alt standartının tələbinə uyğun olaraq şagirdlər öyrəndikləri fakt və hadisələri qruplaşdırırlar. Vaxt bitdikdən sonra isə qruplar bir-birlərinin işini qiymətləndirirlər (çalışma 5) Çalışma 4-ün tələbilə 3.1.3 alt standartı reallaşdırılır; şagirdlər verilmiş plana dəyişikliklər edir, fikirlərini əsaslandırırlar.

Sonra şagirdlərin rabitəli yazı vərdişlərinə yiyələndiklərini nümayiş etdirmək məqsədilə 4.1.2; 4.1.3 alt standartları seçilir. 4.1.2 alt standartını reallaşdırmaq üçün çalışma 7, 4.1.3 alt standartının reallaşdırılması üçün çalışma 6, 8 uyğundur. Bu zaman şagirdlər həmcins üzvlərin işlənmə məqamlarını izləmiş olurlar.

**BUNLARI BİLİRSİNİZMİ?**

Eyni bir üzvlə bağlı olub, eyni suala cavab verən bərabərhüquqlu cümlə üzvləri *həmcins üzvlər* adlanr. Bütün cümlə üzvləri həmcins ola bilərlər. Onlar sadalama intonasiyası ilə deyilir və bəzən tabesizlik bağlayıcıları ilə əlaqələnirlər.

Məsələn: Alimlər bütün həyatlarını *elmə* **və** *biliyə* sərf edirlər – cümləsində həmcins tamamlıqlar tabesizlik bağlayıcısı ilə əlaqələnmişlər.

**Məlumat mübadiləsi:** Şagirdlər Təbriz sənətkarları haqqında aldıqları məlumatı müzakirə edirlər.

**Nəticə:** Şagirdlər mətni oxuyub belə nəticəyə gəlirlər ki, əsl sənət heç vaxt ölmür. O, həmişəyaşardır. Hansı dövrdə yaranırsa-yaransın, xalqın mənəvi irsi hesab olunur. Təbriz Azərbaycanın ayrılmaz parçasıdır. Oradakı sənətkarlıq məktəbinin nümunələri Şərq sənətkarlığının ən nadir inciləri hesab edilir. Bütün Şərq aləminin şah əsərləri Təbriz sənətkarlıq məktəbinin yaratdıqlarıdır.

**Yaradıcı tətbiqetmə:** Çalışma 8 üzərində işləmək.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Qara Qarayevin ölməz irsi
# (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 4.1.1. Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Kiçik qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, təqdimat
**Resurslar:** Dərslik, dəftər, elektron lövhə, kompüter
**Motivasiya:** Qara Qarayevin "Yeddi gözəl" baletindən fraqmentlər elektron lövhədə canlandırılır.

– Bu gözəl musiqinin müəllifi kim ola bilər? Bu hansı əsərdir?

Şagirdlər cavab verirlər.

**Tədqiqat sualı:** – Qara Qarayev barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki mətnin oxusu üzərində işlə başlanır. Müəllim tədqiqat sualına cavab tapmaq üçün əvvəlcə mətni şagirdlərə oxutdurur. Onların məntiqi vurğulu sözləri düzgün tələffüz etməklə oxumaqlarına nəzarət edir. "Sözlük"də, "Söz ehtiyatı"ndakı sözlərin mənaları izah edilir, cümlələrdə işlədilir.

Seçilmiş alt standartlar şagirdlərin dinlədikləri mətndə fakt və hadisələri, müxtəlif fikirləri ümumiləşdirmək, mətnin məzmununa aid öz fikirlərini bildirmək, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərlə bağlı bildiklərini inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur:

1.1.2 alt standartı üçün çalışma – 1,5

2.1.3 alt standartı üçün çalışma – 3

3.1.3 alt standartı üçün çalışma – 2

4.1.3 alt standartı üçün çalışma – 6,7,8-i yerinə yetirmək məqsədəuyğundur.

Müəllim şagirdlərə tapşırıqları icra edərkən nəzarət edir, onları istiqamətləndirir. Şagirdlər bu dərsdə "əlavələr"lə tanış olduqları üçün bu mövzü ətrafında düşünür, praktik tapşırıqlar yerinə yetirirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər Qara Qarayevin şəxsiyyəti ilə tanış

olur, onun haqqında öyrəndiklərini müzakirə edirlər.

**Nəticə:** Azərbaycan musiqisinin tarixi çox qədimdir. Bu musiqi dünya musiqi aləminə bir çox korifey sənətkarlar bəxş etmişdir. Qara Qarayev də belə sənətkarlardandır. Onun zəngin irsi musiqimizdə bir dönüş mərhələsidir. Onun yaradıcılığında Vətən mövzusu bütün əsərlərinin özəyini təşkil edir. Biz fəxr edirik ki, dünya miqyasında Azərbaycanı tanıdan belə sənətkarlarımız var.

**BUNLARI BİLİRSİNİZMİ?**

Cümlədə özündən əvvəlki üzvün mənasını izah edib konkretləşdirən sözə və ya söz birləşməsinə **əlavə** deyilir. Əlavələr izah etdiyi sözlərdən tire (–) işarəsi ilə ayrılır. Bəzən əlavələrdən əvvəl "yəni" bağlayıcısı da işlənir. O zaman "yəni" bağlayıcısından əvvəl vergül (,) işarəsi qoyulur.

Məsələn: Məhəmməd Füzuli – Azərbaycan ədəbiyyatının ən nəhəng siması 16-cı əsrdə yaşamışdır; Sabah, yəni oktyabrın 18-i Dövlət Müstəqilliyi günü qeyd ediləcəkdir – cümləsində altından xətt çəkilmiş birləşmələr əlavələrdir.

**Yaradıcı tətbiqetmə:** Q.Qarayevin tərcümeyi-halının mühüm məqamları ilə bağlı təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Səxavət
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 1.3.1.<br>Əd. – 2.2.1. |
| 2 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2<br>3.1.3 | |
| 3 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qrupla iş

**Dərsin üsulu:** Əqli-hücum, müzakirə, sual-cavab

**Resurslar:** Dərslik, proyektor, kompüter, dəftər

**Motivasiya:** Elektron lövhədə Səttar Bəhlulzadə haqqında filmdən

fraqment işıqlandırılır.

– Siz bu şəxsiyyəti tanıyırsınızmı?

Şagirdlər müxtəlif cavablar verirlər.

**Tədqiqat sualı:** Səttar Bəhlulzadə haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab vermək üçün şagirdlər "Səxavət" mətnini oxuyurlar. Çətin söz və ifadələrin mənası izah edilir. 3.1.3 alt standartına cavab olaraq çalışma 4-də qoyulmuş sualın cavabı ətrafında düşünülür. Bununla şagirdlər dinlədiklərini anladıqlarını bildirirlər. 1.1.1 və 1.1.2 alt standartlarının reallaşması üçün 1,2-ci çalışmalar icra edilir. şagirdlər seçdikləri sualların mətnin məzmununa uyğunluğunu müəyyənləşdirirlər. Sonra 3.1.2 alt standartını reallaşdırmaq üçün 7-ci çalışma icra edilir. Bu, şagirdlərin aldıqları qrammatik bilikləri möhkəmləndirmək üçündür.

4.1.2 alt standartının reallaşdırılması şagirdlərin seçdikləri nümunələrlə yazılarını zənginləşdirmək üçündür. Bu zaman 8-ci çalışma icra edilir.

### BUNLARI BİLİRSİNİZMİ?

Unutmayın ki, cümlədə əvvəl mübtəda, sonra xəbər işlənməlidir. Əgər cümlədə təyin varsa, təyinlənən sözün əvvəlində işlənir. Tamamlıqlar mübtədadan sonra, xəbərdən əvvəl, zərfliklər isə daha çox xəbərin yanında – əvvəlində olur.

Məsələn: *Bir neçə tələbə qapı ağzında dayanıb Mehmanın çıxacağını səbirsizliklə gözləyirdi* – cümləsində *"tələbə"* sözü cümlənin mübtədası, "gözləyirdi" sözü xəbəridir. Təyin – "*bir neçə*" sözü – mübtədadan əvvəl, tamamlıq – "*Mehmanın çıxacağını*" – mübtədadan sonra işlənmişdir. Tərzi-hərəkət zərflikləri (*səbirsizliklə*), (*qapı ağzında dayanıb*) isə xəbərdən əvvəl işlənmişdir.

**Məlumat mübadiləsi:** Şagirdlər S.Bəhlulzadə haqqında öyrəndikləri barədə məlumat mübadiləsi aparırlar.

**Nəticə:** Səttar Bəhlulzadə Azərbaycanın rəssamlıq məktəbinin ən görkəmli nümayəndəsidir. Əməkdar İncəsənət xadimi, Azərbaycanın Xalq rəssamı, Azərbaycanın Dövlət Mükafatı laureatıdır.

Gözəl təbiət təsvirlərinə həsr edilmiş əsərləri var. Onun mənzərə-peyzajlarında, lirik natürmortlarında, incə xalça ornametlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığı motivləri hiss edilir. Xalqımız belə şəxsiyyətləri ilə fəxr edir.

**Yaradıcı tətbiqetmə:** Çalışma 5-in şərtlərinə uyğun məlumat toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Rəngkarın son sərgisi
# (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.1<br>2.1.3 | Az.t. – 1.3.1.; 4.1.1.<br>Əd. – 2.2.1. |
| 2 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. | 3.1.2 | |
| 3 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1<br>4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük qrupla iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, sual-cavab
**Resurslar:** Dərslik, proyektor, kompyüter, dəftər
**Motivasiya:** Elektron lövhədə S.Bəhlulzadənin rəsm əsərləri nümayiş etdirilir. – Bu əsərlərin müəllifi kim ola bilər? Şagirdlər əvvəlki dərslərə əsasən müəllifin S.Bəhlulzadə olduğunu deyirlər.

**Tədqiqat sualı:** S.Bəhlulzadə haqqında daha nələri öyrənmək istərdiniz?

**Tədqiqatın aparılması:** Şagirdlər dərslikdəki “Onun haqqında düşünəndə” mətnini oxuyurlar. Oxuyarkən çətin söz və ifadələrin mənası izah edilir. “Sözlük” və “Söz ehtiyatı”ndakı söz və ifadələrin mənası izah edilir. Mətnin məzmununun mənimsədilməsi üçün seçilmiş standartların reallaşdırılması üçün iş aparılır:

– 2.1.4 alt standartının reallaşdırılması üçün çalışma 1,9;
– 2.1.3 alt standartının reallaşdırılması üçün çalışma 2,6;
– 3.1.2 alt standartının reallaşdırılması üçün çalışma 8;
– 4.1.2 alt standartının reallaşdırılması üçün çalışma 3,5,7-nin icrası məqsədəuyğundur.

Şagirdlər S.Bəhlulzadə haqqındakı xatirəni oxuyub onun şəxsiyyəti barədə daha ətraflı məlumat alıb, nitqlərini inkişaf etdirərək, nitq vərdişlərini möhkəmləndirirlər.

**BUNLARI BİLİRSİNİZMİ?**

Bəzən cümlənin məqsədindən asılı olaraq, bəzi cümlə üzvlərinin yerini dəyişdirmək mümkün olur. Bu zaman lazım olan söz bir qədər yüksək tonla, yəni qüvvətli vurğu altında tələffüz edilir. Belə sözlər çox zaman xəbərin əvvəlində işlənir və onun üzərinə **məntiqi vurğu** düşür.

Məsələn: *Bunu ancaq* **anası** *hiss edirdi. Ancaq anası* **bunu** *hiss edirdi.* – cümlələrində məntiqi vurğulu sözlər xəbərin əvvəlində işlənmiş sözlərdir.

Cümlədə müəyyən sözün başqalarına nisbətən qüvvətli tələffüzü **məntiqi vurğu** adlanır.

**Məlumat mübadiləsi:** Şagirdlər "Səxavət" mətni ilə "Onun haqqında düşünəndə" mətnlərinin oxşar cəhətləri barədə məlumat mübadiləsi aparırlar. (çalışma 2-nin şərtinə əsasən)

**Nəticə:** Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin adı Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının yaradıcılarından biri kimi həmişəlik həkk olunmuşdur. Səttar Bəhlulzadə müxtəlif rənglərin yeni çalarlarını kəşf edərək onların ahəngindən gözəl lövhələr yaratmışdır.

Rəssamın rəng palitrasının zənginliyi ilə seçilən orijinal üslublu əsərləri milli təsviri sənətin ən qiymətli inciləri sırasındadır.

**Yaradıcı tətbiqetmə:** S.Bəhlulzadənin əsərlərindən birini tapıb, oradakı mənzərəni təsvir etmək (4.1.1 alt standartı).

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Balaca balıqçı
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.3.1. Əd. – 2.1.1.; 3.1.2. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.2 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. | 3.1.2 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Qruplarla iş

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat

**Resurslar:** Dərslik, dəftər, kompyüter, proyektor

**Motivasiya:** Müəllim lövhədə dəniz mənzərəsinin görüntüləri olan kadrları canlandırır.

– Siz dənizi sevirsinizmi?

Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** Sizcə, dənizə vurğun olmaq, onu sevmək, həyatını onunla bağlamaq hansı peşə sahiblərinə qismət olur?

**Tədqiqatın aparılması:** Şagirdlər məntiqi vurğudan istifadə etməklə orfoepik normalara əsasən mətni oxuyurlar. Bu məqsədlə müəllim əvvəlcədən tələffüzü və mənası çətin olan sözləri şagirdlərə izah edir. "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır.

Sonra mətnin məzmunu üzərində iş aparılır. Seçilmiş alt standartların reallaşdırılması üçün çalışmalar seçilir:

1.1.1 alt standartının reallaşdırılması üçün çalışma 4,6;

2.1.2 alt standartının reallaşdırılması üçün çalışma 1;

3.1.1 alt standartının reallaşdırılması üçün çalışma 8,9,10;

3.1.3 alt standartının reallaşdırılması üçün çalışma 2,5;

Bu çalışmaların yerinə yetirilməsi zamanı şagirdlər nitqlərində məntiqi vurğudan düzgün istifadə etməyi öyrənir, dinlədikləri mətndəki fikirlərin ardıcıllığını müəyyənləşdirir, söz və ifadələrin sintaktik vəzifələrini dəqiqləşdirir, yazı vərdişlərini təkmilləşdirirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər balaca balıqçının düşündükləri ətrafında məlumat mübadiləsi aparırlar.

**Nəticə:** Hər kəs həyatda istədiyi, sevdiyi işlə məşğul olmalıdır. Hamının ürəyində həmişə həyata keçirmək istədiyi bir arzusu olur. Bu arzu lap uşaqlıqdan insanın qəlbində kök atıb onunla birlikdə böyüyür. İnsan elə yaşamalıdır ki, arzusunu həyata keçirmək üçün imkanı olsun. Onda yaşamaq da maraqlı olar.

**Yaradıcı tətbiqetmə:** "Mənim arzum" mövzusunda kiçik bir esse yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Hələ bu harasıdır?
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.2 | Az.t. – 1.2.2. Əd. – 2.2.1.; 1.1.1. |
| 2 | Söz birləşməsi və sadə cümləlıəri qrammatik normalara uyğun tələffüz edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.<br>Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır. | 2.1.1<br>2.1.3<br>2.1.4 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir | 3.1.1<br>3.1.3 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1<br>4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Qruplarla, cütlərlə iş
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, sual-cavab
**Resurslar:** Dərslik, dəftər, kompyüter, proyektor

**Motivasiya:** Müəllim elektron lövhədə S.Vurğunun "Azərbaycan" şeirinə çəkilmiş klipin görüntülərini canlandırır.

– Bu mənzərələr sizdə hansı hissləri doğurur?

Şagirdlər Vətənimiz barədə danışırlar.

**Tədqiqat sualı:** Sizcə, Vətənin gözəllikləri bitib-tükənə bilərmi? Biz öz sözlərimizlə onu tamam təsvir edib qurtara bilərikmi? Buna bizim sözümüz çatarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərin diqqətini dərslikdəki "Hələ bu harasıdır?!" şeirinə yönəldir. Tədqiqat sualına cavab vermək üçün şagirdlər şeiri məntiqi vurğuya riayət etməklə ifadəli oxuyurlar. Şeir hissə-hissə oxutdurulub, mənası izah edilir. Qısaca müəllif haqqında da məlumat verilir. "Sözlük" də və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir. Şeirin məzmununun mənimsədilməsi işinə başlanılır. Seçilmiş alt standartların reallaşdırılması üçün dərslikdəki çalışmalar seçilir:

1.1.2 alt standartı üzrə – çalışma 2,12;
2.1.1 alt standartı üzrə – çalışma 11;

2.1.3 alt standartı üzrə – çalışma 9;
2.1.4 alt standartı üzrə – çalışma 15;
3.1.1 alt standartı üzrə – çalışma 10;
3.1.3 alt standartı üzrə – çalışma 3,13;
4.1.2 alt standartı üzrə – çalışma 8,6,7.
4.1.3 alt standartı üzrə – çalışma 14-cü çalışmanın icra edilməsi məqsədəuyğundur.

Çalışmalar cütlərlə iş formasında, böyük qrup şəklində yerinə yetirilə bilər. 11-ci çalışmada sual-cavab üsulundan istifadə edilə bilər.

Çalışma 8 şagirdlərin qrammatik anlayışlarını təkmilləşdirmək üçün nəzərdə tutulmuşdur. Şagirdlər xitab haqqında "Bunları bilirsinizmi? rubrikasından məlumat alırlar.

### BUNLARI BİLİRSİNİZMİ?

Cümlədə bəzən elə sözlər işlənir ki, onlar cümlə üzvləri ilə mənaca bağlı olsalar da, qrammatik cəhətdən əlaqədə olmurlar. Yəni həmin sözləri cümlədən çıxarsaq, cümlənin məzmununda ciddi dəyişiklik baş verməyəcəkdir.

Məsələn: *Məncə*, məsələni həll etmək çətin olacaq – cümləsində "*məncə*" sözünü işlətməsək də, fikir aydın ifadə ediləcəkdir.

Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər cümlə üzvü hesab edilmirlər. *Xitab* və *ara sözlər* qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərdir.

**Məlumat mübadiləsi:** Çalışma 2 üzərində iş aparıla bilər. Şagirdlər şeiri oxuduqdan, məzmunu mənimsədikdən sonra şeirin əsas ideyası barədə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Hər birimizin qəlbində müqəddəs bir hiss – Vətənə olan məhəbbət hissi yaşayır. Vətən sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Hər bir kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini vətən torpağında atır və torpaq sevgisinin hərarətini də bu zaman duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an belə vətənsiz yaşaya bilmir. Doğma vətənimiz Azərbaycan müxtəlif fikirli və əqidəli övladları birləşdirən yeganə anadır. O ana ki, övladları arasında heç bir fərq qoymur, hamısını böyük məhəbbətlə ağuşuna alır.

**Yaradıcı tətbiqetmə:** "Vətənimin nemətləri sonsuzdur" mövzusunda kiçik esse yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeirdən bir hissəni əzbərləmək.

## Sonrakı peşmançılıq  fayda verməz (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az. – 1.3.1.<br>Əd. – 2.2.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.2<br>2.1.3 | |
| 3 | Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.3 | |
| 4 | Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.<br>Müxtəlif əməli yazılar (arayış, protokol) yazır, fikirlərə münasibət bildirir. | 4.1.3<br>4.1.4 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik  qruplarla  iş
**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab
**Resurslar:** Dərslik, dəftər
**Motivasiya:** Müəllim lövhədə bu atalar sözünü yazır:
"Sonrakı peşmançılıq fayda verməz"
– Buna bənzər atalar sözləri bilirsinizmi?
Şagirdlər müxtəlif cavablar verirlər.

**Tədqiqat sualı:**  Bu atalar sözünün mənasını həyatın hansı məqamlarında işlətmək olar?

**Tədqiqatın aparılması:** Şagirdlər tədqiqat sualına cavab tapmaq üçün dərslikdəki "Sonrakı peşmançılıq fayda verməz" mətninin oxusuna başlayırlar. Oxu prosesində müəllimin köməyi ilə çətin söz və ifadələrin mənaları izah edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı kəlmələrin mənası müəyyənləşdirilir. Sonra mətnin məzmunu üzrə işin icrasına başlanılır. Bu zaman müvafiq standartlar və onların reallaşdırılması üçün çalışmalar seçilir:

1.1.1 alt standartının reallaşdırılması üçün çalışma 3;
2.1.2 alt standartının reallaşdırılması üçün çalışma 1;
2.1.3 alt standartının reallaşdırılması üçün çalışma 4,5;
3.1.3 alt standartının reallaşdırılması üçün çalışma 6;
4.1.3 alt standartının reallaşdırılması üçün çalışma 7;
4.1.4 alt standartının reallaşdırılması üçün çalışma 9;

Bu çalışmalar yerinə yetirilərkən şagirdlər hekayənin məzmunu ilə bağlı suallar tərtib edib yazır, plan qurur, mətnlə bağlı və ya ona uyğun olmayan sözlər haqqında düşündüklərini təqdim edirlər. Çalışma 2-nin yerinə yetirilməsi zamanı şagirdlər qruplara bölünür, ədəbi dilin qrammatik normalarına uyğun

olaraq suallar tərtib edir və  mətnin məzmunu ilə bağlı təqdimat hazırlayırlar. Qruplar bir-birlərinin fəaliyyətini qiymətləndirirlər.

**BUNLARI BİLİRSİNİZMİ?**

Cümlədə müraciət bildirən sözlərə və söz birləşmələrinə xitab deyilir.

Məsələn: *Qızım, bu güllər əsl sizə, siz də bu güllərə layiqsiniz* – cümləsində "*qızım*" sözü müraciət bildirir.

Xitablar ismin adlıq halında olur, çox vaxt şeirdə işlənir. Xüsusi intonasiya ilə deyilir. Cümlə üzvlərindən vergüllə (,) ayrılır. Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətndə peşmançılıq hissi keçirən padşahın düşdüyü vəziyyəti müzakirə edirlər.

**Nəticə:** Hər kəs çalışmalıdır ki, işini vaxtında və dəqiq yerinə yetirsin. Heç bir vaxt tələsərək qərar qəbul etmək olmaz. Düşünmədən, tələsik qəbul edilmiş qərarlar heç də yaxşı nəticələnmir. Çox zaman insan onun zərərini çəkir. Ona görə də hər hansı bir işi görəndə dəfələrlə fikirləşmək, ölçüb-biçmək, götür-qoy etmək lazımdır. Atalar yaxşı demişlər: "Sonrakı peşmançılıq fayda verməz".

**Yaradıcı tətbiqetmə:** Həyatınızın hansı anında elə bir hadisə ilə rastlaşmısınız ki, sonradan peşmançılıq çəkmisiniz? – düşündüklərinizi esse şəklində yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## Birliyin gücü (2 saat)

<table>
<tr><th>№</th><th>Gözlənilən təlim nəticələri</th><th>Alt standart</th><th>Fənlərarası inteqrasiya</th></tr>
<tr><td>1</td><td>Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.</td><td>1.1.1</td><td rowspan="4">Az.t. – 1.3.1.<br>Coğ. – 3.2.1.<br>Əd. – 3.1.2.</td></tr>
<tr><td>2</td><td>Nitqində məntiqi vurğudan düzgün istifadə edir.<br>Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.</td><td>2.1.2<br>2.1.3</td></tr>
<tr><td>3</td><td>Mətndəki fikirlərə münasibət bildirir.</td><td>3.1.3</td></tr>
<tr><td>4</td><td>Topladığı fakt və məlumatlara  münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.<br>Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.<br>Müxtəlif əməli yazılar (arayış, protokol) yazır, fikirlərə münasibət bildirir.</td><td>4.1.1<br>4.1.2<br>4.1.3<br>4.1.4</td></tr>
</table>

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, müzakirə
**Resurslar:** Dərslik, dəftər, kompüter, proyektor

**Motivasiya:** Müəllim elektron lövhədə arıların fəaliyyətini əks etdirən bir film canlandırır.

– Siz arıların işi barədə nə bilirsiniz?

Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** Maraqlıdır ki, arılar hər işi birlikdə kollektiv şəkildə görürlər. Siz onların kollektiv işinin nədən ibarət olduğunu bilirsinizmi?

**Tədqiqatın aparılması:** Bu dərs üç hissədən ibarət olduğu üçün əvvəlcə müəllim şagirdlərə mətnin I hissəsini oxutdurur. Mətnin məzmunu anlaşılsın deyə çətin söz və ifadələrin mənası izah edilir. Hekayədəki əsas fikrin müəyyənləşdirilməsi üçün 2.1.2 alt standartına uyğun olaraq mətn rollar üzrə oxutdurulur. Sonra 2.1.1 alt standartına uyğun olaraq şagirdlər qruplara bölünür və qrup daxilində fəaliyyət göstərirlər. Qrupların fəaliyyəti bir-biriləri tərəfindən qiymətləndirilir(çalışma 2,7).

1.1.1. alt standartının reallaşdırılması üçün şagirdlər 3, 5-ci çalışmaları icra edirlər.

4.1.2 alt standartının reallaşdırılması üçün çalışma 6 seçilir.

“Bunları bilirsinizmi?” rubrikasından şagirdlər ara sözlər haqqında məlumat almış olurlar ki, bu da 4.1.3 alt standartının reallaşdırılmasıdır.

## BUNLARI BİLİRSİNİZMİ?

**Ara sözlər** danışanın ifadə etdiyi fikrə münasibət bildirir. Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir. Cümlə üzvlərindən vergül (,) işarəsi ilə ayrılır. Onlar bir sıra mənalarda işlənirlər:

| | |
|---|---|
| Təsdiq bildirənlər: | əlbəttə, şübhəsiz, həqiqətən, düzü, doğrudan, doğrusu |
| Güman, şübhə bildirənlər: | bəlkə(də), güman(ki), deyəsən, ehtimal(ki), guya, olsun(ki), görəsən, görünür, olmaya, yəqin ki |
| Fikrin mənbəyini, kimə aid olduğunu bildirənlər: | məncə, bizcə, mənə görə, sənə görə... deyilənə görə və s. |
| Nəticə bildirənlər: | nəhayət, beləliklə, deməli, xülasə, qısası, əvvəla, əksinə, birincisi, ikincisi və s. |
| Təəssüf bildirənlər: | heyif (ki), çox heyif, təəssüf (ki) və s. |

2-ci dərsdə müəllim şagirdləri mətnin II hissəsi ilə tanış edir. Mətn rollar üzrə oxunur. Çətin söz və ifadələr izah edilir. Şagirdlər 2.1.3 alt standartına uyğun olaraq 1,4-cü çalışmaları icra edirlər. Mətnin I hissəsi ilə əlaqəni 3.1.3 alt standartına uyğun olaraq 2-ci çalışma vasitəsilə həyata keçirir. Şagirdlər verilmiş cümləni mətndə yerləşdirmək, bəzi sözlərin sinonimlərini tapmaq kimi işləri 2.1.3 və 4.1.2 alt standartlarını reallaşdırmaqla həyata keçirirlər. rabitəli yazı vərdişlərinə aid çalışmalar isə 6,7,9,12-ci çalışmalar seçilir. Yaradıcı tətbiqetmədə şagirdlər 8-ci çalışmadan istifadə edə bilərlər.

Hekayənin III hissəsi də şagirdlər tərəfindən rollar üzrə oxutdurulur. Əsas fikir müəyyənləşir. Çətin söz və ifadələr izah edilir (1.1.2 alt standartı çalışma 1). Bu dərsdə də şagirdlər qruplara bölünür. Qrup üzvləri 2.1.4, 1.1.1, 3.1.3 alt standartına uyğun olaraq 2,3,4-cü çalışmaları yerinə yetirirlər.

4.1.2 alt standartı üzrə 5-ci çalışmada şagirdlər seçdiyi nümunələrlə yazılarını zənginləşdirirlər.

Şagirdlərin tərcümə etmək bacarıqları 6,9,13-cü çalışmalarda möhkəmləndirilir. 4.1.3 alt standartı üzrə (çalışma 7) şagirdlər qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər üzərində fikir mübadiləsi aparırlar. 4.1.2 alt standartına əsasən 8,11-ci çalışma yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Məlumat mübadiləsi zamanı hər dərsdə şagirdlər aldıqları məlumatları bir-birlərilə bölüşür, yeni məlumat toplamaq üçün yaradıcı tətbiqetmə mərhələsinə uyğun şəkildə elmi ədəbiyyatlardan istifadə edirlər.

**Nəticə:** Arılar – uçan həşəratlar ailəsinə aiddirlər. Dünyada 20 mindən artıq arı növü vardır. Antraktidadan başqa dünyanın istənilən yerində rast gəlinir.

İşçi arının ömrü 40 gün olur. 17-18 günlükdə arılar artıq bala çıxarırlar. Qüvvəsi, yəni işçi arı sayı çox olan arı ailəsi ildə 35-40 kq təmiz bal verə bilir.

Onlar 15 km.-ə qədər yol qət edə bilirlər. Arı 15 km məsafədə yaxşı şirə taparsa, qayıdıb o biri arılara da xəbər verə bilir. Bu zaman bütün arılar həmin yerə uçurlar.

Arılar həm yaxşı şirə olan yeri hiss edirlər, həm də onlara qulluq edən insanı tanıyırlar.

Onların əmələ gətirdikləri bal faydalı qidadır.

**Yaradıcı tətbiqetmə:** Zoologiya fənnindən arılar haqqında öyrəndiklərinizi qısaca esse şəklində yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

# Azərbaycan oğluyam
# (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.2<br>2.1.3 | Az.t. – 1.2.1.<br>Əd. – 1.2.4. |
| 2 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.2<br>3.1.3 | |
| 3 | Topladığı fakt və məlumatlara münasibətini bildirir.<br>Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.1<br>4.1.2 | |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş
**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat
**Resurslar:** Dərslik, elektron lövhə, kompüter
**Motivasiya:** Müəllim proyektoru işə salır. Ekranda Bəxtiyar Vahabzadənin haqqında çəkilmiş film canlandırılır. Bəxtiyar Vahabzadənin səsi eşidilir.

– Bu sənətkarı tanıyırsınızmı? Onun haqqında nə bilirsiniz? Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** – Bəxtiyar Vahabzadənin haqqında çəkilmiş filmə əsasən onu necə bir şair olduğunu deyə bilərsinizmi?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Azərbaycan oğluyam" şeirinin oxusu ilə başlanır. Əsas fikri nəzərə çarpdırmaq məqsədilə məntiqi vurğudan istifadə etməklə şeir ifadəli şəkildə oxutdurulur. (3.1.2 alt standartı) "Sözlük"dəki yeni sözlərin mənaları izah edilir. Şeirin məzmununu anlamaq və daha yaxşı mənimsəmək məqsədilə şifahi şəkildə çalışma 1 yerinə yetirilir.

Sonra müəllim şagirdləri qruplara bölür. 2.1.3 alt standartının tələbilə çalışma 2 yerinə yetirilir. Şagirdlər 4 qrupa bölünərək çalışmanın hər bəndi üzrə təqdimat hazırlayırlar. Vaxt bitdikdə şagirdlər təqdimatlarını bir-bir təqdim edir, qruplar bir-birlərini qiymətləndirirlər.

3.1.3 alt standartının tələbilə çalışma 3 yerinə yetirilir. Bu işi də qruplarla yerinə yetirmək olar.

"Hikmət xəzinəsi"ndən verilən aforizmlər üzərində iş çalışma 5-in tələblərinə əsaslanır (3.1.2 alt standartı).

3.1.1. alt standartının reallaşdırılması üçün 6-cı çalışma seçilmişdir. Şagirdlər sözlərin sintaktik vəzifələrini müəyyənləşdirirlər. 4.1.2 alt standartının reallaşdırılması üçün 4,8-ci çalışmalar seçilmişdir. Şagirdlər

seçdikləri nümunələrlə yazılarını zənginləşdirirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirin məzmunu ətrafında məlumat mübadiləsi aparırlar. B.Vahabzadənin digər şeirlərini də xatırlamış olurlar.

**Nəticə:** B.Vahabzadə Azərbaycanın çox istedadlı şairidir. Bu şeir isə onun vətənpərvərlik mövzusunda yazılmış şeirlərindəndir. Burada vətənpərvərlik ideyası qabardılaraq ön plana çəkilmişdir. Şair üçün Vətəni sevmək azdır, onun yolunda həyatından keçməyə hazır olmaq lazımdır. Xalqımızın şanlı keçmişi hər bir Azərbaycan oğlunun qürur mənbəyidir. Analarımız bizi Vətən üçün böyütmüşdür. Biz də Vətənimizi qoruyub, mühafizə etməliyik.

**Yaradıcı tətbiqetmə:** Çalışma 7 üzərində işləmək tapşırılır.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu danışmaq, 1-ci hissəsini əzbərləmək.

## Əsrin Heydər tarixi
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Az.t. – 1.2.2.; 4.1.1. Əd. – 2.1.1.; 1.1.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir. | 2.1.2 2.1.3 | |
| 3 | Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir. Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.2 3.1.3 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir. | 4.1.1 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, təqdimat

**Resurslar:** Dərslik, dəftər, proyektor

**Motivasiya:** Elektron lövhədə Ümummilli liderimiz H.Əliyevin müxtəlif illərdə xalq içərisində olan görüntüləri canlandırılır.

– Bu kadrlar haqqında nə deyə bilərsiniz?

Şagirdlər müxtəlif cavablar söyləyirlər.

**Tədqiqat sualı:** – Heydər Əliyevin xalqa dayaq durması, el atası barədə

nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Əsrin Heydər tarixi" şeirinin oxusu ilə başlayır. Oxu zamanı sözlərin orfoepiyası və vurğusuna, sait və samitlərin düzgün tələffüzünə diqqət yetirilir, nöqsanlar düzəldilir, sözlərin məntiqi vurğu altında deyilməsinə diqqət yetirilir (2.1.2 alt standartı – çalışma 1). "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlərin mənası izah edilir, şagirdlər yeni söz və ifadələri cümlələrdə işlədirlər( cütlərlə iş üsulundan istifadə edilə bilər).

Şerin məzmununun mənimsədilməsi üzərində iş aparılır:

1.1.1 alt standartının reallaşdırılması üçün çalışma 2;
2.1.3 alt standartının reallaşdırılması üçün çalışma 6;
3.1.2 alt standartının reallaşdırılması üçün çalışma 8;
3.1.3 alt standartının reallaşdırılması üçün çalışma 3,4;
4.1.1 alt standartının reallaşdırılması üçün çalışma 5.

Şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək məqsədilə çalışma 7-yə müraciət etmək olar. Şagirdlərin öyrəndikləri şeirin məzmununa dair öz münasibətlərini bildirmələri üçün müəllim şagirdləri qruplara bölür. Şagirdlər şeirin bəndlərini nəsrə çevirərək bəndlərin məzmununu ifadə edir, öz fikirlərini də əlavə edirlər: çalışma 3.

Vaxt bitdikdə qrupların fəaliyyəti qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər Ümummilli liderimiz barədə bildiklərini ümumiləşdirir, onun fəaliyyəti haqqında bildiklərini müzakirə edirlər.

**Nəticə:** H.Əliyev Azərbaycan Respublikasının III Prezidenti kimi 10 oktyabr 1993 – 31 oktyabr 2003-cü il tarixlərində fəaliyyət göstərmişdir. O, Azərbaycan Respublikasının görkəmli dövlət xadimi, "Ulu öndər" və "Azərbaycan xalqının Ümummilli lideri" titullarının rəsmi daşıyıcısı kimi xalqın yaddaşında əbədi yaşamaqdadır. Onun yaşadığı illər də xalq üçün əvəzedilməzdir. Xalq bu dövrü Heydər dövrü, Heydər tarixi adlandırır. Azərbaycanı dünyaya tanıdan şəxsiyyət hamımızın fəxridir. İllər keçsə də, onun milləti üçün etdikləri xatirələrdən silinməyəcəkdir!

**Yaradıcı tətbiqetmə:** Əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu və ya I hissəsini əzbər öyrənmək.

## Azərbaycan Xalq Cümhuriyyəti
## (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.<br>Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir. | 1.1.1<br>1.1.2 | Az.t. – 3.1.1.; 1.2.2.<br>Əd. – 2.2.1.; 3.1.2. |
| 2 | Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir. | 2.1.1 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir. | 3.1.1 | |
| 4 | Seçdiyi nümunələrlə yazısını zənginləşdirir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük qrupla iş

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab

**Resurslar:** Dərslik, dəftər, kompüter, elektron lövhə

**Motivasiya:** Müəllim elektron lövhədə internet şəhifəsindən istifadə edərək ADR-in yaranması barədə tarixi-xroniki sənədli filminə baxışı təşkil edir.

– Gördüyünüz bu hadisələr nə vaxt baş vermişdir?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** XX əsrin əvvəllərində hansı tarixi hadisə Azərbaycanın həyatında dönüş yaratdı? Bu barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Azərbaycan Xalq Cümhuriyyəti" mətninin oxusu ilə başlayır. Şagirdlər mətni oxuyarkən məntiqi vurğudan düzgün şəkildə istifadə edir, mətndəki fikirlərə münasibət bildirirlər: 2.1.2. alt standartı, çalışma 1. Çətin söz və ifadələrin mənası izah edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər cümlədə işlədilir. Çalışma 4-ün tələbinə görə sözlərə sinonimlər tapılır, şagirdlərin söz ehtiyatlarını artırmaq, düzgün cümlə qurmaq qabiliyyətlərini inkişaf etdirmək, öyrəndikləri dil materiallarını praktik yolla tətbiq etmək imkanlarını genişləndirmək məqsədilə çalışmaların icrasına başlanılır.

1.1.1. alt standartını reallaşdırmaq, çalışma 3 üzərində işləmək şagirdlərin sual vermək, mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirmək üçündür;

1.1.2. alt standartını reallaşdırmaq, çalışma 2 üzərində işləmək fikirlərdəki uyğunsuzluqları bərpa etmək üçündür;

2.1.4. alt standartının reallaşdırılması, çalışma 5 üzərində işləmək, mətndəki cümlələri əlaqələndirmək, ümumiləşdirmək üçündür;

3.1.1. alt standartının reallaşdırılması, çalışma 6,9 üzərində işləmək, şagirdlərin qrammatik bacarıqlarını inkişaf etdirmək üçündür;

4.1.2. alt standartı ilə çalışma 8 yerinə yetirilir ki, bu da şagirdlərin yazı bacarıqlarını inkişaf etdirmək üçündür;

2.1.1. alt standartı çalışma 7 əsasında reallaşdırılır ki, bu da şagirdlərin nida cümlələri barədə biliklərini möhkəmləndirmək üçündür.

**Məlumat mübadiləsi:** Şagirdlər Azərbaycan Xalq Cumhuriyyətinin yaranması və fəaliyyəti barədə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Şagirdlər müasir Azərbaycan Respublikasının 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa edərək, Azərbaycan Xalq Cumhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etməsi barədə məlumatlarını möhkəmləndirmiş olurlar. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 May günü hazırda “Respublika günü” kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cumhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Azərbaycan Respublikasının yaradılmasında M.Ə.Rəsulzadənin, F.Xoyskinin, Ə.Topçubaşovun, C.Hacınskinin, S.Mehmandarovun böyük rolu əvəzsizdir.

**Yaradıcı tətbiqetmə:** Azərbaycan Xalq Cumhuriyyəti haqqında əlavə məlumat toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Baharın son ayı (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Alt standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir. | 1.1.1 | Coğ. – 2.1.3.<br>Əd. – 2.1.1.; 2.2.1. |
| 2 | Nitqində məntiqi vurğudan düzgün istifadə edir. | 2.1.2 | |
| 3 | Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.<br>Mətndəki fikirlərə münasibət bildirir. | 3.1.1<br>3.1.3 | |
| 4 | Topladığı fakt və məlumatlara münasibətini bildirir. | 4.1.1 | |

**Dərsin tipi:** İnduktiv

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab

**Resurslar:** Dərslik, dəftər, kompyüter, elektron lövhə

**Motivasiya:** Müəllim elektron lövhədə Gül bayramı zamanı xalq şənliyinin görüntülərini canlandırır. Günəşli bir gündə əlvan güllər çox gözəl görünür.

– Sizcə, bu nə bayramıdır? Bu bayram nə vaxt keçirilir?

**Tədqiqat sualı:** May ayı başqa aylardan nə ilə seçilir, onun özəllikləri varmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Baharın son ayı" mətninin oxusu ilə başlanır. Müəllim verdiyi suala cavab almaq məqsədilə məntiqi vurğudan düzgün istifadə etməklə mətni şagirdlərə oxutdurur. Şagirdlərlə mətnin nə üçün belə adlandırılması fikri müzakirə edilir.(2.1.2 alt standart – çalışma 1). "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələr izah edilir.

Mətnin məzmununu daha yaxşı mənimsətmək üçün müəllim şagirdləri qruplara bölür. (1.1.2 alt standartı – çalışma 2)

Şagirdlər may ayı haqqında bildiklərini ümumiləşdirərək təqdim edilmiş BİBÖ cədvəlini doldururlar. Sonra fərqlənənlər qiymətləndirilir. Mətndə çoxlu faktlardan istifadə olunmuşdur. Bu faktları ümumiləşdirərək qruplaşdırmaq da 1.1.2 alt standartının tələbidir. Bu məqsədlə 4-cü çalışma yerinə yetirilir.

3.1.3 alt standartı da çalışma 3-də qoyulan tələbə uyğun olaraq həyata keçirilir. Şagirdlər mətndə qoyulan fikirlərə münasibət bildirirlər. 3.1.1 alt standartı mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirmək üçün təyin edilmişdir. Bu məqsədlə 6,7,8,10,11,12-ci çalışmalar seçilmişdir.

Bu mətn sonuncu mətn olduğu üçün mətn mənimsənildikdən sonra il ərzində keçilmiş qrammatik materialların keçirilməsinə daha çox yer verilmişdir. Şagirdlər söz birləşmələri, cümlələr, cümlə üzvləri barədə keçdikləri materialları təkrar etmiş olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnin mövzusu əsasında fikir mübadiləsi aparırlar. May ayının özəlliklərini müzakirə edirlər.

**Nəticə:** İlin bütün fəsilləri, ayları gözəldir. Hər ayın öz xüsusiyyətləri, özəllikləri, öz yeri var. May ayı yazın son ayı olduğuna görə təbiət etibarı ilə, çox dəyişkəndir. Əlamətdar hadisələrlə zəngindir. Bu ayı şagirdlər də səbirsizliklə gözləyirlər. Çünki qarşıda onları gözəl tətil istirahəti göləyir. May ayı yeniliklərin, dəyişmənin, sevinc anlarının başlanğıcıdır.

**Yaradıcı tətbiqetmə:** May ayında xatirinizdə qalan ən maraqlı hadisə barədə yazmaq

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## ÖZÜNÜZÜ YOXLAYIN I

Mətn üzrə işləyin.

**Ana dili**

Çox dil bilmək yaxşıdır. Başqa dilləri öyrənmək indiki dövrdə xüsusən vacibdir. Lakin hər kəs birinci növbədə öz ana dilini yaxşı bilməlidir.

Bir zaman Rusiyada fransız dili dəbdə idi. Aristokratlar və onların uşaqları fransızca danışmağı şöhrət bilirdilər. Görün o zaman böyük rus yazıçısı L.N.Tolstoy nə yazır: "Nə deyirsən de, ana dili həmişə doğma olacaqdır".

XVIII əsrdə yaşamış görkəmli rus ........ A.P.Sumarokov yazmışdır: "Öz doğma dilinin gözəlliyini bilmədən, başqa dillərin gözəlliyini başa düşmək olarmı?"

Görkəmli Azərbaycan yazıçısı M.S.Ordubadi demişdir: "Hər bir xalqın ruhunun ifadəsini ancaq onun öz dilində vermək olar".

1. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?
A) müəllimi B) bəstəkarı C) ədibi D) hüquqşünası E) rəssamı

2. II abzasda altından xətt çəkilmiş sözün tərcüməsi:
A) был известен C) был интересным E) был временным
B) был в моде Д) был современным

3. Mətnin birinci cümləsinin mübtədası nə ilə ifadə olunub?
A) məsdər tərkibi ilə D) isimlə
B) məsdərlə E) feili sifət tərkibi ilə
C) feili sifətlə

4. Mətndə "Şöhrət" sözünü hansı sözlə əvəz etmək olar?
A) vüqar C)sağlıq E) çox
B) şərəf D) tanınmış

5. Cümlədəki ismi birləşməni göstərin.
***"Hər bir xalqın ruhunun ifadəsini ancaq onun öz dilində vermək olar"***:
A) hər bir C) ancaq onun E) dilində vermək olar
B) xalqın ruhunun D) vermək olar

6. Hansı söz birləşməsi deyil?
A) fransız dili C) indiki dövrdə E) doğma olacaqdır
B) dil bilmək D) görkəmli rus ədibi

7. Cümlənin xəbəri nə ilə ifadə olunub?
***Çox dil bilmək yaxşıdır.***
A) sifət B) isim C) fel D) zərf E) feli sifət

8. Cümlədən hansı sözü çıxarsaq, mənası dəyişməz?
Lakin hər kəs birinci növbədə öz ana dilini bilməlidir.
A) hər kəs B)lakin C) öz D) ana E) bilməlidir

9. Altından xətt çəkilmiş söz birləşməsi hansı cümlə üzvüdür?
***XVIII əsrdə yaşamış A.P.Sumarokov yazmışdır.***
A) xəbər B) mübtəda C) təyin D) zərflik E) tamamlıq

10. Hansı bənddə feili birləşmə işlənib?
A) ana dili C) başqa dilləri E) vermək olar
B) fransız dili D) yaxşı oxumaq

11. I növ təyini söz birləşməsi hansı cümlədədir?
A) Çox dil bilmək yaxşıdır?
B) Ordubadi demişdir.
C) Aristokratlar və onların uşaqları fransızca danışmağı şöhrət bilirdilər.
D) Ana dili həmişə doğma olacaqdır.
E) Rusiyada fransız dili dəbdə idi.

12. Hansı bənddə feili birləşmə verilib?
A) Xüsusən vacibdir
B) Rus yazıçısı
C) Ordubadi demişdir
D) Dilləri öyrənmək
E) Vermək olar.

13. Mətnin sonuncu cümləsində altından xətt çəkilmiş ifadə hansı cümlə üzvüdür?
A) təyin B) mübtəda C) xəbər D) zərflik E) tamamlıq

14. Cümlədəki tamamlığı göstərin:
***Aristokratlar və onların uşaqları fransızca danışmağı şöhrət bilirdilər.***
A) Danışmağı
B) Fransızca danışmağı
C) Onların uşaqları
D) Şöhrət
E) aristokratlar

15. Hansı cümlə üzvü cümlədə hərəkətin və ya əlamətin aid olduğu şəxsi və ya əşyanı bildirir?

A) mübtəda B)xəbər C)təyin D)tamamlıq E) zərflik

16. Mətnin üçüncü cümləsinin xəbəri felin hansı şəklindədir?

A) əmr B) xəbər C) vacib D) arzu E) şərt

17. Feili birləşməni göstər.

A) Fransızca danışmaq
B) Rus yazıçısı
C) Xalq ruhu
D) Azərbaycanlı yazıçı
E) Başqa dillərin

18. İsmi birləşməni tapın.

A) Gözəlliyini bilmədən
B) Ancaq onun
C) Öz dilində
D) Ruhunu ifadə etmək
E) Fransızca danışmağı

19. Verilmiş cümlənin neçə üzvü var?

***Görkəmli Azərbaycan yazıçısı M.S.Ordubadi demişdir...***

A) 3 B) 4 C) 2 D) 5 E) 6

20. Mətnin məzmununa aid olmayan fikir hansıdır?

A) Ana dilindən başqa digər dilləri də öyrənmək vacibdir.
B) İnsanın ana dili həmişə doğmadır.
C) Əvvəllər rusca danışmaq Azərbaycanda dəbdə idi.
D) Hər kəs əvvəlcə öz ana dilini gözəl bilməlidir.
E) Rusiyada keçmişdə aristokrat ailələrdə fransızca danışmağı şərəfli hesab edirdilər.

Mətn üzrə işləyin.

**Poçt qutusu**

Noyabr ayının 12-ci günü idi. Hava çox soyuq idi. Həkim axırıncı dəfə xanın arvadını yoluxub cavab verdi ki, daha naxoşun halı yaxşıdır. Bir həftədən sonra yola çıxmaq olar. Xan İrəvana getməyə çox ...... . Çünki xanı orada çox vacib işlər gözləyirdi. Həm də qorxurdu ki, qar yağa, hava daha da soyuya və naxoş üçün yola çıxmaq daha çətin ola. Xan qələmi götürüb irəvanlı dostu Cəfər ağaya bir kağız yazdı.

Xan kağızı qoydu paketə, üstünü yazıb, markasını yapışdırdı. İstədi nökəri çağırsın ki, aparıb salsın poçta. Amma xanın yadına düşdü ki, nökəri göndərib

başqa işə. Bu zaman qapı döyüldü. Xan çıxdı və gördü ki, qapını döyən öz kəndlisi Novruzəlidir...

Bu halda xanın ağlına gəldi ki, yazdığı məktubu versin, Novruzəli aparıb poçta salsın.

21. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?
a) sevirdi b) tələsirdi c) həvəssizdi d) istəyirdi e) tələsmirdi

22. Altından xətt çəkilmiş sözün tərcüməsi:
a) soruşmaq c) yoxlamaq e) tələsdirmək
b) müalicə etmək d) sakitləşdirmək

23. Mətnin birinci cümləsinin xəbəri? (Dəqiq cavabı seçin)
a) ismi xəbərdir d) mürəkkəb feili xəbərdir
b) feili xəbərdir e) mürəkkəb ismi xəbərdir
c) sadə xəbərdir

24. Mətndə "kağız" sözünü hansı sözlə əvəz etmək olar?
a) məktub b) məqalə c) açıqca d) əhvalat e) sirr

25. Cümlədə neçə köməkçi nitq hissəsi işlənib ? Ardıcıllığı göstərin.

"Həm də qorxurdu ki, qar yağa, hava daha da soyuya və naxoş üçün yola çıxmaq daha çətin ola."

a) 5, bağlayıcı, bağlayıcı, ədat, qoşma, ədat
b) 5, bağlayıcı, ədat, bağlayıcı, qoşma, bağlayıcı
c) 6, bağlayıcı, ədat, bağlayıcı, qoşma, ədat, bağlayıcı
d) 6, bağlayıcı, bağlayıcı, ədat, bağlayıcı, qoşma, ədat
e) 4, bağlayıcı, ədat, qoşma, bağlayıcı

26. Söz birləşməsi ilə bağlı fikirlərdən biri doğru deyil:
a) Bir sözdən də ibarət ola bilər.
b) İntonasiya bitkinliyi yoxdur.
c) Sözə nisbətən konkretlik bildirir.
d) Ən azı iki müstəqil sözdən ibarət olur.
e) Bitmiş fikir ifadə etmir.

27. Zərf hansı cümlələrdədir?
1. Sözü birbaşa üzə demək onun adəti idi.
2. Bağda hava sərindir.
3. Zeynəb hirslənərək qışqırdı.
4. Konsertdə qabaq cərgədəki yerlər boş idi.
5. Xəstənin halı birdən-birə dəyişdi.

a) 3, 4 b) 2, 3 c) 2, 5 d) 1, 5 e) 1, 4

28. Hansı sözün yazılışı səhv verilib?

a) ala – seyrək    c) qurutəhər    e) tünd – göy

b) açıq – ürəkli    d) al – qırmızı

29. ***“Stolun üstündəkilər limon üzüm və heyvalar bütün bunlar içəri daxil olan uşaqları sevindirdi”*** cümləsində hansı durğu işarələri buraxılmışdır?

a) iki qoşa nöqtə, bir vergül, bir tire
b) bir qoşa nöqtə, bir vergül, bir tire
c) üç tire, bir vergül
d) bir qoşa nöqtə, üç vergül, iki tire
e) iki qoşa nöqtə, iki vergül

30. Verilən parça hansı əməli yazı nümunəsinin başlanğıc hissəsidir?

Bakı şəhəri, H.Ağayev adına 113 saylı orta məktəbin X[a] sinif şagirdi Nicat Əliyevin məktəb sərgisində nümayiş etdirilən rəsm əsərlərinə dair ...

a) bildiriş  b) ərizə  c) rəy  d) izahat  e) annotasiya

## ÖZÜNÜZÜ YOXLAYIN II

Mətn üzrə işləyin.

### Qol saatı

Qol saatı nisbətən yaxın vaxtlarda, Birinci Dünya müharibəsinin sonunda meydana gəlməyə başlamışdır. Ona qədər saatları cibdə, xüsusi torbacıqda, yaxud zəncirə keçirib boyunda gəzdirirdilər. Doğrudur, ustalar 150 il bundan əvvəl də bu mexanizmləri daha orijinal görünüşdə hazırlayır, kiçik qadın saatlarını qiymətli qolbaqlara salırdılar. Lakin belə konstruksiyalar geniş yayılmadı, nadir bəzək əşyası olaraq qaldı.

Qol saatlarının ... adı tarixə düşməmişdir. O, rahatlıq üçün cib saatını ilk dəfə qoluna bağlayan naməlum bir əsgər (fransızlar onu fransız, almanlar isə alman hesab edirlər) olmuşdur. 1918-ci ildə İsveçrə saatsazı Jan Şatnu iki qulaqcığı olan kiçik saatlar düzəltməyə başladı. Onlara enli dəri və ya metal <u>qolbaq</u> geydirdi. Belə rahat saatları əvvəlcə idmançılar həvəslə taxırdılar, sonra isə onlar hamı tərəfindən istifadə edilməyə başla...dı.

1. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?

A) ixtiraçısının    D) qiymətinin

B) yiyəsinin    E) ünvanının    C) satanın

2. Altından xətt çəkilmiş sözün tərcüməsi:
А) часы В) кольцо С) браслет Д) ремень Е) пояс

3. Mətnin I cümləsində mübtəda nə ilə ifadə olunmuşdur?
A) isim B) sifət C) sayla
D) ismi birləşmə E) feili birləşmə

4. Mətndəki "görünüş" sözünü hansı sözlə əvəz etmək olar?
A) görünmək B) görkəm C) ölçü D) forma E) dairə

5. Mətndən verilmiş cümlədə hansılar ismi birləşmədir?
***Ona qədər saatları cibdə, xüsusi torbacıqda, yaxud zəncirə keçirib boyunda gəzdirirdilər.***
A) saatları cibdə B) xüsusi torbacıqda C) zəncirə keçirib
D) ona qədər E) boyunda gəzdirirdilər

6. Hansı bənddə söz birləşməsi verilməyib?
A) Ona qədər B) belə konstruksiyalar E) isveçrə saatsazı
C) Dünya müharibəsi D) qol saatı

7. Verilmiş cümlənin xəbəri nə ilə ifadə olunub?
***...Ustalar 150 il bundan əvvəl .... kiçik qadın saatlarını qiymətli qolbaqlara salırdılar.***
A) isim B) məsdər E) frazeoloji birləşmə
C) fel D) feili sifət

8. Hansı sözü cümlədən çıxarsaq, cümlənin mənası dəyişməz?
***Doğrudur, ustalar 150 il bundan əvvəl də bu mexanizmləri daha orijinal görünüşdə hazırlayırdılar.***
A) ustalar B) bu C) doğrudur D) orijinal E) mexanizmləri

9. İsmi birləşməni göstər.
A) Qol saatı
B) Yaxşı oxumaq
C) Cibdə gəzdirirdilər
D) Usta düzəldən
E) Orijinal görunürdü

10. Hansı söz cümlənin mübtədasıdır?

***Onlara enli dəri və ya metal qolbaq geydirdi.***

A) dəri  C) qolbaq  E) cümlədə mübtəda işlənməyib

B) metal  D) onlara

11. Feili birləşməni göstər?

A) Qoluna bağlayan  B) Enli dəri  C) Bəzək əşyası

D) Qol saatı  E) Boyunda gəzdirirdilər.

12. Hansı bənddə feili birləşmə verilib?

A) Düzəltməyə başladı

B) Yaxın vaxtlarda

C) Qiymətli qolbaqlara

D) Zəncirə keçirib

E) Orijinal görünüşdə hazırlayır.

13. Mətnin sonuncu cümləsində "удобный" sözünün tərcüməsi hansı cümlə üzvüdür?

A) mübtəda  B) xəbər  C) təyin  D) tamamlıq  E) zərflik

14. Cümlədəki mübtəda nə ilə ifadə olunmuşdur?

***O, rahatlıq üçün cib saatını ilk dəfə qoluna bağlayan naməlum bir əsgər olmuşdur.***

A) isim  B) sifət  C) say  D) əvəzlik  E) zərf

15. Feili birləşməni göstərin.

A) qol saatı  B) enli dəri  E) usta düzəldən

C) qadın saatı  D) dünya müharibəsi

16. İsmi birləşməni göstərin.

A) orijinal görünəndə  B) hamı sevinəndə  E) rahatlıq üçün

C) qoluna bağlayan  D) xüsusi torbacıq

17. Mətnə hansı sualı vermək olmaz?

A) Qol saatı nə vaxt yaranıb?

B) Əvvəlki saatlar necə şəkildə idi?

C) Hansı konstruksiyalar geniş yayılmadı?

D) Nə üçün idmançılar qol saatlarını taxmaqdan imtina edirdilər?

E) İki qulaqcığı olan saatlar kim tərəfindən düzəldilmişdi?

18. Mətndən verilmiş sözlərdən hansı düzəltmədir?
A) tarixə B) həvəslə C) kiçik D) xüsusi E) müharibəsinin

19. Verilmiş cümlənin neçə üzvü var?
***1918-ci ildə İsveçrə saatsazı Jan Şatnu iki qulaqcığı olan kiçik saatlar düzəltməyə başladı.***
a) 1 mübtəda, 2 xəbər, 2 zərflik, 2 təyin.
b) 1 mübtəda, 1 xəbər, 1 zərflik, 3 təyin, 1 tamamlıq
c) 1 xəbər, 1 təyin, 1 mübtəda
d) 1 zərflik, 1təyin, 1 xəbər, 1 tamamlıq
e) 1 mübtəda, 3 təyin, 3 zərflik

20. Sonuncu cümlədə nöqtənin yerinə hansı hərf yazılmalıdır?
a) r b) n c) y d) ş e) m

**Bu ölkədə hamı şah kimi danışır.**

... Sultan Səlim Şah İsmayılı gətirdiklərini deyəndə çadıra girdi, amma oturmadı. Ayaq üstündə gözünü çadırın qapısına .....

Şah atdan enəndən sonra kölgəsi çadırın ağzına düşdü və içəri girdi...

Bu vaxt Fərhad bəy də çadıra girib Sultan Səlimin qulağına nəsə pıçıldadı. Onun sifəti elə bil işıqlandı. Kinayə ilə Şah İsmayıla baxdı və dedi:

– Gətirin.

Çadıra <u>dəbilqəsi</u> düşmüş, saçları dağılmış Taclıbəyimi gətirdilər.

– Hə, şah, ölkədə kişi tapılmadı ki, qadınları, öz hərəmlərini də döyüşə gətirdin?

Taclıbəyim Şah İsmayılı görüb doluxsundu. Hönkürə-hönkürə dedi:

– Şahım, məni əsir ala bilməyəcəkdilər. Sənin əsir alındığını gördüm qollarım boşaldı.

21. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?
A) yumdu B) baxdı C) dikdi D) örtdü E) açdı

22. Altından xətt çəkilmiş sözün tərcüməsi:
A) шапка B) кепка C) шлем D) панама E) оружие

23. Mətnin birinci cümləsinin mübtədası nə ilə ifadə olunub?
A) isimlə B) mürəkkəb adla C) mürəkkəb sözlə D) sifətlə E) əvəzliklə

24. Mətndəki “hərəm” sözünü hansı sözlə əvəz etmək olar?
A) yoldaşı B) qulluqçusu C) dostu D) arvadı E) sərkərdəsi

25. Cümlədəki feli birləşməni göstər?
"Taclıbəyim Şah İsmayılı görüb doluxsundu."
A) Taclıbəyim B) Şah İsmayılı C) İsmayılı görüb
D) görüb doluxsundu E) Taclıbəyim doluxsundu

26. Cümlələrin birində bütün sözlərin tələffüzü ilə yazılışı fərqlənmir:
A) Cahangir evə sarı addımladı.
B) Dostumun işləri heç də yaxşı getmir.
C) Neftçilər dənizdə yeni buruq qazırdılar.
D) Sirac dənizçilik məktəbini bitirdi.
E) Atam bu zavodda işləyir.

27. Hansı cümlədə ismi xəbər işlənməmişdir?
1. Təbiət gözəldir.
2. Baykal dünyanın ən dərin gölüdür.
3. Hər eşitdiyin sözə inanma.
4. Müəllim müqəddəs varlıqdır.
5. Pis adətlərdən əl çəkin.
A) 3, 5 B) 3, 4, 5 C) 1, 2, 4 D) 1, 2, 3 E) 1, 4

28. "Şagirdlərin imtahan göstəriciləri sevindiricidir" cümləsində hansı cümlə üzvləri işlənmişdir?
A) mübtəda, xəbər
B) zərflik, tamamlıq, xəbər
C) mübtəda, zərflik, xəbər
D) təyin, mübtəda, xəbər
E) təyin, tamamlıq, xəbər

29. "Kimin ki ağlı, bacarığı var, qalib gəlir" cümləsində neçə xəbər var?
A) 1 B) 2 C) heç yoxdur D) 3 E) 4

30. "Qəlbinə dəymək" birləşməsinin antonimi hansıdır?
A) könül bağlamaq
B) qəlbindən keçmək
C) ürəyinə yatmaq
D) könül vermək
E) könlünü almaq

## ÖZÜNÜZÜ YOXLAYIN III

Mətn üzrə işləyin.

**Söyüd kölgəsi**

Kəndin kənarında yol ayrıcında bir yer var idi. Ətraf əkin yeri idi. Burada kiçik bir bulaq var idi. Yolçular yay günü bu bulaqdan su içməmiş, əl-üzlərini yumamış getməzdilər. Ancaq burada bir kölgəlik yox idi ki, yolçular kölgədə oturub dincəlsinlər. ***Salman əmi buna görə yol ağzında bir söyüd ağacı əkdi***, beş il ondan yaxşıca muğayat olub böyütdü.

Cavan və .......... ağac qol-budaq atdığı kimi, çoxdan kök buraxıb, rişəsini suya yetirmişdi. Bulaq suyundan içir, səhər günəşindən işıq, istilik alır, ildən-ilə canlanır, böyüyür, yaşıl budaqlarını yasəmən salxımları kimi yolçuların başına sallayır, kölgəsi ilə çölün havasını sərinlədir, gəlib-gedəni salamlayırdı. Lap kənardan ötən, bulaqdan xəbərsiz yolçular da söyüd kölgəsində sərinləməyə gedirlər. Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xoşhal olurdu.

Mir Cəlal Paşayev

1. Nöqtələrin yerinə hansı sözü yazmaq olar?
A) qoca B) tənha C) çoxlu D) söyüd E) kölgə

2. Altından xətt çəkilmiş sözün tərcüməsi:
A) виноград B) тень C) гроздь D) сирень E) корешок

3. Mətnin I cümləsində mübtəda hansı sözdür?
A) yol B) yer C) kəndin D) bir E) ayrıcında

4. Mətnin I cümləsindəki mübtəda nə ilə ifadə olunub?
A) isim B) sifət C) say D) əvəzlik E) fel

5. Cümlədən hansı sözü çıxarsaq, məna dəyişməz?
**Burada kiçik bir bulaq var idi.**
A) bulaq B) kiçik C) bir D) burada E) var idi

6. Hansı söz birləşməsi deyil?
A) kəndin kənarında
B) Salman əmi
C) buna görə
D) çölün havasını
E) səhər günəşindən

7. Mətndə kursivlə verilmiş cümlədə fərqləndirilmiş ifadə hansı cümlə üzvüdür?
**Salman əmi buna görə yol ağzında bir söyüd ağacı əkdi ...**
A) mübtəda B) xəbər C) təyin D) tamamlıq E) zərflik

8. Cümlədəki feli birləşməni göstərin?

**Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xoşhal olurdu.**

A) Salman kişi
B) bunu görəndə
C) ürəyi böyüyür
D) könlü açılır
E) xoşhal olurdu

9. Verilənlərdən hansı söz birləşməsi deyil?

A) söyüd kölgəsi
B) əkin yeri
C) bulaq var idi.
D) kölgəsində sərinləmək
E) çölün havası

10. Cümlənin hansı sözü xəbərdir?

**Yolçular yay günü bu bulaqdan su içməmiş, əl-üzlərini yumamış getməzdilər.**

A) içməmiş
B) yumamış
C) getməzdilər
D) bulaqdan
E) əl-üzlərini yumamış

11. Hansı feili birləşmədir?

A) səhər günəşi
B) söyüd ağacı
C) kiçik bulaq
D) bulaqdan su içməmiş
E) könlü açılır

12. Cümləni hansı sözlə bitirmək olar?

**Cavan ağac çoxdan kök buraxıb, rişəsini suya ........**

A) çatdırmışdı
B) qaldırmışdı
C) almışdı
D) getmişdi
E) birləşdirmişdi

13. Cümlədəki zərfliyi göstərin:

**Salman kişi bunu görəndə könlü açılırdı.**

A) Salman
B) bunu görəndə
C) könlü
D) açılırdı
E) görəndə

14. Hansı cümlə üzvü mübtədaya aid iş, hal, hərəkət bildirir?

A) mübtəda B) xəbər C) təyin D) tamamlıq E) zərflik

15. Mətnin birinci cümləsində neçə zərflik var?

A) 1 B) 2 C) 3 D) 4 E) 5

16. Hansı feili birləşmədir?

A) yol ayrıcında
B) lap kənardan
C) ürəyi böyüyür
D) kənardan ötən
E) yasəmən salxımları

17. Mətnin məzmununa aid olmayan fikir hansıdır?

A) Salman əmi kəndə bulaq çəkdirmişdi.

B) Salman əmi beş ilə ağacı böyütdü.
C) Söyüd ağacı insanlara kölgəlik yaratdı.
D) Yoldan keçənlər ağacın kölgəsində sərinlənərdilər.
E) Söyüdün budaqları salxım kimi sallandı.

18. Feili birləşmə hansıdır?
A) yay günü C) kəndin kənarı E) yaşıl budaqları
B) əkin yeri D) yoldan keçənlər

19. Mətnin məzmununa hansı atalar sözü uyğun gəlir?
A) Ağac bar verəndə başını aşağı sallayar.
B) İşləməyən dişləməz.
C) İş insanın cövhərdir.
D) Tikmədim özüm qalam, tikdim ki, izim qala.
E) El gücü, sel gücü.

20. Mətnin sonuncu cümləsində hansı cümlə üzvü həmcinsdir?
A) mübtəda B) xəbər C) təyin D) tamamlıq E) zərflik

**Sumqayıt**

Bəzi dilçilər belə bir mülahizə irəli sürürlər ki, "Sumqayıt" adı "su" və "qayıt" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu ad Sumqayıt çayının suyunun quraqlıqla əlaqədar yayda azalması, payızda isə yağışlar zamanı çoxalması ilə bağlıdır.

Başqa rəvayətə görə, keçmişdə bir nəfər zadəgan qadın xeyir-xahlıq edərək quraq yerləri suvarmaq məqsədilə həmin çayın səmtini dəyişmişdir. Nəhayət , belə bir fikir də var ki, "Sumqayıt" qədimdə bu yerlərdə məskən salmış "sumqat" tayfasının adından alınmış sözdür.

21. Mətnin neçənci cümləsində ilin fəsillərinin adı çəkilmişdir?
a) 1 b) 2 c) 3 d) 4 e) heç birində

22. Mətndə işlənmiş hansı söz səhv yazılmışdır?
a) quraqlıq b) xeyir-xahlıq c) yağış d) mülahizə e) məskən

23. Hansı sözü "oba" sözü ilə əvəz etmək olar?
a) yer b) tayfa c) məskən d) Sumqayıt e) səmt

24. Mətndə altından xətt çəkilmiş söz hansı sahəyə aiddir?
a) tibb b) təhsil c) elm d) tikinti e) incəsənət

25. “xeyirxahlıq” sözünün dəqiq tərcüməsi hansı variantdadır?

a) Искренность  в) доброжелательность  c) справедливость

d) скромность  e) нежность

26. “*Bu günün işini sabaha qoyma*” atalar sözünün mənası hansı bənddəki fikrə uyğun gəlir?

a) Без труда не вынешь и рыбку из пруда

b) Не оставляй на завтра, то что можно сделать сегодня

c) Труд украшает человека

d) После драки кулаками не машут

e) Завтра-завтра, не сегодня, так ленивцы говорят

## İlk avtomobil

1886-cı ildə alman ixtiraçısı Karl Benz ilk dəfə olaraq mühərriklə işləyən maşın-avtomobil yaratdı. O dövrdə bu maşına atsız ekipaj deyirdilər. Karl Benzin avtomobili saatda 16 km yol qət edə bilirdi. Elə həmin il başqa bir ixtiraçı – Qotlib Daymler dördtəkərli avtomobilini yaratdı. <u>Bir müddət sonra ixtiraçıların hər biri öz avtomobil zavodunu işə saldı.</u>

Düz 40 ildən sonra “Daymler” və “Benz” şirkətləri birləşərək “Daymler-Benz” adlanmağa başladı. Bu şirkət indiyə qədər dünyanın aparıcı avtomobil şirkətlərindən biri sayılır. Şirkətin buraxdığı avtomobillər isə “Mersedes-Benz” adlanır.

Bəs nəyə görə “Mersedes”?

1899-cu ildə avtomobil həvəskarı Emil Yelinsk “Daymler” maşınında ilk avtomobil yarışında qalib gəldi. Bundan sonra o, “Daymler” zavoduna 36 ədəd avtomobil sifariş etdi.

Razılaşmaya əsasən zavodun buraxdığı avtomobillərə “Mersedes” adı verildi. Mersedes Emil Yelinskin qızı idi. O zaman Mersedesin 10 yaşı var idi.

Bu gün “Mersedes” dünyada ən çox alınan avtomobillərdən biridir.

27. Altından xətt çəkilmiş cümlənin dəqiq tərcüməsi hansıdır?

a) Через год один из изобретателей открыл завод автомобиля

b) Спустя год начал работать завод автомобиля

c) Все изобретатели открыли завод автомобиля

d) Через некоторое время каждый из изобретателей открыл свой завод автомобиля

e) Через определенное время каждый из изобретателей открыл свой завод.

28. «любитель» sözünün tərcüməsi hansıdır?

a) ixtiraçı  b) həvəskar  c) sahib  d) sürücü  e) qalib

29. Emil Yelinsk kimdir?
a) alim b) ixtiraçı c) idmançı d) sahibkar e) həvəskar

30. Daymler dördtəkərli avtomobili nə vaxt yaratdı?
a) Bens avtomobilindən əvvəl
b) 1886-ci ildə
c) 1899-cu ildə
d) ili məlum deyil
e) əsrin əvvəllərində

## ÖZÜNÜZÜ YOXLAYIN IV

Mətn üzrə işləyin.

### Zərdüşt

Otuz yaşlı Zərdüşt səhərdən payız meşəsinə baxa-baxa düşünürdü. Birdən-birə bu saysız-hesabsız ağaclar, yarpaqlar onun gözlərində canlı varlıqlara – ........ çevrildi. İnsanlar bu yarpaqlar kimidir. Əvvəl təravətli, yumşaq olur. Sonra get-gedə bərkiyib quruyur. Nəhayət, məhv olur.

On ildən bəri vətənində tənhalığa çəkilən, atadan qalan sərvəti, mülkü, hər şeyi atıb mağaraya çəkilən Zərdüşt dünəndən bəri sanki tamam dəyişmişdi. On illik yuxusuz gecələrinin, gərgin düşüncələrinin bəhrəsi olan "Avesta" indi onun üçün gərəksiz görünürdü...

O, düşüncələr içində yavaş-yavaş gəlib bir çayın kənarında dayandı. Dörd adam çayı keçmək barədə mübahisə edirdi. Zərdüşt bir az onlara qulaq asdı. Sonra dedi:

– Gəlin, keçin. Mübahisə etməyin!

– Necə keçək?

Onlar gülməyə başladılar. Zərdüşt əlini qaldırıb çaya sarı uzatdı. Çay ikiyə bölündü. Zərdüşt sakitcə o taya keçdi. Möcüzə görmüş adamlar qorxa-qorxa çayı keçib dayandılar.

Zərdüşt yenə əlini qaldırdı. Ram olmuş çay gurultu ilə axıb getdi...

1. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?
a) ağaclara b) çiçəklərə c) insanlara d) çaylara e) yarpaqlara

2. Altından xətt çəkilmiş sözün tərcüməsi:
a) уединиться  b) уехать  c) жить один  d) грустно жить
e) жить в семье

3. Mətnin birinci cümləsinin mübtədası nə ilə ifadə olunub?
a) sifətlə  b) sayla  c) əvəzliklə  d) isimlə  e) söz birləşməsi ilə

4. Mətndə "gərəksiz" sözünü hansı sözlə əvəz etmək olar?
a) vacib  b) mənalı  c) lazımsız  d) dəyərli  e) qiymətli

5. Cümlədəki feili birləşməni göstərin.
*"Otuz yaşlı Zərdüşt səhərdən payız meşəsinə baxa-baxa düşünürdü"*:
a) otuz yaşlı  b) səhərdən payız  c) payız meşəsinə baxa-baxa
d) baxa-baxa düşünürdü  e) payız meşəsinə

6. Hansı söz birləşməsi deyil?
a) canlı varlıqlar  b) mübahisə etmək  c) gərgin düşüncələr
d) yuxusuz gecələr  e) çayın kənarı

7. Cümlənin xəbəri nə ilə ifadə olunub?
"İnsanlar da yarpaqlar kimidir"
a) əvəzliklə  b) sifətlə  c) qoşmalı sözlə
d) fellə  e) qoşma ilə

8. *"Bu sözü sizə deyirəm ha..."* cümləsindəki "ha" sözü ədatın mənaca hansı növünə daxildir?
a) məhdudlaşdırıcı  b) arzu  c) dəqiqləşdirici
d) qüvvətləndirici  e) əmr

9. 2-ci cümlədə məntiqi vurğulu sözü göstərin.
*Mal-qara özünü kölgəyə vurub kövşəyir, quşlar budaqlarda gizlənir, itlər dilini bir qarış çıxararaq ləhləyirdi.*
a) kövşəyir  b) budaqlarda  c) gizlənir
d) bir qarış çıxararaq  e) quşlar

10. *"Mənim adım Ələsgərdir"* cümləsində mübtəda nə ilə ifadə olunub?
a) ismi birləşmə ilə
b) feli birləşmə ilə
c) qoşmalı sözlə
d) isimlə
e) əvəzliklə

11. Hansı birləşmənin hər iki tərəfi isimdir?
a) çoxmərtəbəli bina, çətin suallar, incə bel
b) daş ev, yeddi qardaş, qızıl üzük
c) dəmir qapı, əmim Kərim, taxta döşəmə
d) kiçik qayıq, milyonlarla adam, arxalı köpək
e) üç badam, qaşsız üzük, döyüşən şəhər

12. Antonim sözlərin cərgəsini göstərin.
a) sevinc-kədər, qəm-qüssə
b) el-oba, yurd-yuva
c) xeyir-şər, oğul-uşaq
d) əziz-hörmətli, tünd-açıq
e) ağ-qara, tez-gec

13. Hansı cərgədəki sifətlər quruluşca sadədir?
a) sınıq, xarici, badamı
b) kəsik, dairəvi, xurmayı
c) soyuq, elmi, sıravi
d) yumşaq, bədii, mədəni
e) böyük, tibbi, kütləvi

14. "Səlahiyyət" sözünün tərcüməsini göstərin.
a) Полномочие
b) Опрятность
c) Результат
d) Путеществие
e) Преданность

15. Hansı cümlədə "danış" sözünün əvəzinə "söylə" işlətmək olmaz?
a) Mənimlə bu barədə çox danış.
b) Dərsi yaxşı danış.
c) Sən də gördüklərini danış.
d) Əvvəl düşün, sonra danış.
e) Danış görək məqsədin nədir?

16. "Ömrün uzun olsun!", "Canın sağ olsun", "Bəxtin ağ olsun!" nümunələri nitq etiketlərinin hansı növünə aiddir?
a) alqış b) görüşmə c) müraciət d) təbrik e) ayrılma

17. Bu əməli yazı nümunəsi sinif iclasında tərtib edilir:
a) bildiriş b) teleqram c) arayış d) məktub e) protokol

18. Sıra saylarının yazılışında səhv variantları göstərin.
1. 5-inci gün 2. 5-ci otaq 3. V əsr 4. V-nci sinif 5. V-ci əsr
a) 1, 2, 4 b) 1, 4, 5 c) 2, 5 d) 3, 5 e) 2, 4

19. Cümlədə hansı durğu işarəsi buraxılmşdır?
**Onlar əsl ovlağa ceyran düzünə gəlib çatdılar.**
a) tire b) mötərizə c) vergül, tire d) iki vergül, tire e) iki vergül

20. Hansı bənddəki sözü "elan" sözü ilə əvəz etmək olar?
a) ərizə b) bildiriş c) çağırış d) arayış e) protokol

## Xəzər Bakının aynasıdır

Günəş sularda bərq vuranda Xəzər Bakının başına pərvanə kimi dolanır. Təbiət Xəzəri Bakıya ........... yaratmışdır. Gündüzləri əlvan, gecələri çıraqban Bakı Xəzərdə əks olunanda daha da gözəlləşir.

Dənizdən əsən xəzrisi və ya gilavarı <u>səngiyəndə</u> Bakının təbiəti mehriban və mülayim olur. Belə vaxtlarda insanların üzündən sevinc , səadət, bəxtiyarlıq əskik olmur.

Xəzərdən xəzri və ya gilavar əsəndə isə Bakı coşan, hayqıran, çarpışan pələnglər şəhərinə bənzəyir.

Dəli küləklər əsdimi, deməli, Bakıda qışdır. Soyuq havalar başalıyır. Bu cür havalar insanların xasiyyətinə də öz təsirini göstərir. Soyuqqanlılıq, əsəbilik, tələskənlik halları hərəkətlərində, bir-birinə münasibətlərində müşahidə olunur.

21. Nöqtələrin yerinə hansı sözü yazmaq lazımdır?
a) su vermək b) yaraşıq vermək üçün c) sərinlik vermək
d) sərvət vermək e) şöhrətli olmaq üçün

22. Altından xətt çəkilmiş sözün tərcüməsi:
a) утихающий b) северный ветер c) южный ветер d) хладнокровность

23. Mətndə "hayqıran" sözünü hansı sözlə əvəz etmək olar?
a) qışqıran b) sakitləşən c) vuruşan d) çalışan e) ləpələnən

24. Mətnin birinci cümləsinin mübtədası hansıdır?
a) Bakının b) pərvanə c) günəş d) Xəzər e) Bakının başına

25. Mətndə hansı sualın cavabı öz əksini tapmayıb?

a) Dənizdən Bakıya hansı küləklər əsir?

b) Bakıda nə zaman qışdır?

c) Soyuq havalar Bakı sakinlərinin xasiyyətinə necə təsir edir?

d) Hansı fəsildə Bakı sakinlərinin üzündən sevinc, səadət,bəxtiyarlıq əskik olmur?

e) Bakıda küləklər nə zaman səngiyir?

26. Biri həmcins üzvlərə aiddir:

a) Sadalama intonasiyası ilə deyilirlər.

b) İki və daha artıq sadə cümlənin birləşməsi yolu ilə yaranırlar.

c) Məna əlaqələri üzrə qruplaşırlar.

d) Baş və budaq cümlələrə ayrılırlar.

e) Cümlə üzvü olmurlar.

27. Hansı cumlədə təyin işlənib?

a) Vətənimiz genişdir

b) Anan lap mərhəmətlidir

c) O çox səliqəli qızdır

d) Evimiz əcəb rahatdır

e) El bilir ki, sən mənimsən

28. Elə insandır ki, .... cümləsini feili xəbərli cümlə ilə davam etdirin.

a) Hamı ona inanır

b) Çox mərhəmətlidir

c) Hamının sevimlisidir

d) Çoxlarına yaxındır

e) Gözəlliyinə heyranam

29. Biri əvəzlik deyil:

a) çünki b) kim c) nə zaman d) hansı e) nə qədər

30. Feili birləşmə deyil:

a) dəniz dalğalananda

b) torpaqdan yaranmış

c) dərdə qalib gəlmək

d) könlüm şeir istəyir

e) həyat davam etdikcə

## DƏRSDƏ İSTİFADƏ ETMƏK ÜÇÜN ƏLAVƏ MƏLUMATLAR

**MİLLİ ORDUNUN YARANMA TARİXİ.**

1918-ci ilin may ayının 28-də qəbul edilmiş Azərbaycan Demokratik Respublikasının İstiqlal bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur. Bu zərurətlə bağlı 1918-ci ilin may ayının 28-də yaradılan ilk kabinədə Azərbaycan hökumətinin müdafiə naziri vəzifəsinə general Xosrov bəy Sultanov təyin edildi. Azərbaycan Demokratik Respublikasının ordu quruculuğu haqqında tədbirlər planına müvafiq olaraq 1919-cu il noyabr ayının 1-nə qədər ordunun ən mühüm struktur bölmələri və hissələri yaradılıb başa çatdırılmalı idi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığı ilk dövrlərdə onun hərbi qüvvələri 600 nəfərlik könüllü dəstələrdən ibarət idi. Hökumət 1918-ci il iyunun 19-da ölkə ərazisində hərbi vəziyyət elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə “Vəhşi diviziya” (“Дикая дивизия”) adlanan keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan “Əlahiddə Azərbaycan korpusu” yaradıldı. İyulun 11-də hökumət fərmanı ilə hərbi səfərbərlik elan edildi. Azərbaycan Respublikasının 1894-1899-cu illərdə anadan olmuş bütün müsəlman vətəndaşları orduya hərbi qulluğa çağırıldılar.

1920-ci ildə Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın hərbi nazirliyi rəsmən ləğv edilərək, həmin funksiya Xalq Hərbi Komissarlığına verilmiş, Azərbaycan ordusunun 21 generalından 15-i bolşeviklər tərəfindən güllələnmişdi. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra, 1991-ci ilin sentyabrında Ali Sovetin qərarı ilə Müdafiə Nazirliyi, oktyabrın 9-da isə qarşıdakı 3 ay ərzində Azərbaycan Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul edildi.

1992-ci ilin yanvar ayında Azərbaycan Ordusu özünün ilk əməliyyatını həyata keçirdi. Şuşa şəhəri yaxınlığındakı Daşaltı kəndini ələ keçirmək məqsədilə həyata keçirilən Daşaltı əməliyyatı uğursuzluqla nəticələndi. Yayda 1992-ci il Azərbaycan Müdafiə Nazirliyinin komandanlığının rəhbərliyi altında desant qoşunları yaradıldı və Xəzərdə hərbi donanmanın komplektləşdirilməsi başa çatdırıldı. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr

tarixli Fərmanı ilə oktyabrın 9-u Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edildi. Lakin, 22 may 1998-ci il tarixli prezident fərmanı ilə həmin fərman qüvvədən düşürülərək 26 iyun tarixi Silahlı Qüvvələr günü elan edilmişdir. 1997-ci ilin yanvarında Azərbaycan sülhməramlı qüvvələri yaradılmışdı.

## AZƏRBAYCAN GENERALLARI

### ƏLİAĞA ŞIXLİNSKİ

Əliağa Şıxlinski 1865-ci il martın 3-də Yelizavetpol quberniyasının Qazax qəzasının Qazaxlı (indiki Aşağı Salahlı) kəndində anadan olmuşdur. Anası Şah Yəmən xanım Qayıbova məşhur şair Molla Vəli Vidadinin nəvəsi idi.

1883-cü ildə rus ordusunda hərbi xidmətə başlayan Şıxlinski 1886-cı ildə Peterburq artilleriya məktəbini əla qiymətlərlə bitirdi. 1904-1905-ci illər rus-yapon müharibəsində batareya komandiri kimi vuruşdu. Port-Artur qalasının müdafiəsi zamanı xüsusi şücaət göstərdiyinə görə “Qızıl qılınc”la mükafatlandırıldı.

Müharibədən sonra topçu zabitlər hazırlayan məktəbdə yüksək ixtisaslı hərbçi kimi dərs deməyə başlayan Şıxlinski 1908-ci ildə polkovnik rütbəsi aldı. Hərb elminin daha da dərindən mənimsənilməsi üçün yazdığı, dərs vəsaiti kimi istifadə edilən “Səhra toplarının cəbhədə işlədilməsi” əsəri 1910-cu ildə çap olundu. Bundan əlavə, onun “Şıxlinski üçbucağı”, “Şıxlinski formulu” adlı hərbi yenilikləri topçu zabitlər üçün hazırlanmış dərsliklərə daxil edildi. Bütün bu xidmətlərinə görə gənc hərbçiyə 1912-ci ildə general-mayor rütbəsi verildi. Beləcə, o, çar ordusunun aparıcı mütəxəssislərindən birinə çevrildi.

1914-cü ildə baş verən Birinci dünya müharibəsi zamanı Petroqradın artilleriya müdafiəsi general Əliağa Şıxlinskiyə tapşırıldı. Sonralar Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrından isə 10-cu ordunun komandanı təyin olundu.

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Əliağa Şıxlinskini vətəninə qayıtmağa məcbur etdi. 1918-ci ilin dekabr ayında artilleriya general-leytenantı Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

1920-ci il aprel ayının 27-də imperiya ordusu Azərbaycanı işğal edəndə

Səməd bəy Mehmandarov xəstə olduğu üçün nazir vəzifəsini Əliağa Şıxlinski icra edirdi. Vuruşmağın mümkünsüz olduğunu nəzərə alan Şıxlinski minalanmış körpülərin partladılmasına icazə vermədi və yeni sovet hökuməti digərlərindən fərqli olaraq Əliağa Şıxlinskiyə toxunmadı.

## SƏMƏD BƏY MEHMANDAROV

Səməd bəy Mehmandarov 1855-ci il oktyabrın 16-da Lənkəranda anadan olmuşdur. Bakıda gimnaziya təhsili almış, 16 yaşında Peterburqda yerləşən II Konstantinovka artilleriya məktəbinə daxil olmuşdur. 1875-ci ilin dekabrında podporuçik rütbəsi almış və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilmişdir. 1890-cı ildə kapitan , 1898-ci ildə podpolkovnik, 1901-ci ildə polkovnik, 1904-cü ildə general-mayor rütbəsi almışdır. Rus-Yapon müharibəsində böyük rəşadət göstərmiş S.Mehmandarova 1908-ci ildə tam artileriya generalı rütbəsi verilmişdir.

Birinci Dünya müharbəsi başlanarkən Varşava ətrafında xidmət edən general S.Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyasının tərkibində dörd alay var idi: 81-ci Abşeron alayı, 82-ci Dağıstan alayı, 83-cü Samur alayı və 84-cü Şirvan alayı. Visla çayı yaxınlığındakı İvanqorod rayonunda da 21-ci diviziya, 52-ci piyada diviziyası tərkibində 205-ci Şamaxı və 206-cı Səlyan alayları da var idi.

Diviziya komandiri S.Mehmandarov Lodz istiqamətində aparılmış döyüşdə alman generalı Makenzonun ordusu üzərində qələbə əldə etmişdir.

1915-ci ildə general S. Mehmandarov korpus komandiri təyin edilmişdi. 1917-ci ilin əvvəlində Rusiyanın bütün hərbi ordenləri ilə, eləcə də İngiltərənin, Fransanın, Rumıniyanın bir neçə hərbi ordenləri ilə təltif edilmişdi.

1917-ci il fevral burjua inqilabı baş verərkən S.Mehmandarov Qafqazda idi. Həmin ilin aprel ayında o, vəzifəsini həmişəlik tərk edib istefaya çıxmış, bir müddət Vladiqafqaz şəhərində yaşamış, sonra Azərbaycana gəlmişdir.

General S.Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti hökümətində 1918-ci ilin 25 dekabrından Hərbi Nazir vəzifəsini tutmuş və müstəqil Azərbaycanın qısa müddətdə 30 minlik ordusunu yaratmağa nail olmuşdu. 1919-cu ilin yazında ingilis hərbi hissələri Azərbaycanda olduğu dövrdə Hərbi Nazir S.Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti hökuməti başçısı

Nəsib bəy Yusifbəyliyə göndərdiyi rəsmi məktubda bildirmişdi ki, İngilis hərbi dəstələri Azərbaycanda məskun olduqları yerlərdə talanlar edir, kəşfiyyat işi aparırlar. Bunlara etiraz olaraq S.Mehmandarov İngiltərə hökumətinin Birinci Dünya müharibəsi illərində ona verdiyi ordenləri İngiltərə hökumətinə qaytarmağı Azərbaycan hökumətindən xahiş etmişdi.

Sovet hakimiyyəti qurulduqdan sonra Nəriman Nərimanovun şəxsi zəmanəti əsasında hərbi fəaliyyətini davam etdirmiş və Azərbaycanda yaradılmış hərbi komandirlər məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir. Qafqaz ordusunun komandiri olmuş Birinci dərəcəli Ordu komandiri İ.Ç.Yakir 1925-ci ildə yazmışdı: “Mehmandarov nadir artilleriyaçıdır”.

General Səməd bəy Mehmandarov 1924-1927-ci illərdə Azərbaycanda hərbi sahədə aparılan geniş islahatlarda və tədbirlərdə fəal iştirak etmişdir.

1928-ci ildə general S.Mehmandarov səhhətinə görə orduda xidmətdən tərxis olunmuş və ona fərdi dövlət təqaüdü verilməsi müəyyən edilmişdi.

General-polkovnik S.Mehmandarov dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. O, türk və fars dillərini yüksək səviyyədə bilirdi. Ömrünün son üç ilində islam tarixi və fəlsəfə ilə məşğul olmuşdur.

General Səməd bəy Mehmandarov 12 fevral, 1931-ci ildə Bakıda vəfat etmişdir.

## HƏZİ ASLANOV

İkinci dünya müharibəsi başlananda o Ukraynada xidmət edirdi. 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə Həzi özünü bacarıqlı sərkərdə kimi göstərdi. O öz döyüşçüləri ilə Donbas ətrafında düşmənin şiddətli hücümlarını düz beş ay dəf etdi, onu ağır tələfata uğratdı. 1941-ci ilin dekabrında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə Qırmızı Ulduz ordeninə layiq görüldü. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə Həzinin başçılığı ilə 55-ci tank briqadasının tankçıları düşmənə ağır zərbələr endirdilər. Aslanovun tankçıları vuruşa–vuruşa 40 km-dən artıq yol gedib Stalinqrad-Salsk dəmir yolunu tutub almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum etdilər. Tanklar düşmənin xeyli qüvvəsini və texnikasını sıradan çıxardı.

Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığında gedən döyüşlərdə

böyük şücaət göstərdilər. Düşmənin 30 əks-hücumunu dəf etdilər, bir batalyon piyada qoşunu, 30 tankı, 50 avtomobili sıradan çıxartdılar. Bu döyüşdə göstərdiyi şücaətə görə podpolkovnik H.Aslanov 1942 –ci il 22 dekabrda Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. O daim öz hərbi biliyini artırmağa səy göstərirdi. 1943-cü il dekabrın 17-dən 1944-cü il aprelin 6-na kimi o Zirehli tank qoşunları Akademiyasının birillik təhsil proqramını 3 aya mənimsədi. Sonra o yenidən doğma 35-ci qvardiya tank briqadasına qayıtdı. 1944-cü il 13 martda ona tank qoşunları general mayoru adı verildi. 1944-cü il iyunun axırlarında Belorusiya və I Pribaltika cəbhəsinin qoşunları hücuma keçdilər. Belorusiyanın iri şəhər və dəmiryollarını azad etdikdən sonra Aslanovun tankları Vilnüsə hücumları davam etdirdilər. Aslanovun briqadası iyunun 24-dən iyulun 13-dək düşmənə ağır zərbələr endirdi. Bu döyüşdəki qələbəyə görə 35-ci qvardiya tank briqadası Qımızı bayraq ordeninə, general özü isə ikinci dərəcəli Suvorov ordeninə layiq görüldü.

1944-cü il avqustun 1-də Aslanovun briqadası başqa ordu hissələri ilə birlikdə Yelqava şəhərini düşməndən təmizlədilər. O, Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı sərkərdə, fitri istedad sahibi kimi göstərmişdi. Təkcə 1944-cü ilin hücum döyüşləri dövründə 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür almışdır.

Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən kapitan Aslanov Moskva ətrafındakı vuruşmalarda (1941) göstərdiyi igidliyə və komandanlığın tapşırığını ləyaqətlə yerinə yetirdiyinə görə Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir. O, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir.

Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı vermək haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanında yazılmışdır ki, cəbhə komandanlığının döyüş tapşırığını nümunəvi surətdə yerinə yetirdiyinə, bu işdə qəhrəmanlıq və şücaət göstərdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə görə Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verilir. Aslanovun polkuna isə qvardiya adı verilmişdir. Aslanovun polku Rostov, Taqanroq şəhərlərinin azad olunmasında və Kursk vuruşmasında fəal iştirak etmişdir.

1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belarusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi.

# MƏHSƏTİ GƏNCƏVİ

Məhsəti xanımın tərcümeyi-halında qəti müəyyənləşmiş səhifələr olduqca azdır. Şairənin yaradıcılığı və həyatı ilə bağlı faktlar Rəfael Hüseynovun şairəyə böyük məhəbbətlə və yüksək peşəkar ustalıqla qələmə aldığı "Məhsəti necə varsa" kitabında toplanmışdır.

Məhsəti Gəncəvi təqribən 1089-cu ildə Gəncə şəhərində doğulmuş və ömrünün sonuna qədər burada yaşamışdır. Onun əsl adı Mənicə idi, Məhsəti adını isə özünə ədəbi təxəllüs kimi götürmüşdü. Həmin təxəllüsün mənşəyi barədə bir neçə rəvayət vardır. Bunlardan birində deyilir ki, guya Sultan Səncərlə söhbətlərindən birində Mənicə öz mühitində hamıdan kiçik və görünməz olduğunu söyləyir. Sultan isə onunla razılaşmayıb deyir ki,"to, meh-həsti" (yəni, "sən hamıdan böyüksən"). Və guya "meh-həsti"-"məhsəti"yə çevrilib, onun təxəllüsü olur. Abbasqulu ağa Bakıxanovun "Gülistani-İrəm" əsərinin "Nəticə" adlanan hissəsində irəli sürülmüş fərziyyəyə görə, "Məhsəti" "mah" və "səti" olmaqla iki sözdən ibarətdir və "böyük xanım" anlamına gəlir.[3] Nəhayət, başqa bir ehtimala əsasən, bu ad "Mah" və "səti" ("Ay xanım") sözlərindən düzəlib (Nizami Gəncəvinin Məhin Banusu ("Xosrov və Şirin") da bunun analoqudur).

Məhsəti yaxşı təhsil almış və əsərlərindən də göründüyü kimi, aşağıdakı şəhər və vilayətlərdə olmuşdur: Rum, Mərv, Bəlx, Nişapur, Herat, Gəncə, Xorasan, İraq, Zuzən, Arran və s. Bir müddət o, böyük Sultan Səncərin sarayında yaşamış, onun qəbullarında və burada keçirilən ədəbi məclislərdə iştirak etmişdir. Deyilənlərə görə, Sultan Səncərin diqqətini onun gözlənilmədən yağan qar haqqında bədahətən söylədiyi bir rübai çəkmişdir: "Göylər sənə gümüşü xalça göndərib ki, atının nalı bulanmasın." Sultan bu rübaini eşitdikdən sonra şairəni "Mə-histi" ("Ən böyük") adı ilə mükafatlandırmış və onu öz yaxın əhatəsinə qəbul etmişdi. Məhsəti ömrünün çox hissəsini Gəncədə keçirmiş, Sultan Məhəmmədin və onun oğlu Sultan Mahmudun saray həyatında yaxından iştirak etmişdi.

Böyük şairənin həyatı barədə məlumatlar əsasən əlyazma nüsxələri Azərbaycan Əlyazmalar institutunda, İstanbulda və Londonda saxlanan XIII əsrə aid edilən "Məhsəti və Əmir Əhməd" dastanından götürülür. Azərbaycan ədəbiyyatşünaslarının son tədqiqatları göstərir ki, "Dastan"ın müəllifi XIII əsrdə yaşamış Azərbaycan şairi və alimi Abdulla Cövhəri Zərgər Təbrizidir və buradakı qəhrəmanlar, o cümlədən şair Əmir Əhməd, Gəncə şahı (Sultan Məhəmməd) və II Gəncə şahı (Sultan Mahmud) real şəxsiyyətlərdir.

## NİZAMİ GƏNCƏVİ

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Lakin Şərq təzkirəçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şeirlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şerlər yazmış, sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şeirlərində ifadə etmişdir.

Nizami Gəncəvi lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir.

Lakin Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 poemadan ibarət “Xəmsə” (“Beşlik”) müəllifi kimi daxil olmuşdur. 1177-ci ildə bitirdiyi “Məxzənül-əsrar” (“Sirlər xəzinəsi”) adlı ilk poeması şairə böyük şöhrət qazandırmışdır. III Toğrulun sifarişi ilə qələmə aldığı “Xosrov və Şirin” poemasını 1180-cı ildə bitirmiş və Məhəmməd Cahan Pəhləvana göndərmişdir. Cahan Pəhləvanın ölümündən sonra taxta çıxan Qızıl Arslan Gəncənin yaxınlığında öz çadırında şairlə görüşmüş və onun nəsihətlərini dinləmiş, şairə Həmdünyan adlı bir kənd bağışlamışdır. 1188-ci ildə Şirvan hökumdarı I Axsitan şairə “Leyli və Məcnun” mövzusunda bir əsər yazmağı sifariş etmişdir. Nizami Gəncəvi bundan boyun qaçırmaq istəsə də oğlunun təkidi ilə təklifi qəbul edib az müddətdə “Leyli və Məcnun” poemasını (Şərqdə ilk dəfə) yaratmışdır. 1196-cı ildə Əlaəddin Körpə Arslanın adına “Yeddi gözəl” əsərini, nəhayət, ömrünün sonlarına yaxın bütün ədəbi-estetik, ictimai-fəlsəfi görüşlərini yekunlaşdırdığı “İsgəndərnamə” (təqr. 1203) poemasını qələmə almışdır.

Nizami Gəncəvinin ilkin Şərq Intibahının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümümbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Nizami Gəncəvi həm də vətənpərvər idi. O, təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, vətənin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır. Nizami Gəncəvi yaradıcılığında vətən məhəbbəti doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir.

Nizami əsərlərini fars dilində yazmışdır. O, türk dilində yazmamasını "Leyli və Məcnun" əsərində özünə qüsur tutmuş, sonra "Yeddi gözəl"də bu məsələyə bir daha toxunmuşdur:

Dilçə şeirimizdə olsa da kəsir,
Mənaca böyükdür ondakı təsir.
Nizami Gəncəvi[4]

Nizami Gəncəvi Gəncədə anadan olub. Nizami Gəncəvinin yaradıcılığı hümanizm, yüksək sənətkarlığı ilə Zaqafqaziya, Yaxın Şərq xalqları (fars, tacik, hind, əfqan, kürd, türkmən, özbək, qazax, qırğız və s.) ədəbiyyatlarının inkişafına güclü təsir göstərmiş, dünya mədəniyyəti xəzinəsinə daxil olmuşdur.

Nizami Gəncəvinin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri bir çox şəhərlərin (Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd,Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və s.) məşhur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılır.

Gəncədə dəfn olunduğu yerdə Nizami Gəncəvinin möhtəşəm məqbərəsi ucaldılmışdır.

## İMADƏDDİN NƏSİMİ

Nəsiminin həyatı haqqında geniş məlumat mövcud deyil. Mənbələrin əksəriyyəti onun adını İmadəddin kimi göstərir, ancaq Nəsiminin əsl adının Əli və Ömər olduğunu qeyd edən mənbələr də vardır. Bir çox tədqiqatçılar onun Şamaxıda, başqaları isə Bursada, Təbrizdə, Bakıda, Diyarbəkirdə və hətta Şirazda anadan olduğunu iddia edirlər.

Şairin atası Seyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da olub. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şerlər yazdığı və hazırda bu adla tanınan qədim qəbristanlıqda basdırıldığı məlumdur. İslamdan sonrakı dövrdə Şamaxı iri mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Burada çoxlu məktəb, mədrəsə, bütün Şərqdə məşhur olan

şeir və musiqi məclisləri fəaliyyət göstərirdi, zəngin ictimai və şəxsi kitabxanalar mövcud idi. Paytaxtdan bir qədər kənarda, Məlhəm adlanan yerdə məşhur şair Xaqani Şirvaninin əmisi - alim və həkim Kafiəddin tərəfindən yaradılmış Dar-üş-şəfa tibb akademiyası da fəaliyyət göstərirdi. Nəsiminin məktəb illəri belə bir mühitdə keçib.

Nəsimi dövrünün görkəmli ariflərindən müvafiq elmlərdən təhsil aldıqdan sonra hürufi Fəzlullah Nəiminin xidmətinə girmiş, onun tərbiyə və təlimlərindən bəhrələnmişdir. Səfərlərinin hamısında özünün şeyx mürşidi Nəimi ilə yol yoldaşı olmuş və onun qızı ilə evlənmişdir.

Şairin əsərlərinin təhlili göstərir ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı universitetlərinin tələbinə cavab verəcək bir dərəcədə kamil təhsil ala bilib. O, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəmiş, islamın və xristianlığın əsaslarına yaxından bələd olmuş, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən yiyələnmişdi. O, dilləri elə yaxşı öyrənmişdi ki, Azərbaycan, fars və ərəb dillərində eyni dərəcədə gözəl şeirlər yaza bilirdi. Onun azərbaycanca şeirlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Nəsiminin rübailəri Azərbaycan xalq şeiri nümunələri olan bayatılara çox yaxındır.

Nəsiminin poeziyasında Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin məşhur alim və şairlərinin adları tez-tez xatırlanır. Bunlardan Əli ibn Sinanı, Xaqanini, Nizamini, Fələkini, Həllac Mənsuru, Fəzlüllah Nəimini, Şeyx Mahmud Şəbüstərini, Övhədi Marağayini və başqalarını göstərmək olar.

Hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Nəsiminin edamı haqqında İbn əl-İmad Hənbəli yazır: “O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi”.

Nəsimi öz ideyalarını peşəkar filosof kimi ayrıca traktatlarda bitkin sistemdə verməyib, çünki Miyanəcinin, İbn Ərəbinin geniş əhatəli sufi-fəlsəfi əsərlərindən sonra bu məzmunda traktatlar yazmağa o zaman bəlkə də ehtiyac duyulmurdu. Hürufiliyin nəzəri əsaslarına gəldikdə, Nəiminin əsərlərində o artıq işlənib hazırlanmışdı.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna Nəsiminin adı verilmişdir.

## ŞAH İSMAYIL XƏTAYİ

Şah İsmayıl 1487-ci il 17 iyulda Ərdəbil şəhərində anadan olmuşdur. Şeyx Səfiəddin nəslindəndir, atası Şeyx Heydər, anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah Həlimə bəyimdir.

1488-ci il 9 iyulda atası Şeyx Heydər Tabasaranda Şahdağın ətəyində Şirvanşahın birləşmiş qüvvələri ilə qızılbaşlar arasında baş verən döyüşdə öldürüldükdən sonra, Sultan Yaqub tərəfindən İsmayıl anası və qardaşları – Sultanəli və İbrahim ilə birlikdə Şiraz yaxınlığındakı İstəxr qalasında həbsdə 5 il saxlanılır. Onda İsmayılın hələ iki yaşı tamam olmamışdı. Bir müddətdən sonra Uzun Həsənin nəvəsi Rüstəm Mirzə onları həbsdən azad etdirib müstəqil hakim kimi Sultanəlini Ərdəbilə qaytardı. Baysunqur Mirzəyə qarşı yürüşdə Sultanəli də Rüstəm Mirzə ilə birlikdə çıxış etdi. Əhər yaxınlığındakı bu döyüş Rüstəm Mirzə ilə Səfəvilərin birləşmiş qüvvələrinin qələbəsi ilə nəticələnir. Baysunqur öldürüldü. Sultanəli qələbə ilə Təbrizə qayıtdı. Ərdəbildə Səfəvi tərəfdarlarının güclənməsi Rüstəmi qorxuya saldı. Onlara qəsd təşkil edildi. Qəsdin üstü açıldı. Sultanəli qardaşları və yaxın adamları ilə birlikdə Təbrizi tərk edərək Ərdəbilə doğru irəlilədi. Rüstəm onların arxasınca 5 min süvari göndərdi. Döyüş başlanana qədər Sultanəli sufi əmirlərinin yığıncağında İsmayılı Səfəviyyə ordeninin başçısı kimi xələfi təyin etdi. Qardaşlarını Ərdəbilə yola saldı, özü isə düşmən tərəfə döndü. Şəməsi adlanan yerdə (Şəməsi döyüşü) döyüşdə (1494) qızılbaşlar məğlub oldular. Sultanəli həlak oldu.

1494-1495-ci illərdə Rüstəm yenidən Ərdəbili və Səfəvilərin digər mülklərini zəbt etdi. Ağqoyunlu sərkərdəsi Əbih Sultan Ərdəbilə daxil olan kimi Səfəvilərin xeyli hissəsini qılıncdan keçirdi. Lakin qızılbaş tərəfdarları şahzadələri, xüsusən İsmayılı xilas edə bildilər. Səfəvi müridləri İsmayılı Lahicana-Gilanın Biyəpiş vilayətinin hakimi, Kərkiyə sülaləsindən olan Mirzə Əlinin sarayına apardılar.

Rüstəm Mirzə dəfələrlə Kərkiyə Mirzə Əliyə hədələyici məktub göndərib İsmayılı tələb etdi. O isə İsmayılı zənbildə sıx yarpaqlı ağacdan asdı və Qurana and içib onun Gilan torpağında olmamasını 300 süvari ilə gəlmiş Qasım bəyə bildirdi.

Gilana gələndə İsmayıl yeddi yaşında olur. Burada o, Həsən xanın himayəsi altında Lələ Hüseyn tərəfindən tərbiyə olunur. İsmayıl təqribən 6 il burada qalır, tanınmış əmir və alimlərdən dünyəvi, hərbi və dini biliklər öyrənir.

İsmayıl 6 il Lahicanda qaldı. Rumdan, Qaracadağdan(Qaradağ vilayəti), Ərdəbildən yanına çoxlu tərəfdar gəlir, onunla həmrəy olduqlarını bildirirlər. Ağqoyunlularla döyüşdən qabaq Şah İsmayılın dilə gətirdiyi belə bir söz var idi ki, “Ölümə gedən yolda qalibiyyət yoxdursa, ölüm vardır!”

## XURŞİDBANU NATƏVAN

Mehdiqulu xan qızı Xurşidbanu Natəvan 15 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdir. Xurşidbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda «Dürrü yeкta» (Təк inci), el arasında isə «Xan qızı» çağırmışlar.

Balaca Xurşidbanunun ilk tərbiyəçiləri sarayın təcrübəli dayə və mürəbbiyələri olmuşdular. Məktəb yaşına çatdıqda isə evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı Xurşidbanu “Quran” ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur. XIX əsrdə kübar ailələrin uşaqlarına bir qayda olaraq doğma dili ilə bərabər, ərəb və fars dili, onun sərfi-nəvi təlim edildiyindən, Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şeirin qayda-qanunlarını mənimsəmişdir. O, lazımi dərəcədə bilik əldə etdiкdən sonra müntəzəm surətdə mütaliə ilə məşğul olmuşdur. Dahi şərq şairlərin ələ düşən nadir kitabları, qiymətli əlyazmaları Xurşidbanunu klassik ədəbiyyata bağlamışdır.

Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Cavan, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər öz yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə Xurşidbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər. Həyatının çiçək açdığı bir dövrdə Xurşidbanu Tiflisdə yaşamalı olmuşdur. Şəhərin səfalı yerləri, təbii mənzərələri ona xoş gəlsə də, burada yaşamağa məcbur olduğu və çox vaxtları tək qaldığı üçün sıxılmış, qəriblik çəkmişdir. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması

ilə cəmiyyətlərdə maraq oyatmışdır. Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir. Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfəri zamanı o, yüksək rütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüşdür.

Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmuşdur. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Bu fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi vardır. Bunlardan birisi şairənin soy kökküdür. Yəni Natəvanda iki böyük nəslin – Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı vardır. Adlarını çəkdiyimiz bu iki böyük və şərəfli nəslin hər birisi dünyaya bir sıra şair gətirmişdir (məsələn, Cavanşir nəslindən Əbülfət xan Tutinin, Qasım bəy Zakirin, Ziyad-oğlu Qacar nəslindən isə Ziyadi Qarabaği, Müsahib Gəncəvi və bir sıra başqa şairlərin adlarını çəkmək olar). Maraqlıdır ki, Ziyadi Qarabaği və Musahib Gəncəvi vaxtilə Qarabağ bəylərbəyisi olmuşdur. Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov "Natəvanın şair qohumları" kitabında (B., 1989) bu məsələni geniş açıqlayır. Eyni zamanda, Ziyadoğlu Qacar nəslindən çıxan şairlərdən söz başqa kitablarda da açılır Füzuli adına Respublika əlyazmalar institutunun fondunda Müsahib Gəncəvinin şeir divanı saxlanılır və bu əsərin üzərində institutun əməkdaşları elmi tədqiqatlar aparırlar.

## MARAQLI ŞƏXSİYYƏTLƏR

### QARA QARAYEV

Qara Qarayev 1918-ci il fevralın 5-də Bakı şəhərində məşhur həkim-pediatr Əbülfəz Qarayevin və Sona xanım İskəndər qızının ailəsində anadan olmuşdur. Qara Qarayev nəslində özünü musiqi sənətinə həsr eləmiş ilk adamdır. Ata tərəfi Abşeronun Fatmayi kəndindən, ana babası İskəndər bəy Axundov isə Şamaxının məşhur nəsillərindən idi. Bu ailə 20-ci əsrin Bakı ziyalıları kimi çox da zəngin deyildi.[1] 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyası yanında musiqi məktəbinə qəbul edilmiş, 1930–cu ildən Azərbaycan Dövlət Konservatoriyası yanında musiqi texnikumunda professor Georgi Şaroyevin fortepiano sinfinin tələbəsi, 1935–ci ildən isə Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq (Leopold Rudolf) və Azərbaycan xalq musiqisinin əsasları (Üzeyir Hacıbəyov) siniflərinin tələbəsi olmuşdur.

1937–ci ildən Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul edilmişdir. 1938–ci ildən 1940-cı ilədək P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında bəstəkarlıq sinfinin (A.N.Aleksandrov) tələbəsi olmuş,

1941–ci ildə Bakıya qayıdaraq Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri vəzifəsini tutmuşdur.

1944–cü ildə Azərbaycan Bəstakarlar İttifaqının İdarə Heyəti sədrinin müavini və yenidən 1946-cı ilədək Moskva Dövlət Konservatoriyasında bəstəkarlıq sinfinin (Dmitri Şostakoviç) tələbəsi olmuşdur.

1946–cı ildən Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq sinfində müəllim kimi işə başlamış, elə həmin il Cövdət Hacıyevlə birlikdə yazılmış “Vətən” operasına görə SSRİ Dövlət mükafatı laureatı olmuş, SSRİ Bəstəkarlar İttifaqı təşkilatı komitəsinin üzvü seçilmiş və “Əməkdə igidliyinə görə” medalı ilə mükafatlandırılmışdır.

1948–ci ildə SSRİ Bəstəkarlar İttifaqı idarə heyətinin üzvü seçilmiş, Azərbaycan Dövlət Konservatoriyasının dosenti, “Leyli və Məcnun” simfonik poemasına görə Dövlət mükafatı laureatı olmuş və Azərbaycan Elmlər Akademiyasının memarlıq və incəsənət İnstitutunun musiqi bölməsinə rəhbərlik etməyə başlamışdır. 1949-1953-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının direktoru olmuşdur. 1950–ci ildə SSRİ Nazirlər Soveti yanında SSRİ Dövlət mükafatları üzrə komitənin üzvü təyin edilmiş, 1952–ci ildə Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin sədri seçilmişdir.

1953–cü ildə Leninqrad Dövlət Kiçik (“Malıy”) opera teatrında “Yeddi gözəl” baletinin ilk tamaşası qoyulmuşdur.

1954–1982-ci illərdə SSRİ Lenin və Dövlət mükafatları, 1955–ci ildə Azərbaycan SSR-in əməkdar incəsənət xadimi, 1958–ci ildə Azərbaycan SSR xalq artisti adlarını almışdır.

1956–1973-cü illərdə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi işləmiş, 1957–ci ildə SSRİ kinematoqraf işçilər ittifaqının üzvü, “Bir məhəlləli iki oğlan” filminin musiqisinə görə birinci Ümumittifaq sovet filmləri festivalının laureatı, 1962-ci ilədək SSRİ Bəstəkarlar İttifaqı idarə heyətinin üzvü olmuşdur. 1955-1976-cı illərdə IV-IX çağırış SSRİ Ali Sovetlərinin deputatı olmuşdur.

1959–cu ildə SSRİ xalq artisti, Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq kafedrasının professoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, 1960–cı ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü seçilmişdir.

1961-ci ildə Cənubi Afrika yazıçısı Piter Abrahamsın eyniadlı əsəri əsasında yazdığı “İldırımlı yollarla” baletindən İkinci süitanın ifası ilə bağlı Los-Ancelesdə Birinci Beynəlxalq Çağdaş Musiqi festivalının iştirakçısı olmuş, həmin il “Qırmızı Əmək Bayrağı” ordeni ilə mükafatlandırılmışdır.

1963–ci ildə Leninqrad Kiçik (“Malıy”) opera teatrının qastrolları zamanı Qahirədə “Yeddi gözəl” baletinin tamaşaya qoyulması ilə bağlı Misir Ərəb Respublikasında səfərdə olmuşdur. 1964–cü ildə SSRİ Böyük teatrının qastrolları zamanı “İldırımlı yollarla” baletinin tamaşaya qoyulması ilə bağlı “Varşava payızı” çağdaş musiqi festivalında iştirak etmişdir.

1965–ci ildə “Antoni və Kleopatra” tamaşasına yazdığı musiqiyə görə M.F.Axundov adına Mukafatın Laureatı, aprelin 21-i Moskvada, iyunun 2-i Bakıda Üçüncü simfoniyanın ilk ifası baş tutmuşdur.

1966-cı ildə Dirijorların İkinci Ümumittifaq musabiqəsində münsiflər heyətinin sədri olmuş, sovet mədəniyyət və incəsənət ustaları arasında İspaniyaya səfər etmiş, Bakıda “Klassik süitanın” ilk ifası olmuşdur.

1967-ci ildə “İldırımlı yollarla” baletinə görə Lenin Mükafatı və Lenin Ordeni ilə təltif olunmuşdur. 1968–ci ildə aprelin 21–də Qorki (indiki Nijni Novqorod) şəhərində, aprelin 28-i Moskvada Violino ilə Simfonik Orkestr üçün Konsertin ilk ifaları olmuşdur.

1969–cu ildə “Yeddi gözəl” baletinin və “Leyli və Məcnun” simfonik poemasının musiqisinə balet tamaşasının göstərilməsi ilə bağlı Parisdə keçirilən ümumdünya rəqs festivalına, sovet mədəniyyət və “incəsənət” ustaları arasında Yaponiyaya səfər etmişdir.

1971–ci ildə “Qoysa” filmininə yazdığı musiqi ilə bağlı çəkiliş bölüyü ilə Almaniya Demokratik Respublikasında səfərdə olmuş, həmçinin həmin il Oktyabr İnqilabı Ordeni ilə mükafatlandırılmışdır.

1972–ci ildə “Varşava payızı” çağdaş musiqi festivalında və Bəstəkarlar İttifaqları Katibliklərinin Toplantılarında keçirilən balet artistlərinin İkinci Beynəlxalq Müsabiqəsində münsiflər heyətinin üzvü olmuşdur.

1973-cü ildə P.İ. Çaykovski adına Beşinci Beynəlxalq Musiqi Müsabiqəsinin münsiflər heyətinin üzvü, modal musiqi məsələləri ilə bağlı Türkiyədə keçirilən beynəlxalq konqresdə iştirak etmişdir.

1976-cl ildə “Gənc bəstəkarların yetişdirilməsi” simpoziumunun işində iştirak etmiş, sovet və italyan bəstəkarlarının ikitərəfli görüşündə iştirakı ilə bağlı İtaliyanın Pezaro şəhərinə səfər etmişdir.

1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı[2] adını almış, Ümumdünya müəllif hüquqları agentliyi konqresinin iştirakçısı kimi Parisdə səfərdə olmuş, Moskva operetta teatrında “Çılğın qaskoniyalı” müziklinin ilk tamaşası qoyulmuşdur.

1982–ci il mayın 13-də Moskva şəhərində dünyasını dəyişmişdir. Bakıda dəfn olunmuşdur.

## SƏTTAR BƏHLULZADƏ

Səttar Bəhlulzadə 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində anadan olub. 1927-ci ildə rəssamlıq məktəbinə, 1931-ci ildə Azərbaycan Rəssamlıq Məktəbinə, 1933-cü ildə isə Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olub. 1941-ci ildə V. İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirib. Məşhur rəssamlar V. A. Favorskinin və Q. M. Şaqalın tələbəsi olub. Yaradıcılığa “Kommunist” qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlayıb. 1931-1933-cü illərdə o dövrə uyğun məzmunlu ilk karikaturaları çap edilib.

Səttar Bəhlulzadə iki Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur.

Əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində və Azərbaycan Dövlət Şəkil Qalereyasında, eləcə də Moskva və s. şəhərlərin muzeylərində saxlanılır.

Bəhlulzadə 14 oktyabr 1974-cü ildə Moskvada vəfat etmişdir. Əmircan kəndində dəfn olunmuş, qəbri üstündə ona abidə ucaldılmışdır. Moskvadan qayıtdıqdan sonra Bəhlulzadənin yaradıcılığında tarixi mövzülar və tarixi şəxsiyyətlərin təsviri (“Babək üsyanı”, “Fətəli xan”, “Xəttat Mir Əli” və s. əsas yer tutmuşdur. Müharibədən sonrakı illərdə Bəhlulzadə Abşeronun neft mədənlərini, bağ və kəndlərini təsvir edən rəsmlər yaratmışdır. Bəhlulzadənin yaradıcılığında təbiət təsvirlərinə meyil getdikcə güclənmiş, o, mənzərə janrında daha bitkin əsərlər yaratmağa başlamışdır. 1946-1947-ci illərdə Respublika bədii sərgilərində Bəhlulzadənin Abşeron etüdləri (“Buzovna neft mədənləri”, “Əmircan” və s.) nümayiş etdirilmişdir.

Bəhlulzadənin gərgin yaradıcılıq axtarışlarının məhsulu olan “Xəzər üzərində axşam”, “Xəzər gözəli”, “Əbədi məşəllər”, “Kəpəzin göz yaşları”, “Vətənimin baharı”, “Azərbaycan nağılı”, “Suraxanı atəşgahı” , “Əfsanəvi torpaq”, “Şahnabat”, “Naxçıvan. Axşamçağı Ordubad bağlarında”, “Vətənimin baharı”, “Bakıda atəşfəşanlıq”, “Qudyalçay vadisi”, “Qızılbənövşəyə gedən yol”, “Suraxanı atəşgahı”,“Əmircan”, “Neft daşları”,“Şamaxı üzümlükləri” və s. əsərləri əsas yer tutur.

Onun mənzərə-peyzajlarında, intim-lirik natürmortlarında, incə xalça ornamentlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığı motivləri hiss edilir. Bəhlulzadənin fərdi sərgiləri Əlcəzair, Misir, Livan, Suriya, Tunis, Norveç, ADR, Çexoslovakiya, Bolqarıstan, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və dünyanın bir sıra başqa ölkələrində nümayiş etdirilmişdir. Dünyanın onlarla muzeylərində Səttar Bəhlulzadənin əsərləri daimi eksponatlar sırasındadır.

## Fənlərarası inteqrasiya

***Fənlərarası inteqrasiya zamanı ayrı-ayrı fənlər üzrə müraciət edilmiş məzmun standartları:***

### Tarix

1.2.1. Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir.

1.2.2. Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir.

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliyyətlərində baş vermiş dəyişiklikləri izləyir və onların səbəblərini izah edir.

3.1.1. Mərkəzləşmiş dövlətin yaranması və tənəzzülü, Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətlərini şərh edir.

4.1.1. Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Qubalı Fətəli xan, Hacı Çələbi) fəaliyyətini dəyərləndirir.

### Coğrafiya

1.1.1. Yeni elm sahələrinin yaranmasını izah edir.

2.1.3. İqliməmələgətirən amilləri və dünyanın iqlimində baş verən dəyişiklikləri izah edir.

3.2.1. Ölkələri inkişaf səviyyəsinə görə təhlil edir.

3.2.3. Təsərrüfatın inkişafında təbii ehtiyatların rolunu qiymətləndirir.

### Ədəbiyyat

1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir.

2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir.

3.1.2. Əlavə məlumatlara və təəssüratlarına əsaslanmaqla mövzuya və problemə münasibət bildirir.

## QİYMƏTLƏNDİRMƏ CƏDVƏLLƏRİNDƏN NÜMUNƏLƏR

### MƏZMUN XƏTLƏRİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

**Şagirdin adı, soyadı** ________________________________

**Tarix** ________________________________

*Cədvəl 1.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| **Dinləyib-anlama: Dinlədiyi fikri anladığını nümayiş etdirir:** | | | |
| 1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | | | |
| 2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | | | |
| **Danışma: Şifahi nitq bacarıqları nümayiş etdirir:** | | | |
| 1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | | | |
| 2. Nitqini uyğun səs tonu ilə tənzimləyir. | | | |
| 3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | | | |
| 4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | | | |
| **Oxu: Mətni mənimsədiyini nümayiş etdirir:** | | | |
| 1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | | | |
| 2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | | | |
| 3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | | | |
| **Yazı: Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir:** | | | |
| 1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | | | |
| 2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır. | | | |
| 3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | | | |
| 4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır. | | | |

**Müəllim şagirdlə birlikdə qiymətləndirməni həyata keçirir.**

*Cədvəl 2. Qrupları qiymətləndirmək üçün meyarlar:*

| Qrupların №-si | Əməkdaşlıq | Dinləmə | İntizam | Əlavələr | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək qrupun işindən asılı olaraq hər meyarın altında "+" və ya "-" yazılır. Sonuncu sütunda "+" və ya "-"lar hesablanır.

*Cədvəl 3. Müəllim meyarlar üzrə qrupların fəaliyyətini qiymətləndirir.*

| Meyarlar<br>Qruplar | Müzakirədə iştirak edir | Tapşırıqları yerinə yetirir | Öz fikirlərini aydın ifadə edir | Yoldaşlarını dinləyir və suallar verir | Nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək müəllim təyin edilmiş ballar üzrə qrupun fəaliyyətini qiymətləndirir.

*Cədvəl 4. Şagirdin özünüqiymətləndirməsi*

<table>
<tr><th rowspan="2">Sıra №-si</th><th rowspan="2">Adı, soyadı, atasının adı</th><th colspan="3">Meyarlar</th><th rowspan="2">Nəticə</th></tr>
<tr><th>Müzakirədə iştirakı</th><th>Bir-birini dinləməsi</th><th>Mühüm fikirlərin irəli sürülməsi</th></tr>
<tr><td>1.</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>2.</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>3.</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>4.</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

Cədvəldə hər şagird həm özünə, həm də yoldaşına 1 baldan 10 bala qədər qiymət yazır.

*Cədvəl 5. Müəllim qrupların fəaliyyətini onların dərsdə iştirak etmə səviyyəsinə görə qiymətləndirir.*

| Meyarlar | Fikrini sərbəst ifadə edir | | | | Nəticə çıxarır | | | | Mühakimə yürüdür | | | | Əməkdaşlıq edir | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səviyyə Qrup №-si | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV |
| 1. | | | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | | | |
| 4. | | | | | | | | | | | | | | | | |

Müəllim qiymətləndirməni 1-10 bal əsasında aparır.

*Cədvəl 6. Şagirdin özünüqiymətləndirmə cədvəlləri:*

| Meyarlar Şagird | Təqdim edir | Cümlə qurur | Fərqləndirir | Nəticə çıxarır |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |

*Cədvəl 7. Birinci dərs üzrə qiymətləndirmə cədvəlinə dair nümunə.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Şeirin hissələrini müəyyənləşdirə bilir. | | | |
| Müvafiq nümunələrdən şeirin hissələrinə uyğun istifadə edir. | | | |
| Səs tonu, temp və fasiləni gözləyərək şeiri oxuyur. | | | |
| Fellərdə zaman, isimlərdə hal şəkilçilərinin ahəng qanununa uyğun sözlərə artırılması qaydasına əməl edir. | | | |

# SÖZLÜK

## Aa

Ali Baş Komandan – главнокомандующий
ağzı dada gəlmək – burada: почувствовать прелесть чего-то, войти во вкус
amansız – беспощадный
ahəng – burada: ритм, тон
alaçıq – лачуга, войлочный шатёр
ağzı köpüklənən – с пеной у рта
alqış etmək – burada: благославлять
alatoran – утренний сумрак, полумрак
Allahın dərgahı – у Господа Бога
al – burada: алый, пурпурный, красный
ağciyər xəstəlikləri – лёгочные болезни
amiranə səs – повелительный, властный голос
aşüftə – унылый, печальный
aşiqi-şeyda – burada: влюбленный
axar-baxarlı – раздольный, просторный
aciz qalmaq – не находить выхода
ayin – обряд
arıçı – пчеловод

## Bb

boranıplov – вид плова
barı – burada: хотя бы, хоть
bir əlcə – burada: маленький
Başına sənət qəhət idi? – burada: разве нет другой профессии?
boğazı tikilmək – burada: не может кушать
büruzə verməmək – не подавать виду
boşa çıxmaq – пропасть даром
baxışları zillənmək – burada: пристально смотреть
biganə qalmaq – остаться безразличным (равнодушным)
baş alıb-getmək – уйти куда глаза глядят
boğuq səs – хриплый голос
boğuşmaq – грызться
baharın nəsimi – весенний ветерок
bəhrələnmək – получать выгоду, пользу
buxovlamaq – оковывать (в кандалы)
bəxtini sınamaq – испытать удачу
becərilmə – выращивание
bikef – грустно, печально
barmağını dişlədi – призадумался
bələdçi – путеводитель
bəyaz – белый, белого цвета
başdaşı – надгробный памятник
belbağı – пояс
bica – напрасно
bəhanə – повод, предлог
büdrəmək – спотыкаться
baqqal – бакалейщик
bada vermək – проматывать, пускать на ветер
başına iş açmaq – заварить кашу
basqınçı – грабитель
bərəkət – изобилие, выгода, прибыль
boy vermək – burada: подниматься
bədnal – не поддающийся подковке
bac vermək – burada: не отступать в силе
buxov – оковы

## Cc

can yandırmaq – проявлять усердие
canına yayılmaq – burada: понравиться
ciddiyyət – строгость
cəngi – воинственный марш
canını yaxmaq – burada: уничтожить
coşqu – бурность
car çəkdirmək – объявлять
cazibədar – очаровательный
cazibə – притяжение
cılız – худощавый
canından bezmək – надоело жить
canını qurtarmaq – burada: умереть, дойти до отчаяния

## Çç

çırpınmaq – биться, трепетать
çaqqal – шакал
çarmıxa çəkmək – распять
çörək ağacı – кормилец
çömbəlmək – нагнуться
çatılmaq – зажигаться
çarəsiz qalmaq – оказаться в безвыходном положении
çuxa – верхняя длинная мужская одежда
çaş-baş qalmaq – теряться, растеряться
çalar – оттенок
çağlamaq – кипеть, клокотать
çeşid – разновидность

## Dd

dənli – зерновой
dəmə qoymaq – выпаривать на слабом огне
dişlərini qıcamaq – стиснуть зубы
dilmanc – переводчик
daraşmaq – burada: нападать, напасть
dəyənək – дубинка
dövrəsini almaq – плотно обступать
döyüş əzmi – боевая устремлённость

daşı ətəyindən tökmək – burada: соглашаться
doraġacı – мачта
doluxsunmaq – растрогаться, расчувствоваться
dərd ortağı – burada: разделяюший горе
dik atılmaq – вспрыгнуть
dəstərxan – скатерть
duruxmaq – замяться
dəridən-qabıqdan çıxmaq – burada: много работать
dirsək – локоть
dəlmək – дырявить, прокалывать
didərgin düşmək – скитаться
dilbər guşə – прекрасный уголок
dirilik alması – живительное яблоко
dəliqanlı – смельчак, задорный
dirsəklənmək – облокатиться

## Ee

eşik – двор
edama məhkum olunmuş – осуждённый на казнь
endirmək – burada: ударить
erkək zarafat – burada: грубая шутка
elliklə – всем народом

## Əə

əngəl – помеха
əlahiddə korpus – отдельный корпус
əl-ayaq yığışdı – burada: тишина
əli işə yatmamaq – не мог ничем заниматься
əqidə – убеждение
ərkyana – бесцеремонно, фамильярно
əldən buraxmaq – не удержать, упустить кого-то
ənam – дар, подарок
əczaçılıq – фармацевтика
əyan – burada: известно; ясно
əsarət – рабство
əsirgəmək – жалеть, пожалеть
əxlaqi-didaktik – нравственно-дидактический
ər – burada: храбрый, смелый, мужественный
əhval-ruhiyyə – настроение
əlçatmaz zirvə – недосягаемая вершина
ədviyyat – пряность
əmin-amanlıq – спокойствие
əməkdar elm xadimi – заслуженный деятель науки
əlin cazibəsi – притяжение руки
əhənglənmiş – известковый
əmanət – вещь, доверенная кому-л. на время
əziz xələf – любимый
əlləzinəni əzbərdən oxutmaq – burada: мучить
əmud – булава, полица

## Ff

fəlsəfi mühakimə – философское рассуждение
fitva – фетва (решение)
fəlsəfi fikirlər – философские мысли
fədakar – самоотверженный
fəth etmək – покорять
füsunkar – очаровательный
fürsəti əldən verməmək – не упустить удобного случая
fürsət tapmaq – найти удобный случай

## Gg

geri oturtmaq – отступать
gecəni səhər etmək – глаз не сомкнуть
gözəgəlimli – burada: красивый, видный
göz dikmək – зариться
göy öskürək – сильный кашель
gözləri böyümək – burada: удивляться
gözləri önündə canlanmaq – burada: вспомнить
gözlərindən qan yağmaq – burada: жестокие взоры
güllər arə – между цветами
göz-göz – ячеистый

## Hh

həvalə olunmaq – поручить
hərbi məharət – военное умение
həmahəng – гармоничный
həmahəng – созвучный
hürufiliyin banisi – основоположник хуруфизма
hədd – предел, граница
həddi-buluğa çatmaq – достигнуть совершеннолетия
hücrə – келья
hamilik etmək – покровительствовать
həlim – burada: мягкий
hüzuruna gəlmək – пойти с поклоном к кому-либо
hüznlü – грустные
haşa – никогда
həddini göstərmək – показать место
hərif – фрайер, субъект
həmişəyaşar – долговечный, бессмертный

## Xx

xəfiyyə – сыщик, шпион
xəyallara dalmaq – погрузиться в грезы
xəfif – мягкий, легкий
xəttatlıq – каллиграфия
xislət – характер

## İi

istinadgah – опора
israrla – настойчиво
ixtiyar – burada: старый
istila – захват
idarə üsulu – способ управления
ixtisaslaşmaq – специализироваться
iqtisadi və mədəni əlaqələr – экономические и культурные связи
işıq üzü görmək – burada: быть изданным
iğtişaş – смута
ictimai xadim – общественный деятель
işıq saçmaq – излучать свет
ifçin – аккуратно
inamsızlıq – недоверие
imperiyanın boyunduruğu – гнёт империи
istiqanlı – приятный, симпатичный

## Kk

kövsər – источник находящийся в раю
kiçik çillə – период весны
keşikçi bürcü – сторожевой бастион
kürək – burada: весло
kükrəmək – бушевать
kürümək – сгребать
küt gedən (çörək) – отпавший от стенки тендира (о чуреке)
kefi üstündə deyil – не в настроении
kirimiş – молча
kərgədan – бегемот
keçəl suya getməz – burada: не верю
közərmək – накаливаться, накалиться
köz – жар
köz düşmək – превращаться в жар
kəhriz – подземный водопровод
külüng – кирка

## Qq

qaşqa – белолобый
qıvırcıq – кудрявый
qüsursuz – безукоризненный
qanmaz – невежа
qeyzlə – гневно, яростно
qaraltı – силуэт, тень
qəhərlənmək – растрогаться
qəm yemə – не печалься; не огорчайся
qan laxtası – свёрнутая кровь
qürub etmək – заходить
qovğalı, qallı – скандальный, буйный
qazi – кази, кади
qıvrım – кудрявый
qələndər – отшельник, скиталец
qorxudan böyümüş gözlər – burada: удивлённые глаза
qətiyyət dolu bir səs – уверенный голос
qapılmaq – burada: предаться чему-л.
qıdıqlanmaq – щекотаться
qovğa – вздор
qəzəl – газель (классическая форма стихотворения)
qoynuna bağlar – burada: привязать к себе
qeyri-maddi – нематериальный
qolu çirməkli – burada: засучив рукава
qıyılmaq – жмуриться
qövsi – дуговой
qərəz – burada: словом, короче говоря
qısmaq – жать, сжимать, поджимать
qan uddurmaq – мучить, истязать
qənşər – burada: противоположная сторона
qundaqlamaq – пеленать
qətiyyət – решимость
qarətçi ordu – армия грабителей

## Ll

ləşgər – армия, войско
ləyaqətli – достойный
liman – порт
laləzar – цветник

## Mm

mövcudluq – существование
müstəsna– исключительный
maddi rifah – материальное благополучие
misilsiz – беспримерный, небывалый
müqəddərat – судьба, участь
məhəccər – перила
mətanət – стойкость
məruz qalmaq – подвергаться
məfhum – понятие
mühafizə olunmaq – burada: охраняться
musiqi duyumu – восприятие музыки
millənmək – взвиться, взвиваться
məslək – 1) убеждения; 2) принцип, вера
məcməyi – поднос
mərhəmətli – милосердный
mərcan gözlü – burada: яркие глаза
müftə malın qənimi – губитель бесплатного товара
mürşid – проводник, вождь
milli-maddi sərvət – национально- материальное достояние
məyus olmaq – огорчаться
məlhəm olmaq – быть утешением для кого-то
maariflәndirmək – просветить
mənzumələr – burada: стихи

məbəd – храм
münasib – подходящий
mətləb – цель, намерение
mövcuddur – существует
mərci – чечевица
mərasim – церемония: обряд
munis – burada: приятный
mixəkgülü – желтофиоль, лакфиоль
məqam – burada: звание, должность
məhdudlaşdırmaq – ограничить
mübaliğə – преувеличение
müstəsna – исключительный
müqəvva – чучело
mənşə – происхождение

## Nn

nizami – упорядочный, организованный
nimçə – тарелка
növraq – благоустройство
nər – burada: храбрый
nəzmə çəkmək – слогать в стихах
narazılıq motivləri – мотивы недовольства
niyyət etmək – намеревать
nisyə – в кредит, в долг
nəhəng sima – знаменитая личность
nadir inci – редкая жемчужина
nimdaş – старый
nilufər – кувшинка
nüfuz etmək – проникать
nalbənd – кузнец, подковывающий лошадей
növrəstə – юный
nərə çəkmək – заорать, рычать
nücum – астрология
nəsib olmaq – доводиться, довестись
nəzərindən qaçmaq – упустить, упускать из виду
naz-nemət – изобилие

## Oo

ovunmaq – burada: успокоиться, утешиться
oyanış – пробуждение, оживление
orman – лес

## Öö

örkən – привязь, широкая длинная веревка
özünəməxsus tərzdə – своеобразно
öyünmək – хвастаться
ölüm-dirim savaşı – бой не на жизнь, а на смерть

## Pp

puça çıxarmaq – сгубить, уничтожить
pir – burada: учитель; основатель какой-нибудь религиозной общины
pərdeyi-naz – burada: кокетство
pəjmürdə hal – расстроенное настроение
püskürmək – извергать

## Rr

rüsvayçılıq – позор
rəsmən – официально
rütbə sahibi – burada: со званием
riyakar – двуличный
ram etmək – подчинить
ruh yüksəkliyi – воодушевление
ruzi – пропитание
rəiyyət – подданные
ruha kölgə salmaq – burada: огорчиться
riz – устар. тропа
rəngkarlıq – живопись
rayihəli – ароматный, душистый
rəngkar – живописец
ram etmək – подчинить
rəng verib rəng almaq – то краснеть, то бледнеть – меняться в лице

## Ss

sərkərdə – полководец
sosial-təminat – социальное обеспечение
səhra topları – полевая артиллерия
sal – плот
sısqa – худой
seçmə şəxslər – избраные люди
sakit bir tövrlə – burada: спокойно
seyrəngah – место гуляния
sərpa – с головы до ног
sikkə – денежная монета
sidq-ürəklə – с душой, усердно
sümüyünə yeriyən – burada: боль до костей
sıldırım –крутой
silsilə tədbirlər – ряд мероприятий
sirri açmaq – раскрывать тайну
süvari – конный
suyu süzülmüş – burada: расстроенный
silsilə – burada: женское украшение
sehrkarlıq – магия
süründürməçilik – волокитство, волокита
sızıldamaq – щипать
sevinc nidası – возглас радости
səngimək – утихнуть
sinə daşları – надгробные камни
sənayeçi – промышленник
sadiq – верный, преданный
səksənmək – вздрогнуть, вздрагивать
səltənət – царство
səcdəgah – алтарь
sarılmaq – обвиваться

sanmaq – burada: считать
sıxıntı – burada: трудность
süsən – ирис
sovuşmaq – burada: миновать
sezmək – чувствовать
sivri – остроконечный
sübhün ayazı – мороз на рассвете
sərf etmək – тратить
sərraf gözü ilə baxmaq – смотреть глазами знатока
sığışmaq – поместиться
sümüyü sürmə olmaq – burada: погибший

## Şş

şəhərin hüdudlarına – в пределах города
şəstinə dəymək – burada: задевать честь
şax qamət – стройный
şəkil at – лошадь в белых чулках
sərrastlıq – меткость, точность
şöləlmək – воспламеняться; гореть; сиять
şahə qalxmaq – burada: подняться на дыбы
şövqlə – воодушевлённо
şücaət – храбрость
şahmar – особая порода ядовитых змей
şanlı – доблестный
şövqi – təbii ilə – инстинктивно, непроизвольно

## Tt

təməl daşını qoymaq – заложить основу
təşvişə düşmək – волноваться
tumarlamaq – гладить
təskinlik vermək – утешать
tikanlı – колючий
təlimatlanmaq – инструктировать
tərk – burada: круп (лошади)
tərənnüm – воспевание
təbabət – медицина
təbliğatçı – пропагандист
təpəl – burada: со светлым пятном, звёздочкой на лбу (о животном)
törəmək – burada: рождаться, размножаться
təriqət – секта
tövşümək – задыхаться, запыхаться
təpədən dırnağa qədər – с головы до ног
tərəqqipərvər – прогрессист
tədqiqat – исследование
tarix elmləri doktoru – доктор исторических наук
təmas – близость
tikmə üsulu – способ вышивки
torpağı sanı yaşamaq – burada: долго жить
təskinedici – утешающий
tərkləşmək – сесть вдвоём на одну лощадь
tərənnüm etmək – воспевать
təəssürat – впечатление
torlu – сетчатый
tor başlıq – сетчатый колпак
təzahür etmət – проявляться, проявиться

## Uu

uzundraz – верзила
ud – лютня
uğultu – шум, грохот
usandırmaq – надоедать, наскучить

## Üü

ümid mənbəyi – источник надежды
üləma – учёный
ümman – море, океан
üfunətli – вонючий

## Vv

vicdan rahatlığı – burada: спокойная совесть
vaiz – проповедник
vətən həsrəti – тоска по родине
verimli – плодородный
vəhdət – единство; общность
varlığıyla duymaq – burada: чувствовать всей душой
varlıq – существование
vəsf eləmək – хвалить, воспевать

## Yy

yolu düşmək – посещать
yadelli – чужеземец
yatağa düşmək – заболеть
yalvarıcı tərz – умоляющий вид
yarımçıq qoymaq – оставить неоконченным, незавершённым
yenəcək – спуск
yatmış vulkan – спящий вулкан
yoğrulmaq – вылепиться

## Zz

zahirən – внешне
zinət – украшение
zat – род, происхождение
zülüm-zülüm ağlamaq – горько плакать
zinətləndirmək – украсить
zamanın darlığı – нехватка времени
zənn etmək – предпологать, думать
zehin – память
zər vurmaq – позолотить
zəfər – победа

## BURAXILIŞ MƏLUMATI

# AZƏRBAYCAN DİLİ 8

Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə metodik vəsait

**Tərtibçi heyət:**

| | |
|---|---|
| **Müəlliflər:** | **Hava ABDULLAYEVA, İradə ƏFƏNDİYEVA, Məlahət ƏLƏSGƏROVA** |
| **Dil və ixtisas redaktoru** | **Nadir MƏMMƏDLİ** *filologiya elmləri doktoru, professor* |
| **Naşir** | **Xəlil HƏSƏNOĞLU** |
| **Redaktor** | **Hafiz RÜSTƏM** |
| **Bədii redaktor** | **Jalə KƏRİMLİ** |
| **Texniki redaktor** | **Ləsfət TALIBOVA** |
| **Korrektor** | **Billurə ƏLƏKBƏROVA** |
| **Dizayner** | **Tural SƏFİYEV** |



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019 - 063)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Fiziki çap vərəqi 10,0. Formatı 70x100 1/16.
Səhifə sayı 160. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı
Tirajı 660. Pulsuz.

**Çaşıoğlu mətbəəsi**
Bakı ş., M. Müşfiq küç., 2A.
Tel. 502-46-91

PULSUZ